

# XİN-də həbslər davam edir - DTX yeni məlumat yaydı

*Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı əməllərə yol vermələri ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilib. Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə...*

Səh.3


# UNİKAL

№22 (2017) 11 iyul 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Elmar Məmmədyarovun "korrupsiya bataqlığı"...

Səh.5



# Oqtay Şirəliyev yenidən tənqid hədəfində

## Ölkənin xarici siyasət idarəsinin nüfuzunu zərbə altında qoyan naziri "Əbülfəs Qarayev ssenarisi" gözləyir

*Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) antikorrupsiya əməliyyatlarında növbə, nəhayət, Xarici İşlər Nazirliyinə (XİN) çatdı. Əslində bu kifayət qədər gözlənilən idi: çünki xüsusilə son bir neçə ildə Elmar Məmmədyarovun rəhbərlik etdiyi nazirlikdə , eləcə də Azərbaycanın xarici ölkələrdəki bir sıra diplomatik nümayəndəliklərində rüşvət və mənimsəmə hallarına yol verildiyi barədə tez-tez söz açılırdı. DTX-nin adıçəkilən nazirlikdə apardığı əməliyyat isə bu iddiaların həqiqətəuyğunluğunu təsdiqlədi.*

*Xatırlatma:*

*DTX-nin XİN-də keçirdiyi əməliyyatla bağlı yayılmış rəsmi məlumatda qeyd olunub ki, XİN-in bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməleri ilə bağlı DTX-ya məlumat daxil olub və bunun əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.*

Səh.7

# "AXCP xaricdəki qüvvələrə xidmət edir"



*Ölkədə həyata keçirilən müxtəlif istiqamətlərdəki islahatlar və dəyişikliklər siyasi arenadan da yan keçməyib. Artıq hakimiyyət tərəfindən müxalifət qüvvələri ilə təmasların yaranması, münasibətlərin yaxınlaşması üçün müəyyən addımlar atılır. Müxalifət qüvvələrinin böyük əksəriyyəti hakimiyyətin...*

Səh.4

# Ermənistanın təxribat siyasəti ifşa olunur



*Son dövrlər Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları müxtəlif təxribatlar törətməklə pozmaqda davam edir.Ən əsası da iki ildir danışıqların formatını dəyişməyə cəhd edir, Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin danışıqlarda...*

Səh.13

# İqtidar-müxalifət dialoqu davam edir



*İyun ayının 8-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu arasında görüş keçirilib.*

Səh.9

# İlham Əliyev monqolustanlı həmkarını təbrik etdi



***Prezident İlham Əliyev Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqaya təbrik ünvanlayıb.***

“Unikal”xəbər verir ki, təbrikdə deyilir: “Hörmətli cənab Prezident, Monqolustanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xoş ənənələrə əsaslanan Azərbaycan-Monqolustan münasibətləri həm ikitərəfli, həm də beynəlxalq müstəvidə bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Monqolustan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram”.

# İlham Əliyevin təşəbbüsü ilə BMT-nin xüsusi sessiyası işə başlayır

***Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bu gün BMT-nin COVİD-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası işə başlayır.***

“Unikal”ın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Operativ Qərargahın brifinqində deyib.



H.Hacıyev qeyd edib ki, BMT tarixində cəmi 30 xüsusi sessiya keçirilib və bu xüsusi sessiya Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilir.

PA rəsmisi bildirib ki, Azərbaycanın epidemiya ilə mübarizə istiqamətində gördüyü tədbirlər xaricdən olan həmkarlarımız tərəfindən yüksək qiymətləndirilir. H.Hacıyev vurğulayıb ki, bu konfrans epidemiyaya qarşı mübarizədə qlobal həmrəyliyə mühüm töhfə verəcək.

# Bəzi rayonlar sərt karantin rejimindən çıxarıla bilər - RƏSMİ

***Epidemioloji vəziyyətin dəyişməsindən asılı olaraq sərt karantin rejiminin tətbiq edildiyi rayonların bəziləri siyahıdan çıxarıla bilər.***

“Unikal”ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən mətbuat konfransında Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva deyib. Onun sözlərinə görə, vəziyyətdən asılı olaraq bu siyahıya başqa rayonlar da əlavə edilə bilər: ”Bu, rayonlardakı vəziyyətdən asılıdır. Karantin elan olunmayan ərazilərdə epdemioloji vəziyyət nəzarət altındadır. Digər rayonlarda da vəziyyət idarə olunan olsa, karantin siyahısından çıxarıla bilər”.

# TƏBİB-lə Səhiyyə Nazirliyi arasında səlahiyyət bölgüsü aparılır

***“Azərbaycanda koronavirusa qarşı mübarizədə bütün dövlət strukturlarının fəaliyyəti qarşılıqlı əlaqə şəraitində həyata keçirilir”.***

“Unikal”ın məlumatına görə, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

TƏBİB və Səhiyyə Nazirliyi arasında əmək bölgüsünə gəlincə, H. Hacıyev deyib ki, Azərbaycanda səhiyyə sistemində islahatların aparılması nəzərdə tutulurdu: “Koronavirus müharibəsi səbəbindən TƏBİB və Səhiyyə Nazirliyi arasında təhsil-təslim, səlahiyyətlərin bölgüsü tam başa çatmayıb. Ona görə də hər iki qurumun birgə fəaliyyəti təşkil olunur. Məqsəd koronavirusa qarşı mübarizənin effektiv aparılmasıdır”.

# Baş Nazirdən sərnişin və yük daşımaları ilə bağlı qərar

***Nazirlər Kabineti “Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının keçirilməsi Qaydası”nı təsdiq edib.***

Unikal.org xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb.

Qaydaya əsasən, operatorun məsul şəxsinin (şəxslərinin), həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin hazırlığı və yenidən hazırlığı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən həmin Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki “Nəqliyyat Təlim-Tədris Mərkəzi” MMC-də və yaxud Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqında akkreditasiyadan keçmiş digər qurumlarda təşkil edilir və keçirilir.

Hazırlıq üzrə məşğələlər tədris kabinetlərində, təlim meydançasında və simulyator (avtotrenajor) otaqlarında müvafiq sahə üzrə yüksəkixtisaslı və təcrübəli müəllim və (və ya) təlim ustaları cəlb olunmaqla keçirilir.

Hazırlığın yüksək keyfiyyətini və səmərəliliyini təmin etmək məqsədilə tədris qrupları 25 nəfərdən çox və 10 nəfərdən az olmayan sayda (sürücülərə münasibətdə) olmaqla formalaşdırılır. Tədris proqramları üzrə məşğələlər nəzəri (mühazirələrdən) və praktiki hissələrdən, həmçinin yekun qiymətləndirmədən ibarətdir. Məşğələlər bir sutka ərzində 6 saatdan artıq olmamaqla keçirilir.

Hazırlıq zamanı məsul şəxslərə avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının təşkilinin özünəməxsusluqları, bu sahədə mövcud olan hüquq normaları, işgüzar adətlər, müxtəlif müqavilə növlərinin hüquqi və praktiki aspektləri, avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların maliyyə menecmenti, beynəlxalq daşımalarda istifadə olunan nəqliyyat vasitələrinin istismarına dair tələblər və onların istismar xüsusiyyətləri barədə məlumatlar verilir.

Hazırlıq üzrə məşğələlərdə avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar yerinə yetirən sürücülərə yüklərin qəbulu, rəsmiləşdirilməsi, təhlükəsiz yerləşdirilməsi, bərabər paylanılması, bərkidilməsi, daşınması və təhvil verilməsi qaydaları, müxtəlif növ yüklərin daşınmasının şərtləri və xüsusiyyətləri, eləcə də sərnişin daşınmasının ümumi şərtləri, baqajın (əl yükünün) daşınmasının təşkili və saxlanılmasının şərtləri, habelə avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlar barədə məlumatlar verilir.

Məsul şəxslərin və sürücülərin hazırlığı üzrə tədris proqramında nəzərdə tutulmuş dərslərin saatı tədris proqramlarında qeyd olunan qədər olmalı, yenidən hazırlıq isə həmin proqramlar əsasında 35 saatdan az olmamalıdır.

Hazırlıqda iştirak etmək üçün müraciət etmiş və müvafiq sənədləri təqdim etmiş şəxslərə



hazırlığın başlanılmasına azı 10 (on) gün qalmış bu barədə məlumat verilir. Hazırlıq və yenidən hazırlıq üzrə məşğələlər əyani formada keçirilir.

Hazırlıq və yenidən hazırlıq zamanı şəxslər kağız və (və ya) elektron daşıyıcılarda hazırlıq materialları ilə təmin olunurlar.

Hazırlıq və ya yenidən hazırlıq üzrə məşğələlərdə iştirak edən məsul şəxsin (şəxslərin) və ya sürücülərin hazırlıq səviyyəsi hazırlığın və ya yenidən hazırlığın yekununda test üsulu ilə yoxlanılmaqla qiymətləndirilir.

Proqramın müvafiq mövzuları üzrə test tapşırıqlarının 60%-nə və ya daha çoxuna cavab verən məsul şəxslər və sürücülər hazırlığı müvəffəqiyyətlə bitirmiş hesab edilirlər və onlara hazırlıq keçmələrini təsdiq edən, etibarlılıq müddəti 5 il olan və forması Nazirlər Kabineti tərəfindən təsdiq edilən şəhadətnamə və tədris olunan mövzulara dair əyani yaddaş materialları təqdim edilir.

Proqramın müvafiq mövzuları üzrə test tapşırıqlarının 60%-nə cavab verə bilməyən şəxslərin proqramın mövzuları üzrə bilikləri 6 ay ərzində təkrarən qiymətləndirilir.

Qiymətləndirmədə qeyri-məqbul nəticə göstərən şəxslər müvafiq proqram üzrə hazırlığı bitirdikdən sonrakı 6 ay müddətində təkrar qiymətləndirmədə müvəffəqiyyət göstərmədikdə, hazırlığı və ya yenidən hazırlığı təkrar keçməlidirlər.

# “Qaçqınkom”dan Palataya cavab: Nöqsanlar aradan qaldırılır

***”Hesablama Palatası iyunun 8-də özünün rəsmi internet səhifəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasına dair apardığı uyğunluq auditinin nəticələri barədə məlumat yerləşdirib. Audit nəticəsində aşkar edilən nöqsanların aradan qaldırılması məqsədi ilə Dövlət Komitəsi tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir”.***

Dövlət Komitəsinin Mətbuat xidmətindən “Unikal”a verilən məlumata görə, bir sıra məsələlər auditin aparıldığı müddətdə öz həllini tapıb,

”Hesablama Palatasının məlumatında qeyd edilən məbləğdə vəsaitin dövlət büdcəsinə bərpası təmin olunub. Həmçinin vahid aylıq müavinət alan şəxslərin siyahılarının dəqiqləşdirilməsi üçün həmin siyahıları tərtib edən müvafiq yerli icra hakimiyyəti orqanlarına məktub göndərilib.

Qeyd edək ki, Dövlət Komitəsində vahid elektron informasiya bazasının yaradılması və onun işinin təkmilləşdirilməsi məcburi köçkünlərin sosial müdafiəsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasında şəffaflığın təmin olunmasına imkan verir. Dövlət Komitəsi bir daha bildirir ki, Azərbaycan Respublikası Hesablama Palatasının müəyyən etdiyi nöqsanların tam aradan qaldırılması üçün bundan sonra da bütün zəruri tədbirlər görüləcəkdir”, Dövlət Komitəsindən bildirilib.

## ELAN

Gədəbəy rayon Parakənd kənd sakini Tanarverdiyev Səfər Həsən oğlunun anası ,Həsənova Yetər İsə qızına məxsus olan YN- 0323, kod- 50519038 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500

# XİN-də həbslər davam edir - DTX yeni məlumat yaydı

*Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı əməllərə yol vermələri ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilib.*



Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, aparılan cinayət işi üzrə davam edən araşdırmalar zamanı XİN-in Konsulluq idarəsinin rəisi Faiq Bağırov tərəfindən Konsulluq məsələləri və sənədlərin təsdiqi şöbəsinin üçüncü katibi İlqar Əliyev, Konsulluq hüquq şöbəsinin müdiri Nurupaşa Abdullayev və tabeçiliyində işləmiş digər şəxslər vasitəsilə viza proseduru üzrə çoxsaylı xarici ölkə vətəndaşlarının adlarına Azərbaycan Respublikasına dəvət edən tərəfin vəsatətlərinin qısa müddətdə təsdiqi, habelə Azərbaycan Respublikası və xarici ölkə vətəndaşlarının təqdim etdikləri rəsmi sənədlərə şəhadətnamənin (apostilin) verilməsi, sənədlərin konsul leqallaşdırılmasının, eləcə də onun prosedurlarının tezləşdirilməsinin təmin edilməsi müqabilində əvvəlcədən müəyyən etdiyi konkret məbləğlərdə pul vəsaitlərinin müntəzəm surətdə rüşvət olaraq alınmasına əsaslı şübhələr müəyyən edilib.

Cinayət işi üzrə Faiq Bağırov və digərləri qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrar rüşvət alma cinayət əməllərinə görə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək, barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

# Elman Rüstəmova vaxt verildi – 1 milyardı qaytarmalıdır

***"Son 10 ili bir çox banklar bağlanıb və çoxları öz halal pulunu bu günə qədər də ala bilmir. Nə üçün həmin bank sahiblərinə qarşı sərt tədbirlər görülmür? Axı hamı bilir ki, o pullar buxarlanmayıb, bank sahibləri tərəfindən mənimsənilib. Elə bu günün özündə həmin bankirlər o villalarda yaşayır və bahalı maşınlarda şütüyürlər.***

"Unikal" xəbər verir ki, bunu tanınmış vəkil Aslan İsmayılov özünün "Facebook" hesabında yazıb.

Vəkil qeyd edib ki, həmin banklara nəzarəti həyata keçirən, vətəndaşların halal pullarının mənimsənilməsinin qarşısını almalı olan Mərkəzi Bankın sədri Elman Rüstəmovun elə özünün dövlətə 1 milyarda yaxın borcu var.

"Bu borc barədə mətbuatda məlumatlar getdi, ancaq heç kim tərəfindən aydınlıq gətirilmədig"- deyə, o, sözlərinə əlavə edib.

Unikal.org-un isə əldə etdiyi məlumata görə, sözügedən 1 milyard manat vəsaiti E.Rüstəmov "DekaBank", "StandartBank", "ZaminBank" və digər bağlanan, eləcə də hazırda fəaliyyətdə olanda bir sıra banklardan dostları və qohumlarının şirkətlərinin adına şəxsi mənafeyi üçün alıb. Bildirilib ki, AMB-nın



rəhbərinə həmin vəsaiti dövlətə qaytarmağa ilin sonuna kimi vaxt verilib.

***Nigar Orucova***

# Daha bir qəbul imtahanı keçirildi

## Qəbul imtahanında iki nəfərdə telefon aşkarlandı

***Dövlət İmtahan Mərkəzi sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan şəhər və rayonlarda qəbul imtahanları keçirib.***

Unikal.org xəbər verir ki, pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib.

Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (xüsusi geyim, əlcək, üz siperi, tibbi maska) təmin olunub.

İmtahanlar sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan 41 şəhər və rayonda keçirilib.

İmtahanların təşkil edilməsi üçün ümumilikdə 49 imtahan binası, 740 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 49 ümumi imtahan rəhbəri, 121 imtahan rəhbəri, 965 nəzarətçi-müəllim, 98 buraxılışı təşkil edən əməkdaş, 49 bina nümayəndəsi ayrılıb.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib. İmtahan keçirilən binaların qarşısında sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilib. İmtahan binasına buraxılış rejiminin növbə ilə - lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunub.

İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub. İmtahana gələn iştirakçıların bədən hərarətləri normaya uyğun olub.

İlkin məlumatlara əsasən 2 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Dövlət İmtahan Mərkəzinin bütün inzibati binalarında şənbə və bazar günləri dezinfeksiya işləri aparılacağı üçün DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalına iyulun 13-dən etibarən başlanılacaq.

Əvvəlki illərin məzunları üçün I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının 1-ci mərhələsində, V ixtisas qrupu və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında, həmçinin cari ilin məzunları üçün əlavə xarici dil imtahanlarında istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

9-cu sinif üzrə buraxılış (qəbul) imtahanları, Azərbaycan dili (dövlət dili) imtahanlarının nəticələri isə yaxın 5 gün ərzində elan olanacaq.

***Dürrə Həsənova***

# Oqtay Şirəliyevin səhhəti ilə bağlı açıqlama

***Səhiyyə naziri Oqtay Şirəliyevin səhhətində problem yoxdur, hazırda iş başındadır.***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin aparat rəhbəri Nadir Zeynalov Operativ Qərargahın bugünkü brifinqində deyib.

Onun sözlərinə görə, nazir koronavirusla mübarizədə aktiv iştirak edir.

"Bir neçə dəfə telekanallarda müsahibə verib. Səhiyyə naziri ictimaiyyət qarşısına çıxır. Səhiyyə Nazirliyi ilə ictimaiyyət arasında informasiya mübadiləsi mövcuddur".

# TƏBİB: Plazma müalicəsi müsbət nəticələr verir

***Azərbaycanda hazırda plazma müalicəsi tətbiq olunur. Bununla bağlı müsbət nəticələr var.***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, plazma müalicəsi tətbiq olunan şəxslərlə bağlı statistik məlumatları açıqlamaq hələ tezdir.

Çimərliklərlə bağlı məsələ hamını narahat edir. Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən mətbuat konfransında Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva deyib.

TƏBİB rəsmisi bildirib ki, çimərliklər açıq elan olunsa, oraya axın çox olacaq: "Kimisə içəri buraxıb, kimisə buraxmamaq olmaz. Burada çox ciddi problemlər ortaya çıxa bilər. Əsas məqsəd insanların kütləvi toplanmasının qarşısını almaqdır. Bu məsələ nəzarətdədir".

# "Həkimə telefonla müraciət edilməlidir" - Aparat rəhbəri

***"Poliklinikalara müraciət mümkün qədər telefon vasitəsilə olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Səhiyyə Nazirliyinin aparat rəhbəri Nadir Zeynalov bildirib.

N.Zeynalov qeyd edib ki, Bakı şəhəri üzrə poliklinikaların hamısının əlaqə nömrəsi var:

"Çalışmalıyıq ki, potensial xəstə olan insanların evdə qalmasını təmin edək. Poliklinikaların girişində və yaxınlığında xüsusi məntəqələr yaradılıb. Çalışırıq ki, potensial və potensial koronavirus olmayan xəstələr qarşılaşmasın. Poliklinikada həkimə telefonla müraciət edilməlidir, koronavirus şübhəsi varsa, həkim briqadası ev şəraitində test üçün yaxma götürür. Əgər xəstə poliklinikiya gəlibsə, şübhə varsa, yaxma götürülür və əgər vəziyyəti ağır deyilsə, xüsusi maşınla evə aparılır".

Nazirlik rəsmisi nəzərə çatdırıb ki, tibb işçiləri mütəmadi olaraq qoruyucu geyimlərlə təmin olunur.

# Bakıda sahibkar və 22 nəfər cərimələndi

***Sabunçu Rayon Polis İdarəsi və 15-ci Polis Bölməsinin əməkdaşları tərəfindən karantin qaydalarını pozan şəxslərə qarşı tədbir keçirilib.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, rayonun 2 nömrəli Sovxozun ərazisində yerləşən pomidor məhsulu yetişdirilən istixanada karantin qaydalarının pozulması faktı aşkarlanıb. "Qızıl noxur" adlı obyektin sahibi Kamil Musayevə məxsus istixanada 55 nəfərin sosial məsafə gözlənilmədən toplaşmaları və işləmələri müəyyən edilib.

Araşdırma zamanı həmin şəxslərdən 32 nəfərin icazəsinin olması müəyyən edilsə də, digər 23 nəfərin 1 otaqlı tiklidə sosila məsafə gözləmədən xüsusi karantin qaydalarını pozduqları aşkarlanıb.

22 nəfər və sahibkar Kamil Musayev İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimələniblər.

# "AXCP xaricdəki qüvvələrə xidmət edir"

## Sərdar Cəlaloğlu: "Hakimiyyətdəkilər bizə güllə atıb ki, onlarla bir masa arxasında oturmayaq?"

***Ölkədə həyata keçirilən müxtəlif istiqamətlərdəki islahatlar və dəyişikliklər siyasi arenadan da yan keçməyib. Artıq hakimiyyət tərəfindən müxalifət qüvvələri ilə təmasların yaranması, münasibətlərin yaxınlaşması üçün müəyyən addımlar atılır. Müxalifət qüvvələrinin böyük əksəriyyəti hakimiyyətin bu təşəbbüsünə müsbət cavab verərək, münasibətlərin normallaşmasına səy göstərirlər. Ölkədəki ictimai-siyasi vəziyyətlə bağlı "Unikal" qəzetinə müsahibə verən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu öncə iqtidar-müxalifət münasibətlərindən danışdı.***

***-Sərdar bəy, bir müddət öncə başlanan iqtidar-müxalifət təmaslarını necə qiymətləndirirsiniz? Sizcə, proses hansı nəticələrə gətirib çıxaracaq?***

-Bunu iqtidar-müxalifət münasibətlərinin yaxşılaşdırılması istiqamətində atılan irəliyə doğru bir addım kimi dəyərləndirmək olar. Amma bu siyasət ardıcıl aparılmalıdır, dərinləşməlidir, genişləndirilməlidir. Eyni zamanda,getdikcə daha çox siyasi yükə malik olmalıdır.O zaman iqtidar-müxalifət münasibətlərinin tənzimlənməsinin əhəmiyyəti ola bilər. Əks halda, bu proseslər formal qaydada aparılarsa, bu cür tədbirlər ölkədə heç bir ictimai-siyasi dəyişikliyə gətirib çıxara bilməz.

***-Amma bu təmasların mənasız olduğunu düşünən və bu görüşdən imtina edən müxalifət qüvvələri də var. Məsələn, AXCP və Milli Şura..***

-Ümumiyyətlə, iqtidar-müxalifət münasibətlərinin yaxşılaşmasına mane olan, istər iqtidardakı, istərsə də müxalifətdəki qüvvələr xarici dövlətlərin maraqlarına xidmət edirlər. Bunu ya bilərəkdə, ya da bilməyərəkdən edirlər.

***-Sözünüzdən belə çıxır ki, AXCP xarici qüvvələrə işləyir?***

-Bəli. AXCP xaricdəki qüvvələrə işləyir. Əgər onlar ölkədə iqtidar-müxalifət münasibətlərinin normallaşmasının əleyhinədirlərsə, deməli, xaricdəki müəyyən qüvvələrin maraqlarına xidmət edirlər. Bu gün Azərbaycanda siyasi münasibətlərin normal məcraya gəlməsinə, iqtidarla müxalifətin bir masa arxasında müzakirələr aparmasına ehtiyac var. Bu, ölkənin maraqlarına uyğundur. Kim bunun əleyhinədir? Azərbaycanı istəməyən qüvvələr. Deməli, hansı siyasi qüvvə bu siyasətin daşıyıcısıdırsa. Onda, Azərbaycanın maraqlarına zidd gedir.

***-Axı, onların da müəyyən arqumentləri var...***

-Onların heç bir arqumenti ola bilməz. Dünyada, hətta vətəndaş müharibəsi olmuş ölkələrdə belə, iqtidarla müxalifət arasında münasibətlər olur, təmaslar yaranır. Düzdür, hərənin öz yolu, öz taktikası var, amma ümumi maraq olmalıdır. İndi hərə başının üstünə Məhəmməd Əmin Rəsulzadənin şəkilini vurub, özünü onun davamçısı hesab edir. Rəsulzadə deyirdi ki, hətta kommunistlər bizi qırsa belə, Müsavatla kommunistlərin ittifaqı olmasa, müstəqil Azərbaycan dövlətini yaratmaq mümkün deyil. Yəni, hakimiyyətdəkilər bizə güllə atıb ki, onlarla bir masa arxasında oturmayaq? Biz iqtidarın korrupsiyasından, seçkini saxtalaşdırmasından narazıyıq. Amma Rəsulzadə deyirdi ki, müstəqil dövlət qurmaq üçün ən ziddiyyətli qüvvələr bir araya gəlməlidir. Bir tərəfdən özlərini Rəsulzadənin davamçıları hesab edirlər, o biri tərəfdən də Rəsulzadənin dediklərinin əksinə gedirlər.



***-Sərdar bəy, hakimiyyətlə dialoqa getməyə hazır olan müxalifət öz içində bir razılığa gələ bilmir. Bəs buna nə deyirsiz?***

-Çünki Azərbaycan müxalifətinin bəzi qollarını "5-ci kalon" təşkil edir. Onlar Azərbaycanda nə müxalifətin bir araya gəlməsinə razıdırlar, nə də iqtidar-müxalifət dialoqunun baş tutmasını istəyirlər. Bunlar həm iqtidar- müxalifətin, həm də müxalifətin öz arasındakı münasibətlərin normallaşmasının əleyhinədirlər.

***-Son günlər hakimiyyət nümayəndələri ilə ən çox debata Siz çıxırsız. Mübahisələr olur deyə, Sizi qalmaqal yaratmaqda ittiham edirlər...***

-Mən, ümumiyyətlə, bu cür fikirlərə reaksiya vermirəm. Çünki onların əksəriyyəti trol və digər mənasız adamlardır. Təbii ki, mənim fikrim Quran ayəsi deyil ki, hamı razılaşsın. Razılaşmayanlar, qəbul etməyənlər ola bilər, bu da normaldır. Yəni, istənilən insanın fikirlərinin tərəfdarları da, əleyhdarları da olur. Kimlərsə anonim şəkildə etikadan kənar, arqumentsiz, gic-gic şeylər yazırsa, onlara əhəmiyyət verməyin mənası yoxdur. Ağlı başında olan adam mənim fikirlərimə qarşı arqumentlə çıxış edərsə, mən onu alqışlayaram. Çünki cəmiyyətdə inkişaf o zaman olacaq ki, fikirlərdə ziddiyyətlər olsun, ziddiyyətlərin həlli isə cəmiyyətin inkişafına xidmət eləsin.

***-Bir neçə gün öncə YAP-çı deputat Elman Nəsirovla debatınızı və ona olan münasibətinizi izlədim. Axı, deyəsən, hakim partiyanın nümayəndələri ilə sözünüz düz gəlmir. Dialoqun axırı necə olacaq?***

- İndi pisdir, yaxşıdır, Azərbaycan reallığı budur. Azərbaycanda seçkilərin saxtalaşdırılması, siyasi cəhətdən savadsızlıq, dövlətə bağlı olmayan adamların hakimiyyətdə yer alması ciddi problemlərdir. Ona görə də biz məcburuq, iqtidarla dialoqa hazırıqsa, Elman Nəsirovu da qəbul eləməliyik, o birisini də, bu birisini də.

***-Yaxşı. Siz istədiyiniz dialoq baş tutanda hakimiyyətdən əsas istəyiniz nədən ibarət olacaq?***

-Mənim üçün əsas məsələ Qarabağ probleminin həllidir. Ona görə də hakimiyyətlə dialoqda da öncə bu məsələni qaldıraram. Mənim üçün iqtidar-müxalifət dialoqunun prioritet mövzusu Dağlıq Qarabağ mövzusu olmalıdır.

***-Münaqişənin həlli yolunu nədə görürsünüz?***

-Həm hərbi, həm də danışıq yolu ilə. Hər iki yol gedilməlidir. Burada yolların biri ilə getmək yanlışdır. Ağıllı kişi malını bir gəmiyə yükləməz. Həm hərbi, həm danışıq yolu hər zaman gündəmdə olmalıdır. Türklər demişkən, həm sahədə, həm masada savaşmaq lazımdır. Sahədə nailiyyət əldə eləməsək, masada naliyyət əldə edə bilmərik. Yəni, hərbi yolla nailiyyət əldə eləməsək, danışıqlarda irəliyə getmək mümkün olmayacaq.

***-Konkret təklifiniz nədir?***

-Əvvəlcə müharibə eləməliyik. Bir neçə rayonu geri almalıyıq. Sonra ermənilərə deməliyik ki, indi gəl masa arxasında müzakirə edək, ya da beynəlxalq hüquqa uyğun olaraq, rədd ol öz xarabanda ol. İkisindən biri olmalıdır.

***-Amma bəzi hakimiyyət nümayəndələri də iddia edir ki, Azərbaycan müharibəyə başlasa, rəsmi və qeyri-rəsmi təzyiqlərə məruz qalacaq...***

-Nə təzyiq olur-olsun. Bir xalq öz torpağını işğaldan azad eləmək üçün təzyiqlərə məruz qalmağa hazır deyilsə, o torpaqda yaşamağa haqqı yoxdur. Dünya Ermənistana təzyiq edir. Amma işğalçılıq siyasətini davam etdirir. İndi bizə təzyiq edəcəklər deyə, torpaqlarımızı azad etməməliyik?

***-Bəs cəmiyyət dediyiniz situasiyaya hazırdır?***

-Azərbaycan cəmiyyəti torpaqlarını işğaldan azad etmək üçün müharibəyə tam hazırdır. Heç kim özünü də, övladını da bu məsələdə geri çəkməyəcək. Aprel döyüşləri də bunu sübut eləmişdi.

***-Bəs dediyiniz, xaricə işləyən qüvvələr?***

-Artıq xarici qüvvələrin təmizlənməsi prosesi başlayıb, bu prosesi intensivləşdirmək lazımdır. Müharibə başlayan ərəfədə ölkədəki o agentura şəbəkəsi ifşa olunacaq. O zaman siyasi qüvvələr də, cəmiyyət də bu prosesə yardımçı olmalıdır.

***-Müharibə həm də iqtisadi güc tələ edir...***

-Azərbaycan xalqı 10 il də kasıb yaşamağa hazırdır. Təki müharibə başlasın, torpaqlar işğaldan azad olunsun. Dövlətin imkanı olmazsa, xalqa müraciət edər, kimin əlində nə varsa, ortaya qoyub müharibəyə başlayarıq və qələbə qazanarıq. Əslində, bunların hamısı bəhanədir. Azərbaycanın iqtisadiyyatı imkan verir ki, 4 dəfə Qarabağı işğaldan azad eləsin.

***Z.Məmmədli***

# Baş Prokurorluq suda batan əsgərlə bağlı məlumat yaydı

***Baş Prokurorluq hərbi xidmətdə olarkən Alazan çayında suda batması nəticəsində vəfat etmiş Quba rayonu Üçgün kənd sakini Fərdi Yarəliyevin meyiti üzərində zorakılıq əlamətlərinin aşkar olunması barədə məlumatlara münasibət bildirib.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, həmin məlumatda deyilir:

"Kütləvi informasiya vasitələri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur.

Belə ki, Dövlət Sərhəd xidmətinin N saylı hərbi hissəsindən Zaqatala hərbi prokurorluğuna əsgər Yarəliyev Fərdi Namik oğlunun Alazan çayında suda bataraq ölməsi barədə daxil olmuş məlumat əsasında dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, müvafiq ekspertizalar təyin edilib, şahidlər dindirilib və digər hərəkətlər icra edilib.

Fakt üzrə Zaqatala hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 342.1-1-ci (qulluğa səhlənkar yanaşma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılaraq peşəkar prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılıb və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilir.

Mərhum Fərdi Yarəliyevin meyitinin xarici və daxili müayinəsi zamanı bədən səthində hər-hansı bir xəsarət və ya xəsarət izləri aşkar edilməyib. Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir".

# Oqtay Şirəliyev yenidən tənqid hədəfində

## COVİD-19 pandemiyası səhiyyəmizdə hansı ciddi problemi ortaya çıxardı?

***Dünyanı ağuşuna alan koronavirus (COVİD-19) pandemiyası Azərbaycandan da yan keçməyib. Son həftələrdə ölkə üzrə bu virusa yoluxanların sayında ciddi artım var. Bu isə özü ilə bərabər bir sıra problemləri aktuallaşdırıb. Söhbət ilk növbədə xəstəxanalarda çarpayı çatışmazlığının yarandığı barədə iddialardan gedir. Sosial şəbəkələrdə, KİV-də həmin problemlə bağlı çoxsaylı iradlar və iddialar səsləndirilməkdədir.***



Xəstəxanalarda yer azlığı, çarpayı çatışmazlığı məsələsi gündəmə gəldikdən sonra bəzi mütəxəssislər bildiriblər ki, əgər sözügedən vəziyyət daha ciddi şəkil alarsa, o zaman əlavə məkanlardan istifadə etmək olar. Eyni təcrübəyə bir sıra xarici ölkələrdə indiyədək rastlanıb.

Ekspertlər hazırda mövcud pandemiya səbəbindən fəaliyyət göstərməyən müxtəlif ictimai-iaşə obyektlərinin, olimpiya komplekslərinin, hətta şadlıq saraylarının bu məqsədlə ayrılmasını tövsiyə edirlər.Elə bir neçə gün öncə baş infeksionist Cəlal İsayev də qeyd etmişdi ki, digər ölkələrlə müqayisədə ölkəmizdə vəziyyət qənaətbəxş olsa da, tam qaneedici sayıla bilməz. Sitat: "Çünki artıma meyllilik var. Əgər xəstələrin sayı artarsa, reanimasiya şöbələrində yerimiz olmaz. Hətta tibb işçilərimiz arasında ölənlər var. Xəstələnən həkimlər də artıq xəstələrə qulluq edə bilmirlər. Belə getsə, tibbi personal, avadanlıq, çarpayı çatışmazlığı ilə üzləşə bilərik. Bunu da insanlarımız başa düşməli və bizə kömək etməlidirlər. Bizə kömək etməklə, özlərinə kömək etmiş olurlar".

Yaranmış belə bir situasiyada isə diqqətlər yenidən Səhiyyə Nazirliyinə çevrilib. Bir çoxlarının fikrincə, Oqtay Şirəliyevin nazirliyi ötən illər ərzində öz işini düzgün qura bilsəydi, reallıq xeyli fərqli olardı. Söhbət ondan gedir ki, hətta COVİD-19 pandemiyası baş qaldırmazdan öncə də Azərbaycan xəstəxanalarında çarpayı sayı ürəkaçan səviyyədə deyildi. Şirəliyevin nazirliyi isə bu problemi zamanında aradan qaldırmaq üçün təsirli addımlar ata bilməyib.

Elə rəsmi rəqəmlər də bu tənqidlərin haqlılığına şübhə yeri qoymur. Məsələ burasındadır ki, hazırda Azərbaycan xəstəxanalarında 44 min 45 ədəd çarpayı mövcuddur və bu çarpayıların yalnız 2 min 541 ədədi infeksion xəstələr üçün nəzərdə tutulub. Məlumat üçün bildirək ki, Azərbaycan müstəqillik əldə etdikdən - 1991-ci ildən sonra ölkə əhalisinin sayı təxminən 40% artaraq 7,2 milyon nəfərdən 10 milyon nəfərə yüksəlib. Lakin, əhalinin sayının artmasına baxmayaraq ölkədə xəstəxana çarpayılarının sayı kəskin azalıb. Belə ki, 1991-ci ildə ölkədə 70 min 890 xəstəxana çarpayısı olub. İnfeksion xəstələr üçün nəzərdə tutulan çarpayıların sayı isə 3 min 970 ədəd olub. Rəqəmlərdən də göründüyü kimi müstəqillik dövründə - 1991-2019-cu illər ərzində xəstəxana çarpayılarının sayı 38% və ya 26 min 845 ədəd, infeksion xəstələr üçün nəzərdə tutulan çarpayıların sayı isə 36% və ya 1 429 ədəd azalıb. Azalma nəticəsində, 1991- ci ildə ölkə əhalisinin hər 10 000 nəfərinə düşən xəstəxana çarpayısının sayı 87 olduğu halda, 2019-cu ildə 45-ə düşüb. Son 28 il ərzində azalan təkcə xəstəxana çarpayılarının sayı olmayıb.

Burada zəruri bir haşiyə çıxaq: müstəqillik dövründə tibb işçilərinin sayında da azalma qeydə alınıb. Belə ki, 1991-ci ildə ölkə əhalisinin hər 10 000 nəfərinə düşən həkim sayı 39 olduğu halda, 2019-cu ildə bu göstərici 33 olub. Həkimlər arasında ən ciddi azalma isə infeksion xəstəliklərlə mübarizə aparan gigiyena-epidemioloqların sayında qeydə alınıb. 1991-ci ildə əhalisinin hər 10 000 nəfərinə düşən gigiyena-epidemioloq sayı 2,2 olduğu halda, 2019-cu ildə bu göstərici 0,9 olub. Belə ki, 1991-ci ildə ölkədə 1 589 nəfər gigiyena-epidemioloq olduğu halda, 2019-cu ildə onların sayı 933 nəfər olub. Onu da qeyd edək ki, həkimlərin sayına görə Azərbaycan MDB ölkələri arasında son sıralarda yer alıb. MDB ölkələrində hər 10 000 nəfərə düşən həkimlərin sayına görə ən yaxşı vəziyyət Rusiyada qeydə alınıb. Açıqlanan son məlumata görə, Rusiyada hər 10 min nəfərə düşən həkim sayı 48 olub.

Eyni zamanda hər 10 000 nəfərə Ermənistanda 45, Belarusda 45, Ukraynada 44, Qazaxıstanda 40, Moldovada 36, Qırğızıstanda 22, Tacikistanda isə 21 həkim düşüb. Göründüyü kimi, Azərbaycanda həkimlərin sayı yalnız Qırğızıstan və Tacikistandan yüksək olub.

Həm xəstəxanalardakı çarpayı, həm də həkim sayı ilə bağlı yuxarıdakı rəsmi rəqəmlər belə onu göstərir ki, Oqtay Şirəliyev və rəhbərlik etdiyi nazirlik səhiyyə sistemi üçün önəmli sayılan problemlərin aradan qaldırılmasında, boşluqların doldurulmasında xeyli gecikib. COVİD-19 pandemiyası isə indi bunun fəsadlarını aydın şəkildə gün üzünə çıxarmaqdadır.

Yeri gəlmişkən, ölkə xəstəxanalarındakı çarpayı sayılarının rəsmi rəqəmlərlə üst-üstə düşmədiyini iddia edənlər də var. Onların fikrincə, həmin rəqəmlər şişirdilib. Məqsəd isə büdcədən pul silməkdir. Elə Hesablama Palatasının müxtəlif şəhər və rayon mərkəzi xəstəxanalarındakı audit yoxlamalarının nəticələri də bunu göstərir. Bəzən real çarpayı sayı kağız üzərindəki saydan xeyli az olur...

***Toğrul Əliyev***

# Ədalət Vəliyev daha bir partiya sədri ilə görüşdü



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüş zamanı dünyanı bürüyən COVİD-19 pandemiyası, ölkəmizdə bu virusa qarşı aparılan preventiv tədbirlər, siyasi partiyaların karantin şəraitində fəaliyyəti, yeni siyasi konfiqurasiyanın inkişafı və iqtidar-müxalifət siyasi dialoqu barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə bilavasitə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər, eləcə də Azərbaycan tərəfinin təşəbbüsü ilə müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində COVİD-19 pandemiyası ilə mübarizə mövzusunda videokonfrans formatında zirvə görüşlərinin keçirilməsi yüksək dəyərləndirilib.

Qeyd olunub ki, bu gün ölkəmizdə COVİD-19 pandemiyası dövründə ölənlərin sayı minimal səviyyədədir. Cənab Prezident tərəfindən qəbul edilmiş müvafiq qərarlar nəticəsində koronavirusa yoluxmuş şəxslərin müalicəsi ödənişsizdir, müvafiq 10 müasir modul tipli xəstəxana tikilib, zəruri tibbi avadanlıqlar alınıb, qısa müddət ərzində ölkədə lazımi tibbi ləvazimatların istehsalına başlanılıb, həmçinin iqtisadi sabitliyin və məşğulluqla bağlı problemlərin həlli üçün dövlət dəstək proqramı həyata keçirilib.

Fuad Əliyev qeyd olunan məsələləri yüksək qiymətləndirib və əlavə edib ki, Azərbaycan dövlətinin pandemiya ilə mübarizədə gördüyü işlər nümunəvidir.

Bundan əlavə görüşdə siyasi partiyalar haqqında qanunvericiliyin təkmilləşdirilməsinə ciddi zərurət olduğu qeyd edilib. Vurğulanıb ki, yeni formalaşan Milli Məclisdə müxalifət partiyalarının da rəhbər orqanlarda təmsil olunması məhz siyasi partiyaların fəaliyyətinə dair yeni qanunvericilik aktlarının daha effektiv olacağına ümid etməyə ciddi əsaslar verir.

Daha sonra Ədalət Vəliyev və Fuad Əliyev arasında iqtidar-müxalifət siyasi dialoqunun inkişafı barədə fikir mübadiləsi aparılıb.

Bu barədə ətraflı danışan Ədalət Vəliyev aparılan köklü struktur və kadr islahatlarına toxunaraq, Prezident Administrasiyasında ilk dəfə olaraq xüsusi struktur bölmənin yaradılmasını ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlığın qurulması işinə verdiyi əhəmiyyətdən irəli gəldiyini qeyd edib. O bildirib ki, şöbə tərəfindən dövlət başçısının tapşırığı ilə indiyə qədər görülmüş işlər nəticəsində və ölkədə yeni siyasi mədəniyyətin təşəkkülü fonunda artıq əksər siyasi partiyalarla konstruktiv əməkdaşlığın möhkəm əsasları qurulub. Ədalət Vəliyev qeyd edib ki, ölkə Prezidentinin təşəbbüsü və iradəsi ilə Azərbaycanda artıq siyasi islahatların yeni mərhələsi başlanıb, siyasi sistemin yeni konfiqurasiyası formalaşmaqdadır və bu, iqtidar-müxalifət münasibətlərinin müzakirələr vasitəsilə inkişaf etdirilməsinə söykənir.

Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev ölkədə yaradılmış yeni siyasi konfiqurasiyanın formlaşmasını yüksək qiymətləndirib. Bu prosesin demokratik dəyərlərin möhkəmləndirilməsi, siyasi mədəniyyətin yüksəlməsinə xüsusi dəstək olacağını bildirib. Ölkədə bütün siyasi qüvvələrin ümummilli məsələlərdə, dövlətçiliyin möhkəmlənməsində bir güc kimi olmasının vacibliyinin qeyd edib.

Həmçinin bir neçə gün bundan əvvəl qeyd olunan mövzularla əlaqədar olaraq Milli Məclisin sədri Sahibə Qafarovanın və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə parlamentdə təmsil olunan partiya rəhbərlərinin videokonfrans formatında keçirilən müşavirəsi barədə danışılıb. Bu cür toplantıların daha geniş formatda keçirilməsinin önəmli olduğu vurğulanıb.

***Hüseyn***

# Cahangir Əsgərovun "pandemiya iflası"...

## AZAL niyə yenidən sərt tənqidlərin hədəfinə çevrilib?

***Son günlər "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) fəaliyyəti ictimaiyyət arasında yenidən sərt tənqid hədəfinə çevrilib. Bunun səbəbi isə koronavirus pandemiyasının başlaması ilə əlaqədar olaraq sərhədlərin bağlanmasından sonra ölkədən kənarda qalan vətəndaşlarımızın Azərbaycana gətirilməsi ilə bağlı yaranmış vəziyyətdir. Məsələ burasındadır ki, pandemiya ilə əlaqədar AZAL-a 87 milyon dollar (təxminən 150 milyon manatdan çox) dövlət vəsaiti ayrılmışdı. Bu vəsait əsasən yuxarıda haqlarında bəhs edilən vətəndaşlarımızın ölkəyə dönüşünün gerçəkləşməsinə xərclənməli idi. Lakin Cahangir Əsgərovun rəhbərlik etdiyi qurum faktiki olaraq aylardır vətəndaşları incidir, çarter reysləri ilə 2-3 qat baha qiymətinə biletlər satır, halbuki əksər ölkələr öz vətəndaşlarını pulsuz təxliyə edir.***

Dediyimiz kimi, AZAL-ın da bunu oxşar şəkildə həyata keçirməsinə külli miqdarda vəsait ayrılıb. Lakin "Azərbaycan Hava Yolları" həmin vəzifənin öhdəsindən gəlməkdə çətinlik çəkir, yenə də vətəndaşları özündən narazı salır, ictimaiyyətin tənqid və qınaq hədəfi olmağı bacarır. Həm də həmişəki kimi!

Gəlin belə tənqid və qınaqlardan bəzilərini xatırladaq.

Bir neçə gün öncə Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun (UABD) sədri, hüquq üzrə elmlər doktoru Hikmət Cavadov pandemiya dövründə atdığı addıma görə iki ölkənin hava yolları şirkətlərinin fəaliyyətini sərt tənqid edib. O, məsələnin məntiqinin avia şirkətlərin pandemiya zamanı təxliyyəyə (bunu təxliyyə adlandırmaq olarsa) ehtiyacı olan soydaşlarımızdan qazanacaqları maddiyyat olduğunu deyib. Sitat: "Deməli, 08.07.2020 tarixində "Ukrayna Beynəlxalq Hava Yolları" şirkətinə məxsus olan təyyarə Kiyevdən Bakıya boş (sərnişinsiz) uçaraq oradan bu avia uçuşa 300 ABŞ dollarına bilet (ekonom klass) almış əksəriyyəti azərbaycanlı olan sərnişinləri Kiyevə gətirməyi planlaşdırır.Səhəri gün (09.07.2020) isə "Azərbaycan Hava Yolları" aviaşirkəti Bakıdan Kiyevə boş uçuş həyata keçirərək Kiyevdəki soydaşlarımızı xüsusi çarter reysilə 300 ABŞ dollarına bilet almaqları müqabilində "təxliyyə" etməyə hazırlaşır. Hər iki təyyarə eyni marşrut üzrə 1 gün fərqlə aviareys reallaşdıracağı halda niyə bir tərəfə sərnişinsiz uçuş həyata keçirərək biletin qiyməti ən azı 300 ABŞ dollar təyin edilir? Olmazmı ki, bir təyyarə hər iki istiqamətdə sərnişinlərlə dolu uçsun və pandemiya dövründə xarici ölkələrdə maddi vəziyyətləri onsuz da çətin olan soydaşlarımıza biletləri 300 deyil, deyək ki, 200 ABŞ dollarına satılsın?

Yəni, biletin qiymətinin biznes klasa 700 ABŞ dolları olduğunu nəzərə almasaq belə, yenə də 200 nəfərlik təyyarəyə bilet alan soydaşlarımız ən azından hərəsi 100 ABŞ dollarına qənaət etsələr, bir təyyarədə 20.000 ABŞ dolları vətəndaşlarımızın cibində qalsa olmazmı? Belə bir çətin və həssas dönəmdə bu aviaşirkətlər pandemiyanın yorduğu soydaşlarımızı vətənlərinə rahat uçurmaq əvəzinə, bu halı fürsət bilib onların dövlətə inamlarını havaya uçururlar. Dövlətə sevgini isə sonradan 30-40 min dollara almaq mümkün olmayacaq..."





İqtisadçı Qadir İbrahimli isə təxminən on gün öncə Türkiyə dövlətinə və Türkiyənin Azərbaycandakı səfirliyinə müraciət edib ki, qonşu ölkədə olan Azərbaycan vətəndaşlarının vətənə dönüşünü "Türk Hava Yolları" (THY) üzərinə götürsün: "Ancaq təbii ki, bizim vəsait hesabına... Bu müraciətim AZAL-ın biletləri artıq "qara bazar"a çıxarmasından irəli gəlir. AZAL-ın 9, 11, 16 və 18 iyula satışa çıxarılan biletlərinin guya hamısı satılıb və yalnız biznes-klass biletləri qalıb, onların qiymətləri isə 701 dollardan başlayır". Qadir İbrahimli deyib ki, THY bir qədər əvvəl bilet satışını həyata keçirib və o, qızına 110 dollara bilet alıb: "Eyni vaxtda AZAL çarter reysə bilet satışa çıxartdı, amma qiymət 220 dollara. Sual yaranır; biletin maya dəyəri neçəyə başa gəlir? THY 110 dollara bilet satırsa, deməli, qazanc da götürür. Bəs AZAL niyə 2 dəfə baha - 220 dollara satır?! Deməli, AZAL qaz vurub qazan doldurmaq niyyəti güdür. Məncə, biletin maya dəyəri 55-60 dollar civarında ola bilər, çünki şirkətin gəliri də olmalıdır. Əgər maya dəyəri 55 dollara olan bileti 110 dollara satırlarsa, bu, şirkət və sərnişin üçün də sərfəlidir. Ancaq hər il dövlətdən dotasiya alan AZAL THY-dən 2 dəfə baha qiymətə bilet satır, suallar da burdan başlayır".

Başqa bir iqtisadçı Natiq Cəfərli isə deyib ki, xaricdə qalan vətəndaşlara bilet satışının fərqli şərtlərlə satılması vacibdir, lakin AZAL inhisarçı şirkət olduğundan başqa şirkətlərə öz şərtlərini diqtə edir. Sitat: "Əgər "Türk Hava Yolları"na qalsaydı, indiki biabırçı mənzərə yaranmazdı. Sadəcə, onu məcbur edirlər ki, AZAL-ın şərtlərinə razılaşsınlar... Türkiyədə təkcə tələbələr yoxdur, həm də qalmaq müddəti bitən azərbaycanlılar da var. Onları ölkəyə gətirmək üçün xüsusi çarter reyslər təşkil edilməlidir. Bunu etməkdənsə, biletləri baha satmaq, vicdana və AZAL-ın dövlət -vətəndaş qarşısında öhdəliklərinə ziddir".

Ötən ayın ortalarında isə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov "Azərbaycan Hava Yolları" QSC-yə məktubla müraciət etmişdi. Müraciətdə deyilirdi: "2020-ci il iyunun 18-də açılması nəzərdə tutulan Bakı-Naxçıvan-Bakı aviareyslərinə onlayn bilet satışı ciddi ehtiyacı olanlarda narazılıq yaradıb, nəticədə bilet ala bilməyənlərin çoxsaylı müraciətlərinə səbəb olub. Bu müraciətlərə əsasən, əlavə reyslərə növbəli açıq bilet satışı məqsədəmüvafiq olardı. Nəzərə almağınız xahiş olunur".

Yenə ötən ayın ortalarında məlum olmuşdu ki, iyunun 18-dən Bakı-Naxçıvan-Bakı və xüsusi təşkil olunan Bakı-İstanbul-Bakı reyslərinin bərpası ilə əlaqədar olaraq Azərbaycan Hava Yolları (AZAL) tərəfindən biletlərin satışında özəl qaydalar tədbiq olunacaq. Bu istiqamətlərə olan biletlərin satışı kassalara yaxınlaşmaqla deyil, onlayn şəkildə həyata keçiriləcək. Yeni qaydaların tətbiqi turizm şirkətləri tərəfindən müəyyən narazılıqla qarşılanıb. Bu barədə həmin vaxt Azərbaycan Turizm Agentlikləri Assosiasiyasından (ATAA) məlumat verilib. Bu səbəbdən də ATAA Azərbaycan Hava Yolları (AZAL) ilə əlaqə saxlayaraq məsələyə aydınlıq gətirib. AZAL-ın vitse-prezidenti Eldar Hacıyevin Azərbaycan Turizm Agentlikləri Assosiasiyasına verdiyi açıqlamasına əsasən yeni qaydalarda müəyyən məhdudiyyətlər tətbiq ediləcək. Belə ki, pandemiya dövründə şirkətin sərnişinləri olan vətəndaşların sağlamlığını qorumaq, virusun geniş yayılmasının qarşısını almaq və sosial məsafəni saxlamaq məqsədilə biletlər yalnız onlayn şəkildə satışa çıxarılacaq. Eldar Hacıyevin sözlərinə görə, yeni məhdudiyyətlərin pandemiya dövründə tətbiq olunması çox vacibdir.

Karantin bitdikdən sonra bilet satışları sərnişinlərin istəyinə uyğun olaraq həm kassalara yaxınlaşmaqla, həm də onlayn şəkildə mümkün olacaq.

Eyni zamanda turizm şirkətləri də öz müştərilərinə bilet satışını əvvəlki qaydada həyata keçirə biləcəklər. Azərbaycan Turizm Agentlikləri Assosiasiyası turizm şirkətlərinə bu məsələdə narahat olmamağı, COVID-19 virusunun yaratdığı mövcud vəziyyəti nəzərə alaraq AZAL-ın yeni qaydalarına anlayış göstərmələrini və səbirli olmalarını tövsiyə edir.

Bir sözlə, "Azərbaycan Hava Yolları" pandemiya dövründə etimadı bir o qədər də doğrulda bilməyib. Özü də dövlətin bu QSC-yə kifayət qədər ciddi məbləğdə dəstək göstərməsinə baxmayaraq!

Əvəzində isə AZAL rəhbəri Cahangir Əsgərovun Nabranın ən səfalı, göz oxşayan yerində, "Günəşli" adlanan ərazidə, 30 hektarlıq sahədə, meşənin içində iki malikanə və hoteli aşkarlanıb. Məlum olub ki, Əsgərov "River İnn Boutique" adlanan hotelin yanında özünə luks malikanə tikdirib, mülkün yanında isə hətta helikopter dayanacağı inşa olunub. Geniş bilyard salonu, SPA mərkəzi, boulinq, 100 nəfərlik kinozal, iri kitabxana, fitnes salonu, əyləncə mərkəzi, restoran və bardan ibarət olan həmin ərazinin ümumi dəyəri milyonlarla dollara bərabərdir. Ərazidə süni göl və kanal da var. O da bildirilib ki, otelin yaxınlığında 500-ə yaxın Hələb növünə məxsus keçilər saxlanılır. Onlara xüsusi çobanlar nəzarət edir, içəridə tovuzquşudan tutmuş müxtəlif cür heyvanlar mövcuddur. Malikanə ərazisində həmçinin xadimə və xidmətçilərin, eləcə də bağbanların qaldıqları tikililər var. Nə deyirik, Cahangir müəllimin sağlığına qismət!

Əlavə şərh isə yəqin yersiz olardı. Nəticə çıxarmağı oxucuların öz ixtiyarına buraxırıq.

***Sənan Mirzə***

# Elmar Məmmədyarovun "korrupsiya bataqlığı"...

## Ölkənin xarici siyasət idarəsinin nüfuzunu zərbə altında qoyan naziri "Əbülfəs Qarayev ssenarisi" gözləyir

***Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) antikorrupsiya əməliyyatlarında növbə, nəhayət, Xarici İşlər Nazirliyinə (XİN) çatdı. Əslində bu kifayət qədər gözlənilən idi: çünki xüsusilə son bir neçə ildə Elmar Məmmədyarovun rəhbərlik etdiyi nazirlikdə , eləcə də Azərbaycanın xarici ölkələrdəki bir sıra diplomatik nümayəndəliklərində rüşvət və mənimsəmə hallarına yol verildiyi barədə tez-tez söz açılırdı. DTX-nin adıçəkilən nazirlikdə apardığı əməliyyat isə bu iddiaların həqiqətəuyğunluğunu təsdiqlədi.***

**Xatırlatma:**

DTX-nin XİN-də keçirdiyi əməliyyatla bağlı yayılmış rəsmi məlumatda qeyd olunub ki, XİN-in bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələri ilə bağlı DTX-ya məlumat daxil olub və bunun əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.



Məlumatda bildirilib ki, XİN-in ayrı-ayrı strukturlarının fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan dövlət vəsaitlərinin ələ keçirilməsi, müxtəlif fəaliyyət istiqamətləri üzrə, eləcə də xarici ölkə vətəndaşlarının viza müraciətləri ilə bağlı rüşvət alınması və sair hüquqazidd əməllərin törədilməsi ilə bağlı əldə edilmiş məlumatlar araşdırılıb, XİN-in İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Molla-zadə, İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadə və Konsulluq idarəsinin Konsulluq-hüquq şöbəsinin rəisi Nurupaşa Abdullayev tərəfindən çoxsaylı qanunsuz əməllərə yol verməlırinə əsaslı şübhələr müəyyən edilib və bu şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hələ may ayında Azərbaycan mediasında Xarici İşlər naziri Elmar Məmmədyarovun oğlu Emin Məmmədyarovun adına aldığı mənzilin fotosu yayılmışdı. Nyu-Yorkun mərkəzi yerlərindən birindəki binadan alınan mənzilə nazirin nə az, nə çox, düz 2 milyon dollar xərclədiyi məlum olmuşdu. İctimaiyyətdə geniş rezonans doğuran bu xəbərə XİN-in reaksiyası isə kifayət qədər gülməli, eyni zamanda gülməli qədər absurd idi. Belə ki, nazirliyin sözçüsü bu mənzil məsələsini nazirin şəxsi işi adlandırmış və "ona görə də şərh olunmur" deyə bildirmişdi.

Məmmədyarov özü isə daha da irəli gedərək, 2 milyon dollarlıq (təxminən (4,5 milyon manatlıq) mənzillə bağlı yazılanlardan, danışılanlardan DTX-yə şikayət etmək ehtiyacı duymuşdu! Görünür, o, bununla həmin mövzu ətrafında müzakirələri dayandıra biləcəyini güman edirdi.

Nəticədə, DTX Elmar müəllimin nazirliyində əməliyyat aparılmasına qərar verdi və nəticədə ortaya ilginc rüşvət, korrupsiya halları çıxdı. Bu da təəccüblü deyil: Məmmədyarov ABŞ-da fantastik məbləğə aldığı mənzili hər halda nazir maaşı ilə əldə etməyib! O, üstündən qara qəpik xərcləməyərək, yeyib-içməyərək toxunulmaz saxlasa belə, həmin maaşla nəinki Birləşmiş Ştatların əsas şəhərlərindən birinin, hətta Bakının mərkəzində belə böyük bir mənzil ala bilməzdi. Deməli...

Deməli, söhbət yalnız qanunsuz yollarla əldə edilən qazancdan gedə bilər ki, XİN-dəki antikorrupsiya əməliyyatının nəticələri bu nazirlikdə yeyinti, mənimsəmə, rüşvət kimi hallar üçün münbit zəminin yarandığını gözlərimiz önünə sərdi. Bundan əvvəl isə ölkənin ali maliyyə nəzarət orqanı olan Hesablama Palatası Məmmədyarovun nazirliyində dəfələrlə ciddi maliyyə pozuntuları aşkarlayıb. Məsələn, ötən ilin aprelində Palatadan KİV-ə verilən məlumatda bildirilirdi ki, bu qurumun apardığı audit nəticəsində Xarici İşlər Nazirliyi tərəfindən təqdim edilmiş məlumata görə aparılmış konsul əməliyyatlarına görə az göstərilmiş 12,3 min manat məbləğində dövlət rüsumu üzrə dəqiqləşdirilmiş hesabat təqdim olunub. Həmçinin Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqları üzrə valyuta növündən asılı olaraq ilin sonuna kimi istifadə edilməyən və onların bank hesablarında qalan 42,6 min avro, 214,7 min ABŞ dolları, 27,4 min İsveç frankı məbləğində vəsaitin dövlət büdcəsinə qaytarılması təmin olunub. Bundan başqa, təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə 7,6 min avro, 19,4 min ABŞ dolları, müxtəlif debitor hesablaşmalar üzrə 34,2 min avro, 37,6 min ABŞ dolları, məbləğində debitor borc dövlət büdcəsinə bərpa olunub. Hesablama Palatasının 2016-cı il üzrə fəaliyyəti barədə illik hesabatından isə aydın olmuşdu ki, aparılmış auditin nəticəsinə görə, Xarici İşlər Nazirliyində 21 fakt üzrə nöqsan aşkarlanıb. Bunlardan 6-sı (43,0 %) büdcə qanunvericiliyinin tələbləri, 8-i (16,2 %) dövlət satınalmaları ilə bağlı qanunvericiliyin tələbləri, 2-si (31,4 %) büdcə gəlirlərinin hesablanması, yığılması və ödənilməsi üzrə qanunvericiliyin tələbləri, 5-i (9,4 %) mühasibat uçotu və hesabatlılıq ilə bağlı qanunvericiliyin tələbləri ilə bağlı nöqsanlardır.

Palata tərəfindən görülən tədbirlər nəticəsində Xarici İşlər Nazirliyində qeyd olunan nöqsanlarla bağlı maliyyə pozuntusu zamanı yol verilmiş məbləğin 44 207,3 manatı bərpa edilib.Belə nümunələrin sayını bəs deyincə artırmaq olar.

Hesablama Palatası həmçinin səfirlik və konsulluqlarda da korrupsiya halları ilə bağlı müxtəlif vaxtlarda kifayət qədər fakt ortaya çıxarıb. Elə bir neçə gün əvvəl məlum oldu ki, Azərbaycanın Türkiyədəki səfirliyinin 2019-cu il üzrə fəaliyyətində nöqsanlar aşkarlanıb. Palatanın 2019-cu il üzrə hesabatından məlum olub ki, ölkəmizin Ankaradakı səfirliyi büdcə üzrə dörd, əsaslı vəsait qoyuluşu üzrə iki nöqsana yol verib. Səfirlik mühasibat uçotu və hesabatlılıq qaydalarını da pozub. Bununla bağlı səfirlikdə iki hal aşkarlanıb. Bütün deyilənləri ümumiləşdirdikdə belə aydın olur ki, Azərbaycanın ən strateji dövlət qurumlarından birində - baş diplomatiya orqanında korrupsiya dərin kök salıb, rüşvət geniş yayılıb. O da xüsusi vurğulanmalıdır ki, XİN-in adı məhz Elmar Məmmədyarovun dönəmində belə xoşagəlməz hallarla paralel hallanmaqdadır. Cəmiyyət XİN-dən xüsusilə Qarabağ danışıqlarının Azərbaycanın xeyrinə nəticələndirilməsi üçün ciddi, səmərəli addımlar gözlədiyi bir vaxtda bu qurumda mənimsəmə, yeyinti, rüşvət kimi halların "at oynatması" təəssüf doğurur, xəyalqırıqlığı yaradır, eyni zamanda beynəlxalq imicimizə ziyan vurur. Məhz bu baxımdan XİN-dəki çatışmazlıqlara, nöqsanlara daha kəskin reaksiya verilməsi labüddür. Bir ölkənin xarici siyasət idarəsini korrupsiya bataqlığına sürükləmək həmin idarənin rəhbəri üçün yolverilməz səhv, bağışlanılmaz cinayətdir. Ona görə də güman etmək olar ki, qarşıdakı günlərdə Məmmədyarovla bağlı "Əbülfəs Qarayev ssenarisi"nin şahidi olacağıq: XİN başçısı da sabiq Mədəniyyət naziri kimi rəhbəri olduğu qurumdakı yeyintilərin, mənimsəmələrin bədəlini ən azından vəzifəsini itirməklə ödəyəcək. Əlbəttə, yaxşı olardı ki, Elmar müəllim ortaya çıxarılan biabırçı faktlardan sonra vəzifəsindən könüllü gedəydi, istefa verəydi və bununla onsuz da korlanmış nüfuzunu az da olsa xilas edəydi.

Lakin ABŞ-da fantastik məbləğə aldığı mənzili cəmiyyətə "şəxsi işi" kimi təqdim etməyə çalışan, həmin mənzilin pulunu hardan əldə etdiyini açıqlamaq yerinə, bu barədə yazanları, danışanları qorxutmaq, susdurmaq yolu tutan bir nazirdən belə addım gözləmək yalnız və yalnız sadəlövhlük olardı...

***Orxan Həsənli***



## "Rusiya Azərbaycanın təşəbbüsünü dəstəkləyir" - Zaxarova

***Rusiya BMT Baş Assambleyasının koronavirus (COVID-19) mövzusuna dair xüsusi sessiyasının çağırılması ilə bağlı Azərbaycanın təşəbbüsünü dəstəkləyir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

O bildirib ki, xüsusi sessiyanın çağırılması təşəbbüsü daha əvvəl Moskva tərəfindən dəstəklənib. XİN rəsmisi koronavirus pandemiyasının yayılması və onun mənfi nəticələri ilə mübarizədə konstruktiv müzakirələrə ümid etdiklərini vurğulayıb.

"Əminik ki, xüsusi sessiya konstruktiv mühitdə keçəcək və hansısa substantiv qərarın qəbul olunması ilə bitəcək. Bu kontekstdə maraqlı müzakirələr gözləyirik".

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının COVID-19-a dair xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. 130-dan çox ölkə bu təşəbbüsü dəstəkləyib.

## Elnur Abdullanın müalicəsi dövlətin nəzarətindədir

***Mərkəzi Neftçilər Xəstəxanasının COVID-19-a yoluxmuş həkim-reanimatoloqu Elnur Abdullanın müalicəsi dövlətin nəzarətindədir.***



Unikal.org xəbər verir ki, bunu virtualaz.org-a həmin xəstəxananın direktoru Musa Abbasov deyib.

Onun sözlərinə görə, hazırda Elnur Abdullanın vəziyyəti stabildir.

Direktor onu da qeyd edib ki, virusa yoluxmuş bütün tibb işçilərinin müalicəsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarətindədir. "Virusa yoluxmuş tibb işçilərinin müalicəsi həm Prezident İlham Əliyevin, həm də Mehriban xanım Əliyevanın nəzarətindədir. Həkimlərin müalicəsi üçün bütün tədbirlər həyata keçirilir".




# DSMF-nin Lənkəran şöbəsində nöqsanlar aşkarlandı

***Hesablama Palatasının 2020-ci il üzrə İş Planına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsinə (Şöbə) 2018-2019-cu illərdə dövlət büdcəsindən ayrılan vəsaitlərin və şöbənin məcburi dövlət sosial sığortası üzrə gəlirlərinin və xərclərinin icrası üzrə uyğunluq auditi aparılıb.***

Palatadan "Unikal"a verilən məlumata görə, Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi tərəfindən ailə tərkibinin və ailənin yaşayış yerinin, ailə üzvünün işə girməsi və ya işdən çıxması nəticəsində ailənin gəlirlərinin dəyişməsi faktlarının vaxtında aşkar edilməməsi nəticəsində auditlə əhatə olunan dövrdə 286 halda ünvanlı dövlət sosial yardımı üzrə ödəniş davam etdirilərək, ümumilikdə 214,7 min manat məbləğində sosial yardım ödənilib, həmçinin, sosial yardımın məbləğinin dəyişməsinə və ya ödənişin dayanmasına səbəb ola biləcək məlumatların vətəndaşlar tərəfindən təqdim edilməməsi səbəbindən bağlanılmış 234 sosial yardım işi üzrə vətəndaşların müvafiq bank hesablarında audit olunan dövrün əvvəlinə cəmi 24,4 min manat məbləğində vəsait qalıb.

Bununla yanaşı, Müavinət Alt Sisteminin digər müvafiq alt sistemlərə lazımi səviyyədə inteqrasiya olunmaması nəticəsində sosial müavinətin ödənişinin dayandırılması üçün mövcud olan əsaslar, o cümlədən, vətəndaşların vəfat etməsi, əmək pensiyası hüquqlarının olması və ya işləməsi vaxtında aşkar edilməyib, əmək pensiyası hüququ olan, eləcə də sosial müavinət almaq hüququ olmayan vətəndaşlara 96 sosial müavinət işi üzrə cəmi 96,9 min manat vəsait ödənilib, həmin vəsaitdən müxtəlif səbəblərdən 80 iş üzrə 84,1 min manat vəsait müvafiq bank hesablarında qalıb.

Auditlə əhatə olunan dövrdə düzgün olmayaraq ümumilikdə 246 pensiya işi üzrə 276,1 min manat məbləğində vəsaitin ödənilməsi həyata keçirilib, həmin vəsaitdən müxtəlif səbəblərdən pensiya hesablarında 137,5 min manat vəsait qalıb, habelə məcburi dövlət sosial sığorta haqları hesabına 3248,82 manat artıq müavinət ödənilib.

Auditin nəticələri üzrə aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsi tərəfindən əsassız və artıq ödəmələr üzrə 116,5 min manat vəsait dövlət büdcəsinə, 276,6 min manat vəsait isə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə olmaqla, ümumilikdə 393,1 min manat vəsait bərpa edimiş və ünvanlı dövlət sosial yardımı təyinatından imtina üçün əsaslar aşkar edilib 286 iş üzrə ödəniş dayandırılıb, eyni zamanda Hesablama Palatasının müvafiq qərarı ilə Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsinə ünvanlı dövlət sosial yardımı təyinatından imtina üçün əsaslar aşkar edilib 259 sosial yardım işi üzrə ödənilib ümumilikdə 214,7 min manat, sosial müavinətlər üzrə artıq ödəmə məbləğindən qalan 5404,36 manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər üzrə artıq ödəmə məbləğindən qalan 2749,82 manat vəsaitin müvafiq büdcələrə bərpa olunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi tapşırılıb.

***Zaurə***

# Bəzi universitetlərin şoka salan təhsil haqları...

## Ali məktəblərin fantastik qiymətləri orada verilən təhsilin səviyyəsinə uyğundurmu?

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanın ali təhsil müəssisələrində ödənişli təhsillə bağlı müzakirələr yenidən alovlanıb. Buna səbəb bəzi ali məktəblərdə təhsil haqlarının fantastik dərəcədə yüksək olmasıdır. Əksəriyyət belə düşünür ki, bu qiymətlər verilən təhsillə tərs mütənasibdir, yəni ona adekvat deyil.***

Xatırladaq ki, yaranmış müzakirələrə, Baş nazirin "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" qərarı imzalaması səbəb olub. Bu qərarda "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı" öz əksini tapıb. Məsələn, rəngkarlıq ixtisası üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı 6 min manatdır. İnstrumental ifaçılıq üçün bu rəqəm 8200, müalicə işi 4800 manat təşkil edir.

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərov mövzu ilə bağlı Sputnik Azərbaycan-a açıqlamasında bildirib ki, təhsil haqlarını bazar müəyyənləşdirməlidir: "İnzibati yolla təhsil haqlarını müəyyənləşdirmək ancaq dövlət ali təhsil müəssisələri üçün doğrudur. Fərz edək ki, dövlət təhsil müəssisəsi hansısa fakultə üçün 1000 manat qiymət qoyub. Özəl ali məktəb daha yaxşı təhsil verirsə onun iki min manat qiymət qoymaq haqqı var. Amma bütün hallarda elə qərar qəbul etmək lazımdır ki, gənclərimiz kütləvi şəkildə xaricə axışmasın".

O bildirib ki, bəzən təhsil haqları verilən keyfiyyətə adekvat olmur. Ona görə də buna bir nəzarət mexanizmi olmalıdır: "Soruşan olmalıdır ki, tələbədən bu qədər pul alırsan, əvəzində necə təhsil verirsən? Aldığın pul keyfiyyətli təhsil vermək üçün xərclənirmi? Əgər müəllimin əmək haqqına ödənilirsə, yüksək qiymət də qoya bilərlər. Bu gün bahalı ali məktəblər var. Amma bu gün orta təhsil müəssisələri arasında da bahalılar var. Paytaxtda illik 10 min manat təhsil haqqı olan məktəblər fəaliyyət göstərir".

Şura sədri əlavə edib ki, Azərbaycandan xaricə tələbə qəbulu təkcə ölkəmizdəki ali təhsil müəssisələrində təhsil haqlarının baha olması ilə bağlı deyil: "Xarici universitetlər abituriyentləri imtahansız qəbul edir. Ona görə də, Azərbaycan xaricdə təhsilin sosioloji tədqiqatını aparmalıdır. Hər bir qurum öz şəxsi mənafeyi ilə yanaşı, dövlətin də mənafeyini düşünməlidir".

Millət vəkili, təhsil məsələləri üzrə ekspert Etibar Əliyev isə bildirib ki, bütün dünyada təhsil haqları universitetlərin nüfuzuna və universitetlərdə verilən təhsilin keyfiyyətinə görə müəyyənləşdirilir. Onun sözlərinə görə, universitetlərin akkreditasiyadan keçməsinin nəticəsi də təhsil haqlarının müəyyənləşdirilməsində rol oynayır: "Əlbəttə ki, indiki şəraitdə təhsil haqları təhsilin keyfiyyəti ilə ekvivalentlik təşkil etmir. Amma bəzi universitetlər burada istisnadır. UNEC, ADA kimi universitetlərdə təhsilin keyfiyyəti yüksəkdir. Təhsilin keyfiyyəti yüksək olduğu halda valideynlər yüksək təhsilə sərmayə qoyduqlarından təhsil haqqının qiymətinə çox da qayıtmırlar. Amma təhsilin keyfiyyəti aşağı olub, təhsil haqqı yuxarı olan ali məktəblərdə bu narazılıq yaradır. Cari tədris ilindən pandemiya məsələsi ilə əlaqədar təhsil haqları müəyyənləşərkən nəzərə alınmalıdır. Mart ayından bəzi insanların işində fasilə yaranması təhsil haqlarının müəyyənləşdirilməsində nəzərə alınmalıdır. Məsələn, Tibb Universitetində təhsil haqları çox yüksəkdir. Halbuki, Tibb Universiteti bir çox sahələr üzrə mütəxəssis hazırlamaq iqtidarında deyil... Gələcəkdə mütləq təhsil haqlarında endirim edilməlidir".




Deputatın fikrincə, Azərbaycanda universitetlərin dəqiq akkreditasiyası keçirilməli, onların təhsil haqlarına yenidən baxılmalıdır.

İqtisadçı Qadir İbrahimli isə koronavirusla mübarizə çərçivəsində kömək üçün Azərbaycana türkiyəli həkimlərin dəvət edilməsi ilə bağlı facebook statusunda bizim mövzumuza da xeyli dəxli olan fikirlər səsləndirib. O bildirib ki, Türkiyənin ən reytinqli universitetlərində əcnəbi tələbələrə qarşı təhsil haqqı ildə 10 min lirəyə yaxındır - təxminən 2500 manat (söhbət dövlət universitetlərindən gedir). Türkiyə reytinqində 100-cü sırada dayanan universitetdə belə tibbi təhsilin keyfiyyəti bizim Tibb Universitetindən ən azı bir neçə dəfə yüksəkdir. Çünki Türkiyə universitetlərində istisnasız olaraq rüşvət, kimin oğlu, bacısı oğlu olması rol oynamır - həkim olmaq istəyirsənsə oxumalısan. Sitat: "Bununla belə, bizim Tibb Universitetində illik təhsil haqqı 5500 manatdır - rüşvətdən danışlıq da öz yerində. Tibb Universitetinin həkim yetişdirən müəllimləri (istisnalar var) hətta qarınları ağrayanda belə Türkiyə, İsrail və Avropaya qaçır. Çünki bilirlər ki, yetişdirdikləri savadsız həkimlər yanlış qərar verə bilər. Tələbələri qınamıram. İstedadlı uşaqlardır, 600-dən yuxarı bal toplayıblar. Ancaq keyfiyyətsiz və rüşvətxor təhsil sistemi onları savadsız həkim kimi yetişdirir. Son nəticədə Azərbaycan xəstəxanaları daha çox qəssabxanaları xatırladır - sağ ayağın əvəzinə sol ayağı kəsirlər... Azərbaycan hökuməti səhiyyə sistemində islahat aparmaq istəyirsə Türkiyə və Avropada təhsil almış gəncləri ölkəyə dəvət etməlidir... Araşdırmaq imkanı olsa, böyük ehtimalla bu gün koronavirusla mübarizəyə kömək üçün ölkəyə dəvət olunan türkiyəli həkimlər Türkiyənin reytinqində 30-40-cı yerlərində qərarlaşan universitetlərinin məzunlarıdır. O universitetlərdə əcnəbi tələbələr üçün illik təhsil haqqı 600-1500 manat arasında dəyişir (öz vətəndaşlarına isə simvolik məbləğlərdir). Həmin məzunlar gəliblər ildə 5500 manat ödəyib həkim olanlara dərs keçməyə..."

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

***Elvin***

# İqtidar-müxalifət dialoqu davam edir

## PA rəsmisi KXCP sədri ilə görüşdü

***İyun ayının 8-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu arasında görüş keçirilib.***

Görüş zamanı dünyanı bürüyən COVİD-19 pandemiyası və hökumətin pandemiya ilə mübarizədə gördüyü işlər, siyasi partiyaların fəaliyyəti barədə qanunvericiliyin təkmilləşdirilməsi zərurətinin olduğu, pandemiya şəraitində siyasi partiyaların videokonfrans vasitəsilə Qurultayının keçirilməsi və iqtidar-müxalifət siyasi dialoqunun inkişafı barədə fikir mübadiləsi aparılıb.

İlk növbədə Azərbaycanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə bilavasitə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər müzakirə olunub.

Yekdil rəy kimi, bu tədbirlərin səmərəliliyi yüksək qiymətləndirilib.

Xüsusi olaraq qeyd olunub ki, məhz bu qabaqlayıcı tədbirlərin sayəsində bu gün ölkəmizdə COVİD-19 pandemiyası qurbanlarının sayı minimal səviyyədədir. Ə.Vəliyev ölkədə xəstələrin ödənişsiz müalicəsi üçün onlarla xəstəxana ayrıldığı, eləcə də 10 müasir modul tipli xəstəxana tikildiyi, istifadəyə verildiyi, zəruri tibbi avadanlıqlar alındığı, qısa müddət ərzində ölkədə lazımi tibbi ləvazimatların istehsalına başlanıldığı, habelə iqtisadi sabitliyin və məşğulluqla bağlı problemlərin həlli üçün dəstək paketi qəbul olunduğu və digər məsələlər barədə qeyd edib.

Həmçinin görüşdə müzakirə olunan məsələlərdən biri siyasi partiyaların fəaliyyəti barədə qanunvericiliyin təkmilləşdirilməsi xüsusunda olub.

Mirmahmud Mirəlioğlu bu barədə öz fikrini bildirərək qeyd edib ki, hazırda bu




sahədə qanunvericiliyin təkmilləşdirilməsinə ciddi zərurət duyulur. Öz növbəsində Ədalət Vəliyev məsələyə münasibət bildirərək qeyd edib ki, yeni yaradılmış Milli Məclisdə müxalifət partiyalarının da təmsil olunması məhz siyasi partiyaların fəaliyyətinə dair yeni qanunvericilik aktlarının daha effektiv olacağına ümid etməyə ciddi əsaslar verir. Həmçinin Siyasi partiyalar və qaninvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri qeyd edib ki, Milli Məclisdə təmsil olunan siyasi partiyalar ölkədə digər siyasi partiyalar arasında geniş konstruktiv müzakirələrin aparılması prosesində xüsusi aktivlik nümayiş etdirməlidirlər.

Pandemiya dövründə yaşanan müəyyən məhdudiyyətlər və onların dəf olunması üçün nəzərdə tutulan çıxış yolları da görüşün müzakirə mövzularından biri olub.

Xüsusilə pandemiya şəraitində siyasi partiyaların videokonfrans formatında qurultaylarının keçirilməsi imkanları müzakirə edilib və qeyd olunub ki, Azərbaycanda mövcud olan müasir texnologiyalar bu formatda toplantıların problemsiz keçirilməsinə geniş imkanlar yaradır.

Daha sonra Ədalət Vəliyev və Mirmahmud Mirəlioğlu arasında iqtidar-müxalifət siyasi dialoqunun inkişafı barədə fikir mübadiləsi aparılıb.

Bu barədə ətraflı danışan Ədalət Vəliyev aparılan köklü struktur və kadr islahatlarına toxunaraq, Prezident Administrasiyasında ilk dəfə olaraq xüsusi struktur bölməsinin yaradılmasını ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlığın qurulması işinə verdiyi əhəmiyyətdən irəli gəldiyini vurğulayaraq qeyd edib. O, bildirib ki, şöbə tərəfindən dövlət başçısının tapşırığı ilə indiyə qədər görülmüş işlər nəticəsində və ölkədə yeni siyasi mədəniyyətin təşəkkülü fonunda artıq əksər siyasi partiyalarla konstruktiv əməkdaşlığın möhkəm əsasları qurulub. Ədalət Vəliyev qeyd edib ki, ölkə Prezidentinin təşəbbüsü və iradəsi ilə Azərbaycanda artıq siyasi islahatların yeni mərhələsi başlanıb, siyasi sistemin yeni konfiqurasiyası formalaşmaqdadır və bu, iqtidar-müxalifət münasibətlərinin müzakirələr vasitəsilə inkişaf etdirilməsinə söykənir.

Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu bu istiqamətdə dövlətimiz tərəfindən atılan addımları yüksək qiymətləndirərək Azərbaycanın inkişafı, insanlarımızın rifahının daha da yüksəlişi naminə ölkədə bütün siyasi qüvvələrin həmrəylik və birlik nümayiş etdirəcəkləri halda, iqtidar-müxalifət dialoqunun, effektiv əməkdaşlığın yalnız müsbət nəticələr verə biləcəyinə əmin olduğunu vurğulayıb.

Həmçinin bir neçə gün bundan əvvəl qeyd olunan mövzularla əlaqədar olaraq Milli Məclisin sədri Sahibə Qafarovanın və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə parlamentdə təmsil olunan partiya rəhbərlərinin videokonfrans formatında keçirilən müşavirəsi barədə danışılıb. Bu cür toplantıların daha geniş formatda keçirilməsinin önəmli olduğu qeyd edilib.

# Hərbi xidmətə çağırış davam edir

***Prezident İlham Əliyevin iyunun 11-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncama əsasən iyulun 1-dən etibarən çağırışçıların müəyyən edilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsi davam etdirilir .***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən "Unikal"a verilən məlumata görə, respublikamızda koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması istiqamətində vətəndaşların sağlamlığının qorunmasına yönələn preventiv və təxirəsalınmaz tədbirlər çərçivəsində müddətli həqiqi hərbi xidmətə çağırışın mütəşəkkil keçirilməsi və mümkün risklərin minimallaşdırılması məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən zəruri addımlar atılıb.

Qeyd edək ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin tələblərinə uyğun olaraq, müddətli



həqiqi hərbi xidmətə çağırılmış çağırışçılar çağırışa hazırlıq dövründə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində həkim mütəxəssislər tərəfindən, əlavə tibbi müayinəyə ehtiyac olduqda isə digər müalicə müəssisələrində hökmən tibbi müayinədən keçirilirlər.

Müddətli həqiqi hərbi xidmət keçmək üçün xidmət yerlərinə təyin edilmiş çağırışçılar Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tapşırıq və tövsiyələrinə, TƏBİB-in müvafiq təlimatlarına ciddi riayət edilərək xidmət yerlərinə təhvil verilirlər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən hazırlanmış "COVİD-19 pandemiyası dövründə Azərbaycan Respublikası vətəndaşlarının növbəti müddətli həqiqi hərbi xidmətə çağırışı zamanı müayinə işinin təşkilinə dair müvəqqəti təlimatın" tələblərinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə göndərilən vətəndaşlardan hərbi hissələrdə qəbulun birinci günündə burun-udlaq nahiyəsindən nümunələrin götürülməsi və TƏBİB tərəfindən koordinasiya edilən laboratoriyalara göndərilməsi, o cümlədən qəbul olunan heyətin ayrı və yaxud təcrid olunmuş binada 14 gün müddətində karantin rejimində izolyasiya edilməsi və test cavablarının nəticələrinə uyğun olaraq, şübhələrin müvafiq qaydada mobilizasiyası həyata keçirilir.

***Famil***



# "Yoluxanların sayı ilə sağalanların sayı demək olar eyniləşib" - TƏBİB

***"Yoluxma sayı ilə sağalanların sayı demək olar eyniləşib. Ehtiyatla olsa da deyə bilərik ki, sabitləşmə var. Sağalanlarla yoluxanların sayı arasında kəskin fərq azalmağa doğru gedir".***

Unikal.org xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin kontrolu və profilaktikası şöbəsinin müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

TƏBİB rəsmisi qeyd edib ki, bu da qoyulan qaydalara ciddi əməl edilməsi ilə əlaqəlidir:

"Bunu ictimai nəqliyyatda və marketlərdə də görürük. Xəstəliyin ağırlaşma dərəcəsinə inananlar da çoxalıb. Nə qədər həkimlər çalışsa da, qayda-qanun olsa da, əlbir olmasaq xəstəliyə qalib gəlmək olmaz".

# İyul ayı üzrə pensiyaların ödənişinə başlanılıb

***İyul ayı üzrə pensiyaların ödənişinə başlanılıb. Artıq Bakı şəhəri üzrə bu ayın pensiyaları ödənilib.***



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Unikal.org-a verilən məlumata görə, pensiya vəsaitləri pensiyaçıların bank hesablarına köçürülüb. Ayın 15-16-dək ölkəmizin digər şəhər və rayonları üzrə, həmçinin dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslərə pensiyaların ödənilməsi nəzərdə tutulub.

İyul ayında da pensiya, müavinət, təqaüd və ünvanlı yardımların ödənişinin vaxtından tez həyata keçirilməsi təmin olunacaq.

# Koronavirusa yoluxan 18 məhkum azadlığa buraxıldı

***"Təcridxanalarda yoluxmalar qeydə alınır". Unikal.org-un məlumatına görə, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.***

H. Hacıyev deyib ki, 12 saylı cəzaçəkmə müəssisəsində 11, qadınların cəza çəkdiyi müəssisədə 2 məhkumun testi müsbət çıxıb: "Ümumilikdə, yoluxan 18 məhkum vaxtından əvvəl azadlığa buraxılaraq, TƏBİB-ə təhvil verilib. Penitensiar xidmətdə də yoluxma halları baş verir".

# “Tibb işçilərini bu terrordan xilas edin” – Kardioloq Prezidentə və Birinci xanıma üz tutdu

*Məşhur həkim, kardioloq Dr. Ülvi Mirzoyev yüzlərlə həmkarının mənəvi terrora məruz qaldığını bəyan edib. O, tibb işçilərini qarşılaşdıqları “şiddətdən” müdafiə etmələri üçün Dövlət başçısı və Birinci Vitse-prezidentə məktub ünvanlayıb.*

“Unikal” məktubun mətnini təqdim edir: “Hörmətli Cənab Prezident, Hörmətli Mehriban Xanım, Sizə müraciət etməmim səbəbi son zamanlar ölkəmizin səhiyyə işçiləri, əsasən də həkimlərimizin, müxtəlif növ mənəvi terrora məruz qalmasıdır. Şəxsən mən özümdə, bir çox başqa həmkarım kimi, bu cür terrorun qurbanı olmuşam.

Həkimlik peşəsi müqəddəsdir, bu peşə təsadüfən seçilmir, tibb təhsilini tamamlayıb, o ağ xalatı geyinən kimi bambaşqa bir mənəviyyata bürünürsən, bütün həyatının mənası insanlığa, insanlara, onların sağlamlığına xidmət etmək olur. O andan sonrakı həyatında hər şeydən öncə xəstələrimizin maraqlarını prioritet halında tutmaq həyat fəlsəfəmizə çevrilir. Bir peşəkar həkim asan yetişmir. Həm dövlətimiz, həm də mütəxəssisin özü bu iş üçün illərini verir. Altı illik tibb təhsili, bir illik kardiologiya internaturası sonrası, ölkəmin insanlarına daha yaxşı xidmət vermək üçün, Ankara Universitetində 5 illik ixtaslaşma, daha sonra isə İstanbulda Türkiyənin ən böyük xəstəxanaların birində uzun müddət çalışdıqdan sonra, vətənimə qayıdıb, xalqımıza xidmət verməyə başladım. 2008-ci ildən bu günə qədər ölkəmizdəki kardioloji xidmətin təkmilləşməsinə, keyfiyyətinin artırılmasına, insanlarımızın sağlamlıq dərəcəsinin maksimallaşmasına, tibb elminin inkişafına hər zaman əlimdən gələn tohfəni vermişəm.

ABŞ-nın Klivlend klinikasında və Almaniyanın HeidelbergUniversitetində ixtisasartırma keçmişəm. Onlarca, yüzlərcə elmi konfranslarda məruzəçi kimi çıxış etmişəm, beynəlxalq konferensiyalarda ölkəmi, Azərbaycanımı daim layiqincə təmsil etmişəm. Bir çox mürəkkəb prosedurları Azərbaycanda tətbiq edib, təkmilləşməsi və yayqınlaşması prosesində iştrak etmişəm. Bu sahədə ekspert mütəxəssilərdən biri olduğum üçün, həmkarlarım tərəfindən Azərbaycan Kardioloji Cəmiyyətinin Müdaxiləvi Kardiologiya işçi qrupunun rəhbəri olaraq seçilmişəm. Bütün həkimlər kimi, həyatımdakı əsas aqidəm daim təhsil və peşəkarlıq səviyyəmi artıraraq xalqıma maksimal dərəcədə faydalı olmaq olub. Konkret həkimlik fəaliyyətimdən əlavə olaraq ölkəmizin əhalisisnin sağlamlığının artırılmasına daha çox xidmət edə bilmək üçün, səhiyyə təşkili və idarə edilməsi sahəsində də özümü təkmilləşdirmək məqsədi ilə əvvəlcə Türkiyənin Hacettepe universitetində, daha sonra İngiltərənin ən prestijli universitetlərdən sayılan The London School of Economics də səhiyyə idarəedilməsi üzrə elmlər magistri təhsilini almışam.



Tibb üzrə fəsləfə doktoruyam, Elmlər Doktoru dissertasiyasını yazıram. Hal hazırda İngiltərərnin Oksford universitetində yenə parttime təhsilimi davam etdirirəm. 44 yaşımda təhsilimi və daimi inkişafımı hələ də dayandırmaq niyyətində deyiləm, ömrümün sonunadək daim öyrənib, öyrətmək istəyirəm.

Mən ölkəmizin ən sürətlə inkişaf edən sahələrindən biri olan səhiyyə sistemimizin yüz minlərcə əsgərindən biriyəm. Mən, mənim kimi minlərcə həmkarım, Sizlərin başçılığı ilə Vətənəmizin insanının sağlamlığının qorunması və artırılması üçün daim xidmət etməyə davam edəcəyik.

Heç bir ölkədə Azərbaycanda olduğu qədər ölkə rəhbərliyinin bu qədər hər bir səhiyyə işçisinin qayğısına qalındığının şahidi olmamışam.Hər zaman olduğu kimi, COVID-19 pandemiyası dövründə də Prezidentimiz və Birinci Vitse-Prezidentimiz tərəfindən həm əhalimizin, həm də tibb işçilərimizin həyatı və sağlamlığı üçün nə cür diqqət və qayğı göstərildiyi göz qabağındadır. Hansı başqa ölkədə bir həkimin müalicəsi bir dövlət rəhbəri tərəfindən şəxsən nəzarət edilir?Mən belə bir şey eşitməmişəm. Hər bir insanın, hər bir tibb işçisinin həyatına nə qədər yüksək qiymət verdiyinizi hamımız görürük və bu səbəblə Sizə dərin minnətdarlığımızı bildiririk.

Bir mövzuda da Sizdən kömək istəyirəm. Hər nə qədər hər bir xəstəmizin həyatı və sağlamlığı üçün sonuna qədər savaşsaq da, hər zaman hədəflədiyimiz nəticə alına bilməyə bilər. Bütün dünyada olduğu kimi, bəzən xəstəlirimiz sağalmaz və yaxud da pilsəşər, hətta vəfat edə bilər. Bu həyatın bir parçasıdır, xəstəliklərin gedişatı, ağırlıq dərəcəsi, pasientlərin əlavə demoqrafik və kliniki xüsusiyyətlərindən asılıdır. Hər bir həkim xəstəsini itirə də bilər. Bu çox vaxt bizim nəzarətimizin xaricindədir. Burada mütləq hər zaman həkim gunahkar deyildir. Amma bəzən heç bir araşdırma aparmadan, vəziyyəti tam anlamadan, cəmiyyətimizin bəzi üzvləri həkimləri məhkəməsiz mühakimə edirlər, illərcə qazanılmış şərəf və ləyaqətlərinə, işguzar imiclərinə xələl gətirilər. Bəzən xəstə yaxınları araşdırıbsoruşdurmadan bunu edirlər, bunu yenə də anlamaq mümkündür, insanın bir itkisi olanda bir günahkar axtarmağa meyillidir, amma bəzən də bu durumdan sensasiya peşində olan bəzi ikinci sinif kütləvi informasiya vasitələri istifadə edib, heç bir araşdırma, müstəqil jurnalist istintaqı apamadan, rəsmi məlumatlara istinad etmədən, heç bir ictimai etika ilə uyğun olmayan böhtan xarakteri daşıyan məlumatlar dərc edirlər. Səhiyyə işçilərimiz mənəvi terror, bəzən də reketin qurbanı halına çevirilirlər. Bu cür hallara müdaxilə edilməsə, mənəvi terror, bəzi qonşu ölkələrdə olduğu kimi, fiziki terrorla da müşahidə olunacaq. “Defensive Medicine” adlandırılan bir vəziyyətin yaranma təhlükəsi olacaq, həkimlər ağır xəstələri qəbul etməkdən çəkinəcək, özlərini qorumaq üçün ağır əməliyyatlar və müalicələr aparmaqdan imtina edəcək, həkim olmaq istəyən gənclərimizin sayı azalacaq, bunu edənlər isə nisbətən yüngül, riski az olan sahələri seçməyə üstünlük verəcəklər, xaricdə yaşayan minlərcə yüksək ixtisalı həkim həmvətəndaşlarımız ölkəmizə qayıtmaqdan yayınacaq və bütün bunlar səhiyyəmizin və insanlarımızın sağlamlığına mənfi təsir edəcək.

Sizdən xahişim, tibb işçilərinə qarşı mənəvi şiddətin azaldılması üçün lazım olan tədbirləri şəxsi nəzarətiniz altına götürün. Milli məclisə həkim haqqlarını qoruyan əlavə qanun layihələri ilə müraciət edin, bu qədər dəyər verdiyiniz, qayğı göstərdiyiniz səhiyyəmizin və səhiyyə çalışanlarımızın haqqlarının hansısa şuursuz insanlar tərəfindən taptalanmasının qarşısını alın. Bizim səhiyyəmizin Sizlərin rəhbərliyi ilə görəcək hələ çox işi var. Tibbi xidmət keyfiyyətinin, xəstə təhlükəsizliyinin, xəstə mərkəzliliyinin, sübüt əsaslı effektiv tibbi yardımın təşkili, əhalinin sağlamlıq dərəcəsinin artırılması üçün hələ çox çalışıb, vuruşmalıyıq. Hər zaman qayğılarınızı əsirgəmədiyiniz və rəhbərlik etdiyiniz tibb işçilərini bu terrordan xilas edin”.

# YAP rayon təşkilatında onlayn müşavirə keçirildi

***Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatında onlayn müşavirə keçirilib. Unikal.org xəbər verir ki, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının Şura üzvləri, ilk partiya təşkilat sədrləri və bir qrup partiya fəalının iştirakı ilə keçirilən növbəti onlayn müşavirəni Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq bildirdi ki, dünyanı bürüyən koronavirus infeksiyası hələ də sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir. Virusa qalib gəlməyin isə məhz dövlət və vətəndaş həmrəyliyindən asılı olduğunu dünyanın bir çox ölkələrində rast gəlinən acı həqiqətlər də təsdiqlədi. Buna görədir ki, koronavirusa zamanında ciddi yanaşmayan ölkələrdə sonradan görülən tədbirlər, alınan qadağa qərarları elə də səmərəli olmadı və bu təsir gücünün işlək olmamasında vətəndaşların da həmin qaydalara əməl etməməsinin böyük rolu oldu.***



Ölkəmizdə sərt karantin rejimi tədbiq edilən zaman gündəlik yoluxma sayının 600-ə yaxınlaşdığını deyən Cavid Osmanov qeyd etdi ki, son bir neçə gündə yoluxanların sayında az da olsa azalma müşahidə olunur. Beynəlxalq təcrübə onu göstərir ki, sərt karantin rejiminin tətbiqi dərhal nəticə vermir. Bir müddət sonra sərt karantin rejimi özünün müsbət nəticəsini göstərir. Əgər bu gün respublikanın bəzi ərazilərində sərt karantin rejimi tədbiq edilməsəydi daha ciddi fəsadlarla üzləşə bilərdik. Yoluxma sayı azalmasa Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən gedişata müvafiq qərar qəbul edə bilər. Təbii ki, Operativ Qərargah qərar verərkən gündəlik yoluxanların, sağalanların, ölənlərin artma-azalma dinamikası və virusun yayılma coğrafiyası dərindən analiz edilir. Ümid edək ki, gündəlik yoluxanların sayı azalsın və karantin rejiminin daha da sərtləşməsinə ehtiyac qalmasın. Təbii ki, bu son günlər insanlarımızın bu məsələyə necə yanaşmasından və qoyulan qaydalara nə dərəcədə riyaət edəcəklərindən asılıdır. Əlbəttə ki, sərt karantin rejimin uzadılmasını heç birimiz istəmirik. Hər birimiz Operativ Qərargahın qoyduğu qaydalara və verdiyi tövsiyələrə əməl etməliyik ki, normal həyatımıza tez qayıda bilək.

Cavid Osmanov vurğuladı ki, son nəticədə bəşəriyyət yalnız bir olaraq, həmrəylik nümayiş etdirməklə pandemiyaya qarşı qalib gələ bilər və Azərbaycanda aparılan işlər də buna bir nümunədir. Artıq bütün dünya görür və etiraf edir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə fəal rol oynayır. Ölkəmizdə aparılan işlərin hər birinə bilavasitə Prezident İlham Əliyev şəxsən nəzarət edir. O cümlədən Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu işlərdə göstərdiyi dəstək əvəzsizdir. Bu baxımdan Azərbaycanda aparılan işlər digər ölkələrə nümunə olaraq göstərilir.

Vurğulandı ki, COVID-19 pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik. Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradıb, bu körpünün möhkəm dayaqlara söykənməsi də əlbəttə ki, şübhəsizdir. Aprel ayında koronavirusla mübarizə məsələlərinə həsr olunmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşünün, ardınca isə may ayının 4-də Qoşulmama Hərəkatının təmas qrupunun zirvə toplantısı da Azərbaycan Prezidentinin təşəbbüsü ilə də keçirilmişdi. Məhz BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi təklifi də bu siyasətin davamıdır. Prezident İlham Əliyev Qoşulamama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edib. BMT nizamnaməsinə əsasən, quruma üzv ölkələrin çox hissəsi, yəni 97 ölkə bu və ya digər məsələnin müzakirəsi ilə bağlı xüsusi sessiyanın çağırılması təşəbbüsünü dəstəkləyərsə, o halda bu məsələnin reallaşması mümkündür. Qoyulmuş müddətin bitməsinə qədər 130 ölkə Azərbaycan Prezidentinin təşəbbüsünü dəstəkləyib və bu barədə Baş katibin ofisini məlumatlandırıb. Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası keçiriləcəkdir. Təşəbbüsə qarşı çıxış edən yeganə dövlət isə Ermənistan olub.

Müşavirədə cari məsələlər də müzakirə olundu, müvafiq tövsiyyə və tapşırıqlar verildi.

# “5 ayın iqtisadi göstəriciləri gələcəyə dair pozitiv vədlər verir” - Deputat

***“Dünya enerji bazarlarındakı durğunluq və qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşmədiyini hamımız hiss edirik. Yeni növ koronavirusun pandemiya elan olunduğu gündən bütün dövlətlər yaxın dövrün iqtisadiyyatına dair ən bədbin proqnozlara hazırlıq görməyə başlamışdılar. Azərbaycan da istisna deyildi. Mart ayından etibarən ilin bu dövrü üçün xüsusilə rentabelli işləyən ticarət və turizm sahələri faktiki staqnasiya şəraitindədirlər. Dünya bazarlarında enerji daşıyıcılarının qiymətinin kəskin aşağı düşməsi Azərbaycanın da gəlirlərinin azalması ilə nəticələndi. Bununla belə, bu ilin ilk 5 ayının nəticələrinə görə, milli iqtisadiyyatımızdakı geriləmə cəmi 1,7 faizdir”.***

Bu fikirləri “Unikal”a Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev deyib.

Deputat hesab edir ki, mövcud reallıqda bu göstərici Azərbaycan iqtisadiyyatının real əsaslar üzərində dayandığının bariz nümunəsidir.



“Hazırki dövrün ən ciddi problemi gələcəyə dair proqnozun olmamasıdır. Dünyada heç kim pandemiyanın nə vaxt bitəcəyi və yaratdığı iqtisadi sıxıntıların hansı müddətə aradan qalxacağına dair ehtimalla çıxış edə bilmir. 5 ay ərzində iqtisadiyyatımızın cəmi 1,7 faiz azalması qorxulu rəqəm deyil. Cənab Prezident bugünlərdə bildirdi ki, bu geriləməni tez bir müddətdə kompensasiya etmək mümkün olacaq” - deyən millət vəkilinin fikrincə, sərt karantin rejiminin ilk günlərində çoxları daha bədbin ehtimallarla çıxış edirdilər.

E.Allahverdiyevin sözlərinə görə, dövlət ilk gündən vətəndaşların sağlamlığı amilini önə çəksə də, bugünkü reallıq göstərir ki, dövlət xərclərinin artması iqtisadi sabitliyə ciddi təsir göstərməyib: “Prezident ilk gündən bildirdi ki, bizim üçün öncə vətəndaşın sağlamlığı, sonra isə iqtisadiyyatdır. Bu, faktiki olaraq iqtisadiyyatın ikinci plana keçdiyinin elan olunması idi. Ancaq bu gün biz görürük ki, hətta bu kursun mövcudluğunda belə milli iqtisadiyyatımız möhkəm zəminlər üzərindədir. Bu, əlbəttə ki, bizim üçün gələcəyə dair ciddi ümidlər verən faktordur”.

Deputat bildirib ki, sosial layihələrin təxirə salınmaması, xüsusilə məcburi köçkünlər, şəhid ailələri və hərbçilərə yönəlik tədbirlərin davam etdirilməsi dövlətin maliyyə ehtiyyatlarının kifayət edəcək həddindən xəbər verir: “Dövlət başçısı bu il məcburi köçkünlər üçün rekord sayda binaların tikiləcəyinin, 7 mindən çox köçkün ailəsinin yeni mənzillərlə təmin ediləcəyinin anonsunu verdi. Şəhid ailələri üçün 1500 mənzil istifadəyə veriləcək, halbuki ildə 700-800 mənzil təqdim edilir. Orduda qüsursuz xidmət etmiş hərbçilərə bu il 400-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardım alanların sayı təqribən 85 minə yaxınlaşır. Bu, 300 mindən çox insan deməkdir. Hazırda dünyanın barmaqla sayılacaq ölkəsində bu həcmdə sosial layihələr həyata keçirilir” - deyə deputat bildirib.

Milli Məclisin deputatının sözlərinə görə, istənilən böhran yeni imkanlara yol açır. “Təbii ki, biz istəməzdik bu itkilərimiz olsun. Ancaq yaranmış çətin situasiyada yeni imkanlar tapmağa çalışmalıyıq. İndi hamımız kənd təsərrüfatı sahəsində ciddi yüksəlişin olduğunu görürük. Məncə bu reallıq bizim aqrar sahənin inkişafında yeni səhifəni açmağımıza stimuldur. Son 5 ayın göstəricilərinə görə, bu sahədə 3,6 faizlik artıma nail olmuşuq. Heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 5,3 faiz artım var. Pandemiyaya baxmayaraq, kənd təsərrüfatı məhsulları ilə bağlı heç bir qıtlıq yaşanmayıb” - deyə E.Allahverdiyev söyləyib.

E.Allahverdiyevin fikrincə, istənilən halda iqtisadiyyatın bir yerdə dayanması daimi proses ola bilməz. İqtisadi münasibətlər, ixrac-idxal prosesi bərpa olunduqca, karbohidrogen ehtiyyatlarına dünya bazarlarındakı tələbat artdıqca Azərbaycanın əsas ixracat məhsulunun qiyməti sabitləşəcək. Bütün bunlar iqtisadi perspektivlərə dair pozitiv siqnallardır: “Təbii ki, böyük itkilərimiz var. Söhbət tək iqtisadiyyatın fəaliyyətsizliyindən getmir. Axı dövlət ziyan çəkmiş sahələrin, xüsusilə özəl sektorun ayağa qalxması üçün iri vəsaitlər ayırıb, sahibkarların itkilərinin bir qismini öz üzərinə götürüb, şirkətlərin işçilərinin əməhaqqılarının ödənməsini həyata keçirir. Bunlar böyük xərclərdir. Ancaq bunların kompensasiya ediləcəyinə ciddi ümidlər var. Məsələn, çoxları neftin qiymətinin kəskin aşağı düşməsini sanki iqtisadi kollaps kimi qələmə verirdilər. Halbuki cənab Prezident də bəyan etdi: neftin barreli hətta 14 dollar olacağı tədqirdə Azərbaycan iqtisadiyyatı bu təzyiqə tab gətirmək gücündədir”.

Millət vəkilinin sözlərinə görə, hazırki vəziyyətdə dövlət çətinlikləri dəf etməyə səfərbər olduğu halda təəssüf ki, bəzi siyasi qüvvələr hətta neftin qiymətinin aşağı düşməsindən sevinir, bunu bir fürsət kimi görürlər: “Prinsipcə, bu, bizim üçün yenilik deyil. Təəssüf doğuran sadəcə odur ki, eyni xalqın nümayəndəsi olasan və belə cılızlıq nümayiş etdirəsən. İqtisadi itkilərimiz bərpa olunacaq, ancaq siyasi cılızlıq, savadsızlıq, sabahı görmək bacarığının yoxluğunu kompensasiya etmək çətindir. Ələxsus da bu şəxslərdə. Bunu arxada qalan illər də göstərir”.

***Hüseyn***

# Bu ölkələrdəki Azərbaycan vətəndaşları təxliyə ediləcək

***”Qarşıdan gələn həftə Rusiyadan 250 vətəndaşın ölkəmizə gətirilməsi nəzərdə tutulur”.***

Unikal.org xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən brifinqində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, gələn həftə İran və Gürcüstandan da bir qrup Azərbaycan vətəndaşının vətənə gətirilməsi nəzərdə tutulur.

# İsmayıllıda qanunsuz heyvan kəsimi məntəqələri aşkarlandı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçı hüquqlarının qorunması, həmçinin qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri davam etdirir.***

AQTA-dan “Unikal”a verilən məlumata görə, qurumun əməkdaşları İsmayıllı Rayon İcra Hakimiyyətinin nümayəndələri ilə birgə İsmayıllı şəhərində qanunsuz heyvan kəsiminə qarşı reyd keçirib.

Reyd zamanı qanunsuz fəaliyyət göstərən heyvan kəsimi məntəqələri aşkarlanıb. Həmin obyektlərin sahiblərinə fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun olaraq qurmaları, heyvan kəsimini mərkəzləşdirilmiş, müasir kəsim məntəqələrində həyata keçirmələri barədə göstərişlər verilib. Qanunsuz fəaliyyət göstərən heyvan kəsimi məntəqələrində istifadə olunan dəmir konstruksiyalı qurğular yerli icra orqanının əməkdaşları tərəfindən ləğv edilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirləri bundan sonra da davam etdirəcək və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısı qətiyyətlə alınacaqdır.

# Azay Quliyev seçicilərlə videogörüş keçirib

***Deputat Azay Quliyev 8 saylı Binəqədi birinci seçki dairəsinin seçiciləri ilə növbəti videogörüş keçirib.***



Videogörüşdə iştirak edən seçicilər bank və müştəri arasındakı kredit öhdəlikləri, mənzilin zəbt edilməsi, kommunal, əlillik statusunun verilməsi və məşğulluq məsələsi ilə bağlı onları narahat edən problemlər haqqında deputata müraciətlərini çatdırıblar. Qaldırılan problemlərin bir qismi yerində həll edilib. Digər qismi ilə bağlı müvafiq izahat verilib. Mərkəzi icra hakimiyyətlərinin səlahiyyətlərinə aid olan məsələləri isə aidiyyəti qurumların yerli idarələrinin rəhbərləri qeydə alınıb və onların araşdırılıb həll ediləcəyi bildirilib. Deputat görüşdə qaldırılan bütün məsələlərin həlli məsələsini nəzarətdə saxlayacağını deyib.

Sonda Azay Quliyev seçicilərinə müraciət edərək bildirib ki, ölkəmizdə COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə coxsaylı tədbirlər həyata keçirilməsinə baxmayaraq Binəqədi rayonunda bu xəstəliyə yoluxma sayının artması narahatçılıq yaradır: “Əziz seçicilərdən, hörmətli Binqədi sakinlərindən xahiş edirəm ki, əhalinin, o cümlədən həssas qruplardan olan yaşlıların, uşaqların, əlilliyi olan şəxslərin sağlamlığının qorunması məqsədi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrinə qeyd-şərtsiz əməl etsinlər. Yeni növ koronavirus infeksiyası üçün xarakterik simptomları hiss etdikdə özünüzün və yaxınlarınızın həyatını xilas etmək məqsədi ilə dərhal aidiyyəti üzrə qaynar xəttlərə (103 və ya 15-42) müraciət edin. İnanıram ki, hazırkı vəziyyətdən maksimum məsuliyyətli olmaqla və dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşların hərtərəfli dəstək göstərməsi nəticəsində uğurla çıxacağıq”.

Qeyd edək ki, görüşdə Binəqədi bələdiyyəsinin sədri Mürsəl Əliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Binəqədi rayon şöbəsinin müdiri Arzuman Hüseynov da iştirak edib.

# Əbülfəs Qarayevin kadrlarını gözləyən böyük təhlükə...

## Yeni Mədəniyyət nazirinin əsas hədəflərindən biri nə olacaq?

***Ayyarım öncə, mayın 21-də Azərbaycanın ən stajlı nazirlərindən biri Əbülfəs Qarayev vəzifəsindən azad edildi. 64 yaşlı Qarayev 1994-2001-ci illərdə Gənclər və İdman naziri, 2001-2006-cı illərdə Gənclər, İdman və Turizm naziri, 2006-2018-ci illərdə Mədəniyyət və Turizm naziri vəzifələrində çalışmışdı. 2018-ci ildə isə Mədəniyyət naziri təyin edilmişdi.***

Yeni ümumilikdə 26 illik nazir stajı vardı; lakin karyerası arzuolunmaz şəkildə bitdi: Dövlət Təhlükəsizliyi Xidmətinin mayın 12-də mədəni-tarixi irsi hesab edilən tarix-mədəniyyət abidələrinin mühafizəsi, bəzi vəzifəli şəxslərin öz maraqları naminə bu sahədə dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərinin qarşısının alınması istiqamətində araşdırma apardı, aparılan araşdırmalarla Mədəniyyət nazirinin müavini Bayramov Rafiq Yasin oğlu və Mədəniyyət Nazirliyi (MN) yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələrinə dair məlumatlar əldə edildi. Cinayət işi üzrə R.Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Z.Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçildi.

Bu isə eyni zamanda Əbülfəs müəllimin vəzifəsindən uzaqlaşdırılması ilə nəticələndi. Hərçənd ki, onun sadəcə vəzifəsini deyil, azadlığını da itirəcəyinə dair iddialar və gözləntilər var. Hər halda nazir ikən onun MN-də baş verən rüşvət və korrupsiyadan xəbərsiz olduğunu düşünmək üçün xeyli dərəcədə sadəlövh olmaq lazımdı... Mədəniyyət Nazirliyindəki əməliyyatdan sonra bu qurumda xeyli yüksək vəzifəli şəxs səksəkə içindədir. Əsasən sabiq nazirin yaxın kadrları olan həmin post sahiblərinin təlaşı isə səbəbsiz deyil. Belə ki, hələlik yeni Mədəniyyət naziri təyin edilməyib. Lakin bu təyinat gerçəkləşərkən onun əsas hədəflərindən birinin MN-dəki rüşvətxor və korrupsioner şəbəkəni çökdürmək olacağı birmənalıdır. Söhbət xüsusilə yerli mədəniyyət idarələri və müxtəlif mədəniyyət müəssisələri rəhbərlərindən gedir.

Qeyd edək ki, bu cür idarə və müəssisələrin yeyinti yuvasına çevrildiyini hətta rəsmi yoxlamalar - Hesablama Palatasının müxtəlif dövrlərdəki yoxlamaları da təsdiqləyir. Məsələn, elə bu yaxınlarda Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq, Sumqayıt Regional İdarəsi (İdarə) üzrə 2017-2018-ci illərdə büdcə vəsaitlərinin icrasının vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə Hesabatı müzakirə edərək təsdiqləyib.

Hesabatda göstərilib ki, ölkə prezidentinin 20 aprel 2018-ci il tarixli sərəncamına əsasən, Mədəniyyət və Turizm Nazirliyinin bazasında Mədəniyyət Nazirliyinin yaradılması ilə əlaqədar Regional İdarənin Əsasnaməsində müvafiq dəyişiklik edilməyib, 2017-2018-ci illər üçün büdcə vəsaiti üzrə proqnoz tərtib edilərkən "Büdcə sistemi haqqında" qanunun və Nazirlər Kabinetinin 24 may 2004-cü il 24 may tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın bir sıra tələbləri gözlənilməyərək İdarənin maliyyə təsərrüfat fəaliyyətinin nəticələri tam qiymətləndirilməyib.



Nazirlər Kabinetinin ştat saylarının müəyyən edilməsi ilə bağlı müvafiq qərarlarının tələblərinə əməl edilməyərək artıq ştat vahidləri saxlanılıb, mədəni maarif müəssisələrində işləyənlərin tarif dərəcələri düzgün müəyyənləşdirilməyərək artıq əmək haqqı ödənilib və artıq dərs saatları tarifləşdirilib.

Xərclərin icrası zamanı təyinat dəyişikliyinə yol verilib, avadanlıqların kirayəyə götürülməsi adı ilə müxtəlif firmalara vəsait ödənilib, müvafiq təsdiqedici sənədlər olmadan inventar və avadanlıqlara texniki xidmət üçün vəsait xərc edilib, alınmış elektron lövhələr istifadəsiz saxlanılıb, avtonəqliyyat vasitələrinə normadan artıq cari təmir işləri yerinə yetirilib, yerinə yetirilməyən cari təmir işlərinə görə vəsait ödənilib, müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri müvafiq illik maliyyə hesabatlarında düzgün əks etdirilməyib.

Malların (işlərin və xidmətlərin) satınalınması zamanı bir sıra hallarda "Dövlət satınalmaları haqqında" qanunun və "Kotirovka sorğusu prosedurunun təşkili və keçirilməsinə dair Təlimat"ın tələblərinə əməl edilməyib, satınalma keçirilmədən vəsait xərc edilib, ehtimal olunan qiymətlər düzgün müəyyənləşdirilmədiyindən alınmış mallara görə artıq vəsait ödənilib, məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədilə nəzərdə tutulmuş vəsaitlər ayrı-ayrı müqavilələrə bölünüb.

Hesabatda qeyd edilmiş nöqsanlar dinlənilib, İdarə tərəfindən dövlət satınalmalarını tənzimləyən qanunvericiliyin tələbi pozularaq məbləğ məhdudiyyətinin aradan qaldırılması məqsədilə satınalmanın ayrı-ayrı müqavilələrə bölünməsinə, malların ehtimal olunan qiymətinin mövcud qanunvericiliyə uyğun müəyyənləşdirilməməsi nəticəsində artıq xərcə yol verilməsinə görə, eləcə də təyinatdankənar xərcə yol verildiyinə görə qanunvericiliyə uyğun olaraq tədbir görülməsi məqsədi ilə müvafiq materialların Baş Prokurorluğa göndərilməsi qərara alınıb.

Və yaxud: ötən il Hesablama Palatasının Ağcabədi Regional Mədəniyyət İdarəsi üzrə 2017-2018-ci illərdə büdcə vəsaitlərinin icrasının vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə hesabatından bəlli olub ki, ölkə başçısının 2018-ci il 20 aprel tarixli Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyinin bazasında Mədəniyyət Nazirliyinin yaradılması ilə əlaqədar Regional İdarənin Əsasnaməsində müvafiq dəyişiklik edilməyib, nazirliyin 1993-cü il iyunun 30-da təsdiq etdiyi "7 (8) illik uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inzibati və xidmətedici heyətinin nümunəvi ştatı"nın tələblərinə əməl edilməyərək artıq ştat vahidləri saxlanılıb.

Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların)" məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" Qərarının tələblərinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 2011-ci il 17 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın tələblərinə əməl edilməyərək artıq əməkhaqqı ödənilib, "Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üzrə tədris planları"nın tələblərinə əməl edilməyərək artıq dərs saatları tarifləşdirilib, keçirilməyən dərslərə, sanatoriyada və xaricdə olan işçilərə əməkhaqqı ödənilib, yerinə yetirilməyən cari təmir işlərinə görə vəsait ödənilib, "Azərbaycan Respublikası vahid büdcə təsnifatı"nın tələblərinə bir sıra hallarda əməl edilməyərək təyinatdankənar vəsait xərclənib.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun, "Kotirovka sorğusu prosedurunun təşkili və keçirilməsinə dair Təlimat"ın tələblərinə riayət edilməyərək məbləğ məhdudiyyətinin aradan qaldırılması məqsədilə vəsait ayrı-ayrı müqavilələrə bölünüb, satınalma keçirilmədən vəsait xərclənib, satınalma prosedurları haqqında məlumatların göstərildiyi hesabat tərtib edilməyib, ehtimal olunan qiymətlər düzgün müəyyənləşdirilmədiyindən alınmış mallara (işlərə və xidmətlərə) görə artıq xərcə, müəssisənin funksional fəaliyyətinə uyğun olmayan mallar alınmaqla səmərəsiz xərcə yol verilib, müqavilə şərtlərinə əməl olunmayaraq müqavilədə nəzərdə tutulmayan material qiymətlərinin alışı həyata keçirilib, təsdiq olunmuş müqavilə qiymətləri gözlənilməyərək artıq büdcə vəsaiti xərclənib, bağlanmış satınalma müqavilələri barədə məlumatları dövlət satınalmalarının rəsmi internet saytında yerləşdirilməyib.

İdarənin nəzdində fəaliyyət göstərən bir sıra kənd klublarının, kitabxanaların və kənd mədəniyyət evlərinin fəaliyyət göstərməsi üçün müvafiq şərait yaradılmayıb, maliyyə hesabatları bəzi hallarda "Büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq mühasibat uçotunun təşkili və aparılmasına dair təlimat"ın tələblərinə uyğun tərtib edilməyib, müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri müvafiq illik maliyyə hesabatlarında düzgün əks etdirilməyib, əvəzsiz olaraq təhvil alınmış inventar, avadanlıqlar və kitabxana fondu uçota alınmayıb, "Torpaq, tikili, avadanlıq və digər uzunmüddətli aktivlər"in balansdan-balansa əvəzsiz keçirilməsi əməliyyatlarına mühasibat yazılışı düzgün verilməyib, aktivlər üzrə əvvəlki dövrlərdə hesablanmış amortizasiya xərci düzgün olmayaraq gəlirlər kimi uçota alınıb. Oxşar korrupsiya halları ilə bağlı nümunələrin sayını kifayət qədər artırmaq olar. Bir sözlə, Əbülfəs Qarayevin nazir olduğu dövrdə MN-də rüşvət və mənimsəmələr geniş yayılıb, adi hal alıb. Və şübhəsiz, həmin korrupsioner şəbəkənin yerli-dibli çökdürülməsi yeni Mədəniyyət Nazirinin qarşısında dayanacaq əsas hədəflərdən biri olacaq. Elə Qarayevin nazirlikdəki vəzifəli kadrlarını indidən qorxudan da budur. Onlar ciddi təlaş içindədirlər və aqibətlərinin necə olacağını əndişə içində gözləyirlər...

***Toğrul Əliyev***

# Ermənistanın təxribat siyasəti ifşa olunur

## Həmsədrlərin Qarabağ münaqişəsinin həllindəki vasitəçilik missiyası iflasa uğrayır

***Son dövrlər Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları müxtəlif təxribatlar törətməklə pozmaqda davam edir. Ən əsası da iki ildir danışıqların formatını dəyişməyə cəhd edir, Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin danışıqlarda tərəf kimi çıxış etməsinə çalışır.***

Münaqişənin həllində vasitəçi olan ATƏT-in Minsk qrupu isə Ermənistana qarşı heç bir ciddi tədbir görmür,əksinə vaxt uzatmağa səy göstərir. Prezident İlham Əliyev də bu məsələyə xüsusi toxunaraq, həm həmsədrlərin fəaliyyətini tənqid edib, həm də Ermənistanın təxribatçı siyasətini konkret faktlarla ifşa edib.

Milli Məclisin deputatı Sahib Alıyev "Unikal"a deyib ki, Prezident İlham Əliyevin Minsk qrupunu tənqidi birinci dəfə deyil. Amma açığını deməliyik ki, dövlət başçımızın özəlliklə də bu qrupa həmsədrlik edənlər haqqında səsləndirdiyi bütün tənqidləri həmişə qətiyyətli və prinsipial xarakter daşısa da, iyulun 6-da Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələr üçün nəzərdə tutulan modul tipli hospitalının açılışındakı qədər açıq, sərt və belə demək mümkünsə, yüksək xəbərdarlıq yüklü olmamışdı: "Bu isə artıq o deməkdir ki, bıçaq sümüyə dirənib. Azərbaycanın "status-kvonun qorunub saxlanması yolverilməzdir", "substantiv danışıqlar aparılmalıdır" deyənlərin əslində məhz danışıqların imitasiyasının təşkili və status- kvonun qorunub saxlanmasına çalışdıqlarına daha dözmək fikri yoxdur!!! Strateji səbr təkcə dözüb əlverişli vəziyyətin yaranmasını gözləmək demək deyil, həm də gözləniləni tezləşdirmək üçün hərəkətə keçməkdir ki, cənab İlham Əliyevin son açıqlamasında bu, açıq-aydın dilə gətirilir.

Prezidentimizin iyulun 6-dakı açıqlamasından cəmi bir gün sonra Azərbaycanın Müdafiə naziriylə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin ön xətdə olmaları, "Ali Baş Komandan cənab İlham Əliyevin son çıxışlarından irəli gələn tələbləri" hərbiçilərimizin diqqətinə çatdırmaları da elə bunun təsdiqidir.Haylar və havadarları bunu da bilməlidirlər ki, dövlətimizin başçısının Dağlıq Qarabağ probleminin həlli missiyasını öz üzərinə götürən, amma indiyədək bu yöndə uğurlu heç bir addım atmayanlarla bağlı dedikləri aşağıdakı sözlər içində vətən sevgisi olan hər bir azərbaycanlının ürəyindən olduğu kimi, həm də iradəsinin göstəricisidir: "O ki qaldı, Minsk qrupunun bəyanatına, biz bunlardan başqa bəyanatlar, konkret bəyanatlar gözləyirik və onu eşitmək istəyirik. Ermənistanın baş naziri deyir "Qarabağ Ermənistandır". Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində, Minsk qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər! Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir! Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik. Bu addımlar kim tərəfindən atılır? Ermənistan tərəfindən. Biz danışıqlar formatına da sadiqik, danışıqların mahiyyətini də əsas götürürük. Əlbəttə ki, o mahiyyətdə bizi heç də hər şey qane etmir. Ancaq biz demişik, bizi nə qane etmir və nə qane edir. Ermənistan nə edir? "Qarabağ Ermənistandır" deməklə tamamilə danışıqların mahiyyətini yerə vurur. "Formatı dəyişmək lazımdır" fikri danışıqları əhəmiyyətsiz edir. Yəni, buna adekvat reaksiya verilməlidir, yoxsa yox?! Qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində seçilməmiş saxta prezident Şuşada andiçmə mərasimi keçirir. Buna adekvat cavab verilir, yoxsa yox?! Axı bu, açıq-aydın təxribatdır. İndiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir? Nə üçün deyilmir ki, bu, təxribatdır və bu təxribata görə Ermənistan cavabdehlik daşıyacaq. Bunu mən deyirəm. Amma onlar deməlidirlər, əgər istəyirlər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Nədir bunların bəyanatında əsas tezis - hərb variantı mümkün deyil. Kim deyir? Gedin açın BMT-nin Nizamnaməsini, baxın görün özünümüdafiə hüququ var ölkələrdə, yoxsa yox? Yoxsa siz özünüzü nə hesab edirsiniz?! Siz BMT-dən də üstünsünüz?! BMT-nin Nizamnaməsindən də üstünsünüz?! Belədirsə, gedin deyin, biz Minsk qrupunun həmsədrləri hesab edirik ki, BMT-nin Nizamnaməsində əks olunan bu tezis yanlışdır. Axı gərək hər şeyin həddi olsun. Ona görə biz onlardan daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyirik. Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparır. Mən bu məsələni dəfələrlə qaldırmışam. Bizim bütün beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərinin üzvlərinə göstəriş verilib ki, bu məsələ onların gündəliyində bir nömrəli məsələ olmalıdır. Bu məsələ ilə bağlı Minsk qrupunun həmsədrləri açıqlama verir, yoxsa yox?! ATƏT-in axırıncı faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlarda 10 il bundan əvvəl olub. On il keçib. Son bir neçə il ərzində biz onlara təkidlə deyirik ki, yeni missiya getməlidir. Bu 10 il ərzində Ermənistan Suriyadan və başqa yerlərdən erməniləri oraya gətirib, onları zorla saxlayır. Bizim şəhərlərimizin tarixi adlarını dəyişdirir, işğal edilmiş torpaqlarda kilsələr tikir. Yəni, sabah deyəcək ki, bu, erməni torpağıdır. Dəfələrlə demişik onlara. Reaksiya var? Yoxdur! Yəni,10 il ərzində faktaraşdırıcı missiyanı göndərmək olmaz? İstəmirlər. Gedib nə görəcəklər?! Görəcəklər ki, orada məskunlaşma gedir. Amma bunu 10 il bundan əvvəl öz məruzələrində əks etdiriblər. Yəqin ki, indi əks etdirmək istəmirlər. Bu haqda bəyanat verib Minsk qrupu? Verməyib! Bilirsiniz, indi biz də dözümlülük göstəririk və konstruktiv olmağa çalışırıq. Amma bu gün faktiki olaraq danışıqlar prosesi getmir. Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfranslarının heç bir əhəmiyyəti yoxdur. Bu, sadəcə olaraq, Minsk qrupunun sanki fəaliyyətdə olmasını göstərir. Yaxşı, nə qədər olar? Fəaliyyətdə olmaq fəaliyyətdə olmaq deməkdir. Mən demişəm ki, biz danışıqları imitasiya üçün aparası deyilik. Biz danışıqları mahiyyət üzrə aparmaq istəyirik. İndi onlar bir söz çıxarıblar - substantiv danışıqlar. Özləri bu sözü çıxarıblar, aydındır bunun mahiyyəti nədir - bəli, mahiyyət üzrə danışıqlar formatı dəyişmədən və masa üzərində olan danışıqlar predmetinə əlavə etmədən. Belə olan halda, əlbəttə, biz danışıqlarda iştirak edəcəyik. Əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. Bax, biz Minsk qrupundan bunu gözləyirik və öz mövqeyimizdə möhkəm dayanmışıq, haqq-ədalət bizim tərəfimizdədir. Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın".



Politoloq Elçin Mirzəbəyli isə hesab edir ki, prinrip etibarilə, Ermənistan hakimiyyətinin davranışları danışıqlar prosesində hansısa formada intensivləşmənin baş verməsinə imkan vermir: "Təəssüf ki, bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin də "böyük xidmətləri" var. Çünki Ermənistanın hər dəfə danışıqlar prosesinin pozulmasına yönəlmiş addımlarına onlar tərəfindən göz yumulub. Bu kimi fəaliyyətlərinə cavab olaraq, Ermənistan rəhbərliyinə qarşı beynəlxalq hüquq mexanizmlərinin tələb etdiyi addımlar atılmır. Yəni ən azı Ermənistana diplomatik səviyyədə təzyiqlər edilmir, sanksiyalar tətbiq olunmur, əksinə, işğalçı ilə işğala məruz qalan arasında fərqlərin qoyulmamasına cəhdlər göstərilir.Azərbaycan prezidentinin də dediyi kimi ATƏT-in Minsk qrupunun həmsədrləri gah nala, gah da mıxa vurmaqla məşğuldurlar. Artıq uzun müddətdir bu mənzərə ortadadır - keçirilən görüşlərin yeganə məqsədi Minsk qrupunun fəaliyyətdə olduğunu görüntüləməkdən ibarətdir. Düşünürəm ki, bu səpkidə olan görüşlərin keçirilməsinə də ehtiyac yoxdur".

Müsahib onu da qeyd edib ki, bu, birmənalı olaraq həm Ermənistana, həm də ATƏT-in Minsk qrupunun həmsədrlərinə verilən mesajdır:"Yəni Azərbaycan sülh prosesinə nə qədər sadiq olsa da, artıq nəticəsiz və heç bir effekti olmayan, faktiki olaraq, Minsk qrupu həmsədrlərinin vaxt keçirdiyi danışıqlar prosesini uzatmağa ehtiyac yoxdur. Cənab prezident çıxışında başqa bir məqama da diqqət çəkdi, BMT-nin nizamnaməsinə istinad etdi.Bilirsiniz ki, Minsk qrupunun həmsədrləri hər belə görüşdən sonra münaqişənin hərbi yolla həllinin mümkün olmadığını elan edirlər. Amma bunun qarşılığında işğalçıya - Ermənistana qarşı heç bir təzyiq yoxdur. Azərbaycan prezidenti BMT nizamnaməsinə istinad etməklə, Azərbaycanın müdafiə və öz torpaqlarını işğaldan azad etmək hüquqlarının olduğunu xatırlatdı. Hesab edirəm ki, bu, çox açıq və ciddi bir mesajdır. Bu, bir daha göstərdi ki, Azərbaycan dövləti danışıqlar prosesini burada fundamental nəticələrə yönəlməmiş məqamlar yer aldıqca davam etdirməyəcək və adekvat tədbirlərə əl atacaq".

***Z.Məmmədli***



## İtaliya Ermənistandan giriş və tranziti qadağan edib

***İtaliya son 14 gündə COVİD-19 infeksiyasının yayıldığı 13 riskli ölkədən gələnlərin girişini və tranzitlərini qadağan edib.***

Bu barədə İtaliyanın Səhiyyə Nazirliyi açıqlama yayıb.Açıqlamaya əsasən, son 14 gündə Ermənistan, Bəhreyn, Braziliya, Bosniya və Herseqovina, Çili, Küveyt, Şimali Makedoniya, Moldova, Oman, Panama, Peru və Dominikan Respublikasından gələn və ya bu ölkələrdən tranzit keçisi edən insanların İtaliyaya girişi və tranzit keçisi qadağan edilib.

## Gürcüstandan daha 200 Azərbaycan vətəndaşı təxliyə ediləcək

***Gürcüstandan daha 200 Azərbaycan vətəndaşı təxliyə ediləcək.Bu barədə Azərbaycanın Gürcüstandakı səfirliyindən məlumat verilib.***



Bildirilib ki, təxliyə ediləcək vətəndaşlar 11 iyul tarixində Tbilisidə COVID-19 testindən keçiriləcəklər.Testlərin nəticəsi iyulun 12-də sonra açıqlanacaq.

Neqativ cavab alan şəxslərə COVID pasportu veriləcək və onlar 13 iyul tarixində Azərbaycanın Gürcüstandakı səfirliyinin binasının qarşısından ayrılmış xüsusi avtobuslarla "Sınıq Körpü" sərhəd keçid məntəqəsinə yollanacaqlar.

## Dünyada koronavirus: yoluxanların sayı 12 milyonu keçib

***Dünyada sutka ərzində yeni koronavirusa yoluxma hallarının sayı 8 mindən çox artaraq 12,3 milyonu keçib.***

Trend-in məlumatına görə, ölənlərin sayı isə 557 min nəfəri keçib. Məlumata əsasən, yoluxanların ümumi sayı 12 387 826, ölənlərin isə 557 405 nəfərə çatıb.

Ən çox yoluxma və ölüm halları Cənubi və Şimali Amerikada qeydə alınıb - 6 507 580 yoluxma və 282 648 ölüm halı.

İkinci yerdə Avropa regionu qərarlaşıb. Burada yoluxanların sayı 2 532 361, ölüm hallarının sayı isə 195 484 nəfərə çatıb.

Üçüncü yeri Qərbi-Sakit okean regionu tutur, burada ümumilikdə 1 222 070 yoluxma və 29 127 ölüm halı qeydə alınıb.

# İRANIN ƏFQANISTAN NARAHATLIĞI

## Tehran yeni komandan Qaaninin təcrübəsindən necə yararlanacaq?

***Əfqanıstanınmərkəzihökumətiilə “Taliban” arasındakı uzunsürənmüharibənisona çatdırmaq üçündanışıqlar şiddətspazmları ilə yavaş-yavaş uzanır. “Taliban” və “İŞİD Xorasan”ın Əfqanıstan təhlükəsizlik qüvvələrinə və mülki şəxslərə hücumlar tez-tez baş verir, İŞİD tez-tez şiə icmalarını hədəf alır.İstənilən həll seçənəyi, ehtimal ki, ABŞ-dan döyüş qüvvəsini ölkədən çıxartmağı tələb edəcək.ABŞ prezidenti Donald Tramp təxminən iyirmi illik mövcudluqdan sonra Əfqanıstandan ayrılmaq istəyir və ilin sonuna qədər bir sıra qüvvələrin sayını azaltmanı nəzərdən keçirməyi planlaşdırır.***

Amerika qüvvələrinin azaldılması İranı Əfqanıstandakı nüfuzunu genişləndirmə ilə təmin edə bilər. Tehran uzun müddətdir şərq qonşusundakı qeyri-sabitlikdən ehtiyat edir: on illərlə davam edən münaqişə yüz minlərlə əfqan qaçqını İrana yönəldib və o bu günə qədər İraqda, Suriyada və Yəməndə olduğu kimi, bu ölkəyə müdaxilə etməkdən çəkinir. Ancaq indi manevr üçün daha çox imkan olacaq, həm öz maraqlarını qorumaq, həm də ABŞ-ın maraqlarına xələl gətirmək üçün Əfqanıstan işlərinə daha sərt müdaxilə etmək istənilə bilər.

### Sabitlik axtarışında

Tehran və Vaşinqton Yaxın Şərqin bir çox yerində kəllə-kəlləyə gəlir, amma Əfqanıstanda ortaq məqsədləri var. İran 2001-ci ilin sonlarında ABŞ-ın işğal səylərini dəstəkləyib, Kabildə “Taliban”ı əvəzləyəcək koalisiyanın qurulmasına kömək edib.İşğaldan sonrakı erkən danışıqlarda İran rəsmiləri “Taliban”dan sonrakı dövrdə demokratik seçkilərin keçirilməsinin vacibliyinə israr ediblər.Bu gün nə İranın, nə də ABŞ-ın “İŞİD Xorasan”ın ölkədə daha da böyüməsini görmək istəyi yoxdur.

İran Əfqanıstanda sabitlik tələb edir.İki ölkənin məsaməli sərhədi var və Əfqanıstandakı qarışıqlığın nəticələri tez-tez İran ərazisində üzə çıxır. İran yüz minlərlə əfqan qaçqınına ev sahibliyi edir; eyni zamanda, tiryəkin Avropaya qaçaqmalçılığı üçün əsas tranzit yeridir.

1990-cı illərin sonlarında, 1998-ci ilin sentyabrında “Taliban” Əfqanıstanın şimalındakı Məzari-Şərif şəhərində bir neçə İran diplomatını öldürdükdə, iki ölkə müharibə həddinə gəlib çıxdı.İran rəhbərləri intiqam almaq üçün minlərlə əsgəri sərhəd bölgəsinə yerləşdiriblər.

“Taliban”a olan etibarsızlıq hazırkı mərhələdə Əfqanıstan içindəki müzakirələrin nəticəsindən doğur. Tehran “Taliban”ın sərt elementlərindən qorxur, Pakistan və Səudiyyə Ərəbistanına yaxın olan bu fraksiyaların yeni mərkəzi hökumətdən uzaq olmasını istəyir. Sünni “Taliban”ın ən sərt elementləri, bəlkə də “İŞİD Xorasan” kimi olmasa da, şiələrin ağır çəkisi olan İranla əlaqəli deyil və bu antirəğbət hissləri qarşılıqlıdır. Buna baxmayaraq, Kabildə “Taliban” elementlərini özündə cəmləşdirən mərkəzi hökumətlə işləmək Tehranın əsas maraqlarını qorumağa kömək edərsə, Tehran onu qəbul etməyə hazırdır.

Həqiqətən də, İran son illərdə iqtisadi, diplomatik və təhlükəsizlik təşəbbüsləri ilə bəzi “Taliban” qrupları ilə əlaqələrini bərpa etməyə və möhkəmləndirməyə çalışıb.



İranın Əfqanıstandakı əsas siyasi və iqtisadi maraqları İran mallarının Əfqanıstan bazarına çıxışı təmin etmək və sərhədləri daxilindəki qeyri-sabitlikdən qorunmaq daxildir.Onun iqtisadiyyatı hələ də ABŞ sanksiyalarının təsirindən və COVID-19 böhranının iflicindən əziyyət çəkir.Rəsmilər Əfqanıstandakı xaosun sərhəd boyunca qaçqınların daha bir dalğasına səbəb olacağından və İranın fəsadları qarşılaya bilməyəcəyindən narahatdırlar.

COVID-19 İranda məşğulluq və səhiyyə xidmətlərinə qoşulmaq üçün qaçqınlar arasında uzun müddətdir əsas çətinlikdir. İran minlərlə əfqanı deportasiya edib, lakin daha çox zorakılıq yeni qaçqın axınına səbəb ola bilər. Buna görə də, İran daha aktual sayılan digər prioritetlərə diqqət yetirir, sabitlik rejimini təmin edən status-kvo tərəfdarıdır, xüsusən də ölkədə koronavirusun geniş yayıldığı və rekord gündəlik ölüm sayının olduğu dövrdə.

Ancaq İranın Əfqanıstan işlərinə müdaxilə etmək məcburiyyətində qalacağı hallar var. Tehran, məsələn, “Taliban”ın radikal fraksiyalarının aparıcı rol oynayacağı və Əfqanıstandakı İran maraqlarına meydan oxumağa çalışacağı halda, Kabildə qurulacaq mərkəzi hökumətin qəbuledilməz olduğunu saya bilər.

Bu vəziyyətdə İran Əfqanıstanın qərbində daha böyük qarışıqlıqlara qarşı tampon bölgə olaraq xidmət etməsi üçün qoşun yerləşdirə bilər. Əfqanıstan hökuməti “İŞİD Xorasan”ı təsirli bir şəkildə zəiflədə bilmədiyi, həm İran maraqlarına, həm də şiə icmalarına birbaşa təhlükə yaratmağa davam etdiyi halda, İran hərəkətə keçə bilər. Bu vəziyyətdə İran liderləri milislərinin əfqan təhlükəsizlik qüvvələrindən daha yaxşı icraçı ola biləcəyi qənaətinə gələcək.

### Yeni cəbhə?

İran Əfqanıstana müdaxilə qərarına gəlsə, bunun üçün güclü alətləri var. “Qüds” Qüvvələrinin yeni komandanı, briqada generalı İsmayıl Qaani Əfqanıstanda uzun illərin təcrübəsinə sahibdir və 1980-ci illərdə İran-İraq müharibəsində, 1990-cı illərdə “Taliban”a qarşı Tehran üçün vuruşan əfqanları səfərbər etmək üçün əməliyyatçı rolu oynayıb.

İran ABŞ-ın Əfqanıstana hücumunu kəşfiyyat və etibarlı dəstəklə təmin edib və “Taliban”ın Milli Birlik Hökuməti ilə əvəzlənməsi prosesini dəstəkləyib.Qaani İran-Əfqanıstan sərhəddində narkotik ticarəti, qaçaqmalçılıq və digər cinayətkar qruplarla mübarizəyə dair dərin biliklərə sahibdir.Bu təcrübə Qaaninin bölgədəki qeyri-sabitliyi və sərhəd boyunca təhdidləri daha güclü anlamasını təmin edir.

Ancaq ola bilsin ki, İranın müdaxiləsi Tehranın başqa yerə yerləşdirdiyi hərbi qüvvəsi ilə həyata keçirilsin. İran Suriyada şiə döyüşçülərinin batalyonlarını yetişdirib.Bu işə cəlb olunanların çoxu Əfqanıstan və Pakistan mənşəlidir.Əfqan döyüşçüləri Hələbdə, Dəməşqdə, Latakiyada və Qalamun bölgəsində döyüşən 1000.000 nəfərlik “Liva Fatemiyun”da birləşiblər.Suriyadakı qarşıdurma potensial olaraq sona çatdıqda, şiə döyüşçüləri Əfqanıstana qaytarıla bilər.

“İŞİD Xorasan” qruplaşması dəhşətli zorakılıq etmə qabiliyyətinə malikdir.Hazırda döyüşçüləri əsasən Əfqanıstanın şərq hissəsində, Pakistanla sərhəddə, İrandan uzaqda yerləşir, lakin İŞİD, qrupun 2017-ci ilin iyulunda etdiyi kimi, İrana hücum etməyə qadir olduğunu sübut edib.

Proksi qüvvələr İranın xarici siyasətində və strategiyasında əsas yer tutur.“Qüds” Qüvvələri, Livandakı “Hizbullah”dan tutmuş Yəməndəki husilərə qədər, bütün Yaxın Şərqdə əlaqəli fəaliyyət göstərir.İran liderləri hələ də general-mayor Qasim Süleymaninin yanvarın əvvəlində öldürülməsindən təsirlənmiş görünür və Əfqanıstanda Vaşinqtona qarşı cəbhə açmaq qərarına gələ bilərlər.ABŞ-ın geri çəkilməsini sürətləndirmək üçün bir sıra hücumların təşkil edilməsi mümkündür.Qeyri-müntəzəm hücumlar ABŞ silahlı qüvvələrinin, Vyetnam və ya Somalini tərk etməsi kimi, İrana təbliğat qələbəsi verər.

Tehranın hədəfə düşməməsi üçün əfqan-şiə hərbçilərindən etibarlı şəxs kimi istifadə etməsi mümkündür.“Fatemiyun” və digər milislər vasitəsilə İran ABŞ-ın qalan aktivlərinə və yerli tərəfdaşlarına hücumlarla, ABŞ-ın Əfqanıstandakı maraqlarını mürəkkəbləşdirə və ya çox güman ki, Əfqanıstanın bəzi hissələrinin təhlükəsizliyini təmin edə, ölkədə öz maraqlarını artıra bilər.

İran Suriyadakı minlərlə əcnəbi döyüşçünü, o cümlədən əfqanları silahlandırmaq, yetişdirmək və ödəmək üçün milyardlarla dollar xərcləyib. Qaaninin əfqan şiə döyüşçüləri ilə təcrübəsi bu yaraqlıların İranın xarici siyasətində daha çox rol oynaya biləcəyini göstərir. Kabildə gələcək hökumətin forması necə olursa-olsun, Tehran şərq sərhədinə diqqəti artıracaq və “ən yaxşı forması müdaxilədir” qənaətinə gələ bilər.

***Kolin Klark, Ariane Təbatəbai***
***“Foreign Affairs”, 08.06.2020***

*Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Qarabağ həqiqətləri dünyada ayaq açıb yerimalidir

## Akif Nağı: "Beynəlxalq ictimaiyyətin münaqişə barədə məlumatı artdıqca onların fikirlərində də dəyişiklik olur"

***Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkəmizin bir nömrəli problemi olaraq qalır. Ancaq dünyada və regionda baş verən ictimai-siyasi proseslər Azərbaycan Ordusunun hərəkətə keçmək anının yaxınlaşdığına dəlalət edir.***

İyulun 6-da Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak edən Prezident İlham Əliyev mətbuata müsahibəsində də Qarabağ məsələsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini bir daha ifadə edib. Ölkə başçısı Ermənistan hakimiyyətinin yalan və böhtançı siyasət üzərində qurduğu təbliğatı da ifşa edib: "İndiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir? Nə üçün deyilmir ki, bu, təxribatdır və bu təxribata görə Ermənistan cavabdehlik daşıyacaq. Bunu mən deyirəm. Amma onlar deməlidirlər, əgər istəyirlər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Nədir bunların bəyanatında əsas tezis - hərb variantı mümkün deyil. Kim deyir? Gedin açın BMT-nin Nizamnaməsini, baxın görün özünümüdafiə hüququ var ölkələrdə, yoxsa yox? Yoxsa siz özünüzü nə hesab edirsiniz?! Siz BMT-dən də üstünsünüz?! BMT-nin Nizamnaməsindən də üstünsünüz?! Belədirsə, gedin deyin, biz Minsk qrupunun həmsədrləri hesab edirik ki, BMT-nin Nizamnaməsində əks olunan bu tezis yanlışdır".

Dövlət başçısının bu cür açıq və məntiqli iradları artıq faydasız danışıqlardan əməli fəaliyyətə keçməyin anonsu sayıla bilər. "Faydalı fəaliyyət" isə hazırkı durumda torpaqlarımızın hüquqi statusunun müharibə yolu ilə təmin edilməsini tətikləyir. Bu məsələ ilə əlaqədar Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı fikirlərini bizimlə bölüşüb. O bildirib ki, Prezidentin son çıxışındakı fikirlər tam mənası ilə Qarabağ üzərində gedən "sülh" danışıqları haqda həqiqətlərin dolğun ifadəsidir: "Biz uzun illərdir ki, Minsk Qrupunun fəaliyyətini ciddi tənqid edir və bu qrupun buraxılması barədə beynəlxalq təşkilatlara müraciətlər ünvanlayır, öz hökumətimizdən bu qrupdan imtina edilməsini tələb edirik. Düzdür, biz onu da anlayırıq ki, hökumətlər səviyyəsində beynəlxalq müstəvidə gedən danışıqları dayandırmaq üçün son dərəcə diqqətli olmaq gərəkdir. Xüsusilə, Avropa qurumları ilə münasibətlərdə incə siyasət yürüdüb, məqsədə doğru səbir və təmkinlə irəliləmək gərəkdir. Ancaq, "kor-kor, gör-gör", MQ yalnız ermənilərin xeyrinə işləyən və hüquqdan dəm vura-vura birtərəfli mövqe sərgiləməklə beynəlxalq hüquqa, insanların inamına zərbə vurmaqla məşğuldurlar. Buna görə də Prezident İlham Əliyevin həmsədrlərin, ümumiyyətlə, Avropa təsisatlarının ikili siyasətinə verdiyi qiymətı bölüşürük".



QAT sədri onu da vurğulayıb ki, Ermənistanın prosesə yanaşması, təxribatçı mövqeyi onlarla sərt üslubda danışmağın zamanının çatdığını göstərir: "Bizim fikirlərimiz həmişə tarixin sərt qanunauyğunluqlarına əsaslanıb. Qarabağ Azadlıq Təşkilatı həmişə torpaqlarımızın azadlığı yolunu labüd müharibədə görüb. Tarixin qanunauyğunluğu belədir. Azərbaycanın Ali Baş Komandanı, şübhəsiz, bu qanunauyğunluqlarla yaxşı tanışdır. Ancaq bu gün biz görürük ki, cənab İlham Əliyevin strategiyası sülhə əsaslansa da, qarşı tərəfin və qəyyumluq edənlərin yaratdığı şərait müharibə ehtimalını tədrici yolla artırır. Bu mövqeni düzgün sayır və müdafiə edirik".

O fikirlər də səslənir ki, Azərbaycan sabah müharibəyə başlasa, dünya ictimaiyyətinin kəskin etirazı ilə qarşılaşacaq. Akif Nağı isə bu fikirlərin yanlış olduğunu deyib: "Əslə belə olmayacaq! Amma gəlin, siz deyən istiqaməti gözdən keçirək. Düzdür, hamı müharibənin əleyhinədir, hətta Qarabağ Azadlıq Təşkilatı da müharibəni istəmir. Bir şərtlə ki, erməni qoşunları ilk növbədə Azərbaycanın tələbi, daha sonra isə beynəlxalq təşkilatların qəbul etdiyi hüquqi sənədlərə uyğun olaraq qeyd-şərtsiz qoşunlarını torpaqlarımızdan çıxarsınlar və biz sülh bağlayaq. Azərbaycanın erməni vətəndaşları da bundan sonra bizim Konstitusiyamızdan irəli gələn bütün hüquqlara sahib olaraq ölkəmizdə yaşaya bilərlər. Amma indiki şəraitdə və ermənilərin xəyalları fonunda bu yanaşma çox bəsit görünür. Ermənistan hökuməti və xalqı bu hüquqi normalarla razılaşmaq istəmir. Onda biz onları sülhə məcbur etməliyik. Müharibə tələbi də bundan qaynaqlanır. Qaldı ki, dünya ictimaiyyətinin fikri, biz bu istiqamətdə respublikamızın digər təşkilatları və hökumət də daxil olmaqla təbliğatımızı bu günlərdə daha da artırmalıyıq. Çünki, barıt qoxusu sərhədlərimizin səmasında aydın duyulur. Bir məsələni də diqqətə çatdırmaq istəyirəm ki, bizim təşkilat indiyədək əlimiz çatan xarici ölkələrdə kifayət qədər geniş təbliğat işi aparmış və istədiyimizə də nail olmuşuq. Bu işi biz həm təşkilati formada, həm də ayrı-ayrı üzvlərimizin xaricdəki fəaliyyəti çərçivəsində həyata keçirmişik. İlk növbədə dost Gürcüstanda və İranda, əsas da qardaş Türkiyədə Azərbaycanın haqq səsini eşidən və müdafiə edən milyonlarla insanın, başqa sözlə, dünya ictimaiyyətinin böyük kəsiminin formalaşmasına nail olunub. BMT-nin, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və yüzlərlə digər təşkilatların, beynəlxalq forumların tribunalarından rəsmi şəxslərin, ictimai xadimlərin, qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən Qarabağ həqiqətləri barədə dünyaya faktiki və real informasiyalar verilib, sübutlar təqdim olunub. Azərbaycanın haqq səsi həmişə eşidilib və müdafiə edilib. Bizim təşkilat uzun illər "Qarabağ:dünən, bu gün və sabah" adlı elmi-praktik konfrans keçirib. Bu işə xarici tədqiqatçılar da cəlb olunub. 10 ildir ki, "Qarabağ gündəliyi" adlı kiçik həcmli, amma real faktlarla zəngin kitabçalar buraxırıq. Qeyri-hökumət təşkilatları Şurasının maliyyə dəstəyi ilə bu kitabların, konfrans materiallarının ingilis dilində nəşrini də həyata keçiririk. Həmin kitabları Amerika Birləşmiş Ştatları başda olmaqla bir çox xarici dövlətlərdəki kitabxanalara göndəririk. Bu işin Qarabağ həqiqətlərinin yayılmasında rolu olduqca böyükdür. 2015-ci ildə yaratdığımız "Beynəlxalq Qarabağ Forumu" ətrafında uğurlu işimiz davam edir. İndiyədək Forumun işinə Türkiyə, Gürcüstan, Rusiya və İran cəlb olunmuşdu. Bu il İsveçin də bu işə qoşulmasını təşkil etmişdik. Ancaq pandemiya səbəbindən yollar bağlı olduğundan İsveçə səfərimiz alınmadı. Buna görə də Forumun yeddinci toplantısını yaxın bir həftədə videokonfrans formatında keçirəcəyik. Amma apardığımız işlər sayəsində videokonfransda ABŞ-dan, Ukraynadan, Fransadan da nümayəndələrin qoşulması gözlənilir. Sizə bir fakt haqda da demək istəyirəm. Hələ çox illər əvvəl təşkilatımızın bir üzvü Fransada Xocalı soyqırımı haqda məlumatlar paylaşıb, erməni qəddarlığını sübut edən videomateriallar göstərdiyi zaman fransız kişilər dəhşətə gələrək bu qəddarlığı yaşlı qadınlara göstərməməyi xahiş etmişdilər. Onlar ermənilərin vəhşiliklərindən dəhşətə gəlmiş və "bunlar necə insandırlar ki, belə qəddarlıqlar törədirlər" deyə, heyrətlənmişlər. İlk baxışda dar çərçivədə baş versə də, bu cür yayılmanın təsiri daha səmərəli olur. Çünki, hökumətlər siyasət üzrə hərəkət edir, sadə camaat isə gördüklərinə inanırlar. Təbii ki, ictimaiyyətdə formalaşan həqiqi təsəvvürlər yaddaşa köçür və zaman-zaman öz işini görür".

Onu da qeyd etmək yerinə düşər ki, hazırda Ermənistanda vəziyyət olduqca ağırdır. Koronavirus pandemiyası Ermənistanda ağır fəsadlar törədib. Eyni zamanda, Dağlıq Qarabağda bu müstəvidə vəziyyət kritikdir. Yəni, bu və ya digər məslələrlə əlaqədar daha hansı həqiqətləri çatdırmaq lazımdır ki, ermənilər, necə deyərlər, reallığı dərk edə bilsinlər?

Müsahibimiz hesab edir ki, başqalarının bədbəxtliyi bizə sevinc gətirən amil ola bilməz. "Amma özlərini işğal müharibəsinin qalibi kimi aparmaq xəyalı ilə yaşayan düşmən ölkəyə pandemiyanın öhdəsindən daha yüksək səviyyədə gələn Azərbaycan reallıqlarını da çatdırmaq lazımdır ki, bizim onlardan hər cəhətdən üstün olduğumuzu anlasınlar. Axı, həqiqəti düşmənin özünün anlaması daha vacib faktordur. Buna görə də Qarabağ həqiqətləri dünyada ayaq açıb yerimalidir" - deyə A.Nağı fikrini tamamlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# Sumqayıtda kişi baldızını bıçaqladı



***İyulun 9-da saat 21 radələrində Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi ərazisində 1986-cı il təvəllüdlü Ramilə Quliyevaya yaşadığı evdə çoxsaylı xəsarətlər yetirilib.***

Sumqayıt Şəhər Prokurorluğundan "Qafqazinfo"ya verilən məlumata görə, məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib.

Araşdırmalarla Sumqayıt şəhər sakini 1988-ci il təvəllüdlü Anar Əlizadənin baldızı 1986-cı il təvəllüdlü Ramilə Quliyevaya hazırda istintaqa məlum olmayan kəsici-deşici alətlə aralarında yaranmış mübahisə zamanı xəsarətlər yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilib.

İş üzrə hadisənin şahidləri müəyyənləşdirilərək dindirilib, o cümlədən digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Hazırda prokurorluq və polis əməkdaşları tərəfindən Anar Əlizadənin tutularaq istintaqa cəlb edilməsi istiqamətində təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Oğru kimi girdikləri evi iki gün sonra yandırdılar



***Zaqatalanın Çobankol kəndində yerləşən evlərin birindən oğurluq edilib.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və zəruri bilinən istintaq-əməliyyat tədbirləri həyata keçirilib. Keçirilən tədbirlərlə cinayət əməlini törətməkdə şübhəli bilinən rayonun Çobankol kənd sakinləri Ramazan Bədəlov və Fariz Kərimov saxlanılaraq istintaqa təqdim edilib.

Evdən müxtəlif məişət əşyaları və spirtli içkilər oğurladıqdan 2 gün sonra sərxoş vəziyyətdə olan dostlar etdikləri cinayət əməlini gizlətmək məqsədilə onu yandırıblar.

Faktla bağlı cinayət işi başlanılıb, istintaq aparılır.

# Şəmkirdə avtoxuliqanlıq edən gənc saxlanıldı



***Şəmkir Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin ( RPŞ DYPB) əməkdaşları rayon ərazisində avtoxuliqanlıq edərək ictimai-asayişi nümayişkəranə şəkildə pozan və bununla da vətəndaşların haqlı narazılığına səbəb olan avtoxuliqanlıq hərəkətləri edən sürücünü saxlayıb.***

DİN-in Mətbuat Xidmətinin Gəncə şəhərindəki regional qrupundan verilən məlumata görə, rayon sakini, Zaur Hüseynquliyev sürücülük idarə etdiyi "VAZ 2106" markalı avtomobil ilə yollarda intizamsızlıq edərək, yol hərəkəti qaydalarını kobud şəkildə pozaraq avtoxuliqanlıq etdiyi məlum olub.

Z. Hüseynquliyev barəsində Şəmkir RPŞ-nin DYPB-nin əməkdaşları tərəfindən inzibati qaydada protokollar tərtib olunaraq baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə o, 500 manat məbləğində cərimə edilərək 1 il sürücülük hüququndan məhrum edilib.

# Ağstafa icra başçısının həbsdə saxlanılma müddəti artırılır

***Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, birinci müavini Ramiz Tatarovun həbs müddətinin uzadılması ilə bağlı istintaq orqanın vəsatətinə iyulun 10-da baxılacaq.***

Bu barədə Teleqraf.com-a Səbail rayon Məhkəməsindən bildirilib. Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, birinci müavini Ramiz Tatarovun həbs müddətinin uzadılması ilə bağlı istintaq orqanı məhkəməyə vəsatət verib.

İstintaq orqanını vəsatəti Səbail rayon Məhkəməsinə təqdim olunub.

Vəsasatətə hakim Rəna Qafarova baxacaq.

Bundan başqa, rayon icra hakimiyyəti başçısının müavini Ramiz Tatarovun da həbs qətimkan tədbirinin müddətinin uzadılması ilə bağlı Səbail rayon Məhkəməsinə müraciət edilib.

Onunla bağlı da vəsatətə hakim Rəna Qafaova baxacaq.




Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumatda bildirilir ki, Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərə yol verilməsinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilib.

Toplanılan materiallara əsasən, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevin müntəzəm olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə dair əsaslı şübhələr yaranıb.

Belə ki, Nizaməddin Quliyevin rayon icra hakimiyyəti başçısının müavini Ramiz Tatarovun vasitəsilə 2019-cu ilin may ayından etibarən yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

Nizaməddin Quliyevin, müavini Ramiz Tatarov vasitəsilə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif əsaslarla rüşvət tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib. Bununla yanaşı, Nizaməddin Quliyevin səhiyyə, təhsil və digər yerli dövlət təsisatları rəhbərlərindən büdcə vəsaitləri hesabına yerli dövlət orqanlarının saxlanılması xərclərinə ayrılan vəsaitlərin müəyyən hissəsinin nağdlaşdırılaraq ona təqdim olunmasını tələb etməsi və alması, ictimai işlərə cəlb olunan aztəminatlı şəxslərə ayrılan əmək haqqı kartlarını ələ keçirib mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib.

Nizaməddin Quliyev və müavini Ramiz Tatarovun xidməti otaqlarında keçirilən baxış zamanı müxtəlif vəzifəli şəxslərdən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, pul vəsaitləri, sənədlər, iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər götürülüb.

Bundan başqa, həyata keçirilən tədbirlər nəticəsində 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, dövlət qayğısı olaraq işsiz vətəndaşların ictimai işlərə cəlb edilib aylıq qazanc əldə edə bilmələri üçün dövlət büdcəsi hesabına ayrılan külli miqdarda əmək haqları ələ keçirilib, o cümlədən Yevlax şəhərində "Yaşıllaşdırma və işıqlandırma müəssisəsi"nin fəaliyyətinə və digər abadlıq, təmir-tikinti işlərinə cəlb edildiyi rəsmiləşdirilən 133 nəfər heç bir işə cəlb edilmədən və əmək haqqı almadan, adlarına açılmış əmək haqqı kartları Qoca Səmədovun tabeçiliyində fəaliyyət göstərən şəxslər tərəfindən ətraf rayonlardakı bankomatlarda nağdlaşdırılaraq, Qoca Səmədova şəxsən təqdim edilməklə 236.000 manat dövlət vəsaiti mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Habelə, 2017-2019-cu illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Yevlax şəhərində abadlıq, təmir-tikinti işlərini həyata keçirmək adı ilə müxtəlif şirkətlərin hesablarına köçürülmüş 616.000 manat vəsait heç bir iş görülmədən Qoca Səmədovun tapşırığı ilə şirkət rəhbərləri tərəfindən nağdlaşdırılaraq ona şəxsən qaytarılmaqla təkrarən mənimsənilib. Şəhər icra hakimiyyəti və əlaqəli strukturlarda çalışan işçilərin əmək haqqından təsis etdiyi Şəhid ailələrinə və müharibə əlillərinə yardım Fonduna könüllü ödəmə adı altında hər ay faiz tutulub, yığılan pulun hər ay 8.000 manatadək olan əsas hissəsi Qoca Səmədova şəxsən təqdim edilib. Qoca Səmədov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin baş memarı Xalid Əhmədovun vasitəçiliyi ilə vətəndaşlar tərəfindən müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə 44 fiziki və hüquqi şəxsdən müxtəlif məbləğlərdə külli miqdarda təkrarən rüşvət tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

Qoca Səmədov və başqaları vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işləri üzrə şübhəli şəxs qismində saxlanılıb.

# Pandemiya ilə bağlı banklar niyə güzəştə getmir? – TƏHLİL

***Koronavirusla bağlı yaranmış böhran davam etdikcə dövlətdən və hökumətdən əhalinin sağlamlığı qayğısına qalmaq, habelə iqtisadiyyatı neftin qiymətinin aşağı olmasından, maliyyə və iqtisadi sarıdan daxili nizam-intizamın pozulması və baş verəcək xaos, ciddi tənəzzüldən sığortalamaq tədbirləri daha çox güc sərf etməyi tələb edir. Bu da bəzən, əsassız və yaxud, zamansız istəklər ortaya çıxara bilir.***

Hazırda zərər dəyən sahələrin sayı getdikcə artır. Çünki koronavirus elə bir fəlakətdir ki, həm daxildən, həm xaricdən zərbə vurmaqla yanaşı, müddət artdıqca "immunitet müqaviməti" getdikcə sıfıra enir ki, problemlər də həm şaquli, həm də üfiqi istiqamətdə genişlənməklə daha dərinə işləyir. Söhbət ondan gedir ki, aprel və may aylarında ilk növbədə, birinci dərəcəli sahələrə xüsusi dəstək və yardım göstərildisə, iyun ayı başlayan kimi bunları davam etdirmək lazım gəldiyi zərurəti göründü.

Düzdür, ölkə iqtisadiyyatının bir sıra istiqamətləri üzrə hazırlanan dəstək, bərpa mexanizmi onsuz da bu ilin üçüncü rübünün axırınadək müddəti əhatə edirdi ki, bunlardan da bəziləri uzadılacaqdı. Çünki təkrar edirəm, pandemiya davam edir və nə vaxt bitəcəyi bəlli deyil. Bu addımlar isə həm nağd, həm də qeyri-nağd olmaqla, dolayı yolla güzəşt xarakterli tədbirləri əhatə edir və etməlidir...

Ancaq qeyd etdiyim kimi, zərərçəkən sektorların siyahısında dəyişikliklərə ehtiyac yaranmaqdadır ki, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov qeyd etmişkən, müddət uzandıqca dəstək və yardım istəyən sahələrin sayı artır. Bəziləri bank sektorunu da bura daxil etməyi vacib bilirlər ki, bu, düzgün deyil. Ona görə ki, buna hələ ehtiyac yoxdur. Səbəb o deyil ki, burada vəziyyət əladır və yaxud da koronavirus adı çəkilən sektoru vurmayıb. Xeyr. Sadəcə, dövlətin sözügedən sektoru yaranmış vəziyyətlə bağlı sığortalamasına hələ ki, ehtiyac yaranmayıb. Əksinə, yaranmış vəziyyətdə bank sektorunun özünün bir sıra güzəştlərə getməsi tələb olunur ki, əslində, bu daha düzgün yoldur. Hansı ki, bu, özünü bankların müştəriləri ilə aralarındakı münasibətlərdə büruzə verməlidir. Ya kreditlərin verilməsi prosedurunda, ya da geri ödənişdə müxtəlif güzəştlərin tədbiqi yolu ilə... Odur ki, dövlətin bank sektoruna dair hər hansı güzəşt paketinə və sairəyə baxmasına heç bir ehtiyac yoxdur.

Lakin sual olunur ki, banklar özləri heç olmasa, hansısa güzəştlərə getməyə hazırdırlarmı? Xeyr. Real vəziyyət göstərir ki, təəssüf, hətta pandemiya şəraitində də banklar buna hazır deyillər!

Əvvəla, bank sektoruna pandemiya təsirini belə tez göstərə bilməz. Bunun üçün bir az vaxt lazımdır. Bundan əlavə, lap əgər, hansısa göstəricilərdə mənfi fəsadlar və meyllər ortaya çıxmış olsa da belə, bu, koronavirus səbəbindən deyil, sektorun vəziyyətindən irəli gəlir. Bizdə, bank sektorunu sağlamlaşdırmağa hələ əvvəldən ehtiyac var idi. Mövcud iqtisadi şərait isə hər şey daha əyani üzə çıxartdı.

Üçüncüsü, lap tutaq ki, pandemiya hər şeyi korlayıb. Bank sektoru iqtisadiyyatın spesifik sahəsidir və o əgər, sağlam vəziyyətdədirsə, kənar və subyektiv təsirlər ucbatından dərhal pis vəziyyətə düşə bilməz. Sözügedən sektor və yaxud sistem gərək "xəstə vəziyyətdə" olsun ki, kənar mənfi şoklar da sektoru dərhal silkələnsin. Azərbaycanda bank sektoru isə əvvəldən sağlam vəziyyətdə deyildi.

2015-2016-cı illərdəki böhrandan sonra ölkənin bank sistemində 11-dən çox bank bağlanmışdı. Proses hələ davam edəcəkdi, sadəcə, hökumətin və dövlətin üzləşdiyi problemlər və çətinliklər digər bankların ləğvi prosesini dayandırdı. Çünki başqa əlac yox idi. Böhrandan sonra ölkə iqtisadiyyatı 2017-ci ildən etibarən bərpa olunmağa başlasa da, bank sektoru iflic vəziyyətində qalmaqda davam etdi. Yalnız dövlət başçımızın təşəbbüsü və birbaşa müdaxiləsi yolu ilə problemli kreditlər məsələsi həllini tapdıqdan sonra banklar özlərinə gəlməyə başladılar ki, bu bir növ onların koma vəziyyətindən çıxmalarına bənzədi.

Bəli, bank sektorunun ən böyük problemi vaxtı ötmüş kreditlər məsələsi idi ki, dövlət keçən buna müdaxilə etdi və Prezident tərəfdən bir növ xalqa hədiyyə yolu ilə bu məsələ həllini tapdı. Xatırladım ki, problemli kreditlər həcmi həmin vaxt 2 milyard manata çatırdı.




Problemli kreditlər azalıbmı? Və indi hansı tendensiya əsasında dinamika nümayiş etdirməkdədir? Məsələ bundadır ki, sektorda problemli kreditlər məsələsi gah azalan, gah da artan tendensiya üzrə dinamika nümayiş etdirir ki, bunu cari ilin yanvar-may aylarının göstəriciləri də təsdiq edir. Bu il yanvarın 1-nə vaxtı ötmüş kreditlərin həcmi 1273.1 milyon manat təşkil edirdi ki, fevralın 1-nə bu rəqəm 1306.9 milyon manat, martın əvvəlinə 1297.8 milyon, aprelin əvvəlinə 1386.8 milyon, may və iyun aylarına görə isə müvafiq olaraq 1232.4 milyon və 1084.8 milyon manat olub. Ümumiyyətlə, ilin əvvəlinə nisbətən problemli kreditlər artsa da, son 1 ildə azalıb.

İş bundadır ki, banklar qeyri-neft sektorunu maliyyələşdirə bilmirlərsə və bu sahəyə kredit vermirlərsə, yenidən "koma"ya düşə bilərlər. Çünki onları bu vəziyyətə istehlak kreditləri salmışdı. "Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni, istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik",- deyə, Prezident müşavirələrin birində vurğulamışdı.

Yeri gəlmişkən, daha bir fakt ondan ibarətdir ki, ölkədə fəaliyyət göstərən 26 bankdan 21-i verdiyi kreditlərin 58 faizə qədərini təminatsız ötürüb. Belə şəraitdə, koronavirusla bağlı dövlətin banklara kreditlərin geri ödənişi ilə bağlı güzəşt paketindən söhbət gedə bilərmi? Lazımdırsa, bunu banklar özləri niyə etməsinlər ki?!

***Pərviz Heydərov***

# Neftin barreli 150 dollara satılacaq - PROQNOZ

***"Neftin 1 barreli 2025-ci ildə 150 dollara qədər bahalaşa bilər".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə "Northern Trace Capital" şirkətinin direktoru Trevor Vuds "The Wall Street Journal"a açıqlamasında deyib. Onun fikrincə, neft kəşfiyyatı və hasilatı sektoruna yatırılan investisiyaların azalması bahalaşmanın əsas indikatoru ola bilər.

"Maliyyə çatışmazlığı ciddi hiss olunacaq. Bu şəraitdə bəzi şirkətlərə hasilatı artırmaq çətin olacaq".

"JPMorgan" şirkətinin rəhbəri Kristian Malek də investisiyaların azalması şəraitində tələb-təklif arasında ciddi fərqin yaranacağını düşünür. "Matilda Capital" şirkətinin eksperti Riçard Fullarton isə 2020-ci ilin sonuna qədər neftin 1 barrelinin 100 dollara qədər bahalaşmasını təxmin edir. "Biz heç zaman neft ehtiyatlarını sona qədər istismar edə bilməyəcəyik".

Buna baxmayaraq, rusiyalı ekspertlər neft hasilatının yaxın illərdə 40-45 dollar arasında stabilləşəcəyini düşünürlər.

# Azərbaycanın üzv olduğu razılaşmanın cığal üzvləri

***OPEK+ ölkələri iyun ayında hasilatın azaldılması ilə bağlı götürdükləri öhdəliyi 108% yerinə yetiriblər.***

"Unikal" Beynəlxalq Energetika Agentliyinə istinadən xəbər verir ki, OPEK+ razılaşmasını imzalayan ölkələr iyunda ötən ayla müqayisədə hasilatı 2 milyon barrel də azaldaraq 33,4 milyon barrelə qədər geriləyiblər. Rusiya öhdəliyini 100%, Azərbaycan 101%, Qazaxıstan 98%, Anqola 89%, İraq 89% yerinə yetirib. Cığallıq edən, hasilatı üzərinə götürdüyü öhdəlikdən daha az icra edən Konqo (34%) şərtləri ciddi şəkildə pozub. OPEK+un digər üzvü Qabon isə, ümumiyyətlə, hasilatı azaltmayıb, əvəzində bir neçə milyon barrel artırıb.

# MDB ölkələri arasında 30 ilin rekordunu vurduq

***Dünya Bankı keçmiş Sovet respublikaları ilə bağlı statistikanı açıqlayıb.***

"Unikal" xəbər verir ki, Dünya Bankı 1990-2019-cu illərdə keçmiş sovet respublikalarının Ümumi Daxili Məhsul istehsalının arrtım tempini hesablayıb.

Hesabat 1990-cı illə müqayisədə ÜDM-un artım tempinin Azərbaycan olduğunu göstərib. Belə ki, 1999-cı illər müqayisədə 30 il sonra - 2019-cu ildə Azərbaycanın ÜDM-ü 341% artıb. Bu göstərici Türkmənistanda 318%, Tacikistanda 305%, Özbəkistanda 242%, Ermənistanda 225%, Qazaxıstanda 219%, Gürcüstanda 179%, Moldovada 133%, Belarusda 126%, Qırğızıstanda 125%, Litvada 112%, Estoniyada 96%, Latviyada 94% və Rusiyada 24% artıb.

Siyahıdan da göründüyü kimi Azərbaycan 15 keçmiş müttəfiq respublima arasında şəksiz liderdir. Dünya Bankı artım tempini hesablayan zaman dolların 2010-cu ildəki kursunu əsas götürüb.


**ELAN**

Bakı şəhəri, Binəqədi rayonu, 7 mkr-n, S.S.Axundov küçəsi İ/B, ev-1 ünvanında qeydiyyatda olan 1973-cü il təvəllüdlü Baxışov Amil Alı oğluna, Binəqədi RHK-ı tərəfindən verilmiş № 070813 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**ELAN**

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən ibrahimov Rəşad Vahid oğluna verilmiş AA 04291, AA 04292, AA 05321 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.

# DSMF-nin Lənkəran şöbəsində nöqsanlar aşkarlandı



***Hesablama Palatasının 2020-ci il üzrə İş Planına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsinə (Şöbə) 2018-2019-cu illərdə dövlət büdcəsindən ayrılan vəsaitlərin və şöbənin məcburi dövlət sosial sığortası üzrə gəlirlərinin və xərclərinin icrası üzrə uyğunluq auditi aparılıb.***

Palatadan "Unikal"a verilən məlumata görə, Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi tərəfindən ailə tərkibinin və ailənin yaşayış yerinin, ailə üzvünün işə girməsi və ya işdən çıxması nəticəsində ailənin gəlirlərinin dəyişməsi faktlarının vaxtında aşkar edilməməsi nəticəsində auditlə əhatə olunan dövrdə 286 halda ünvanlı dövlət sosial yardımı üzrə ödəniş davam etdirilərək, ümumilikdə 214,7 min manat məbləğində sosial yardım ödənilib, həmçinin, sosial yardımın məbləğinin dəyişməsinə və ya ödənişin dayanmasına səbəb ola biləcək məlumatların vətəndaşlar tərəfindən təqdim edilməməsi səbəbindən bağlanılmış 234 sosial yardım işi üzrə vətəndaşların müvafiq bank hesablarında audit olunan dövrün əvvəlinə cəmi 24,4 min manat məbləğində vəsait qalıb.

Bununla yanaşı, Müavinət Alt Sisteminin digər müvafiq alt sistemlərə lazımi səviyyədə inteqrasiya olunmaması nəticəsində sosial müavinətin ödənişinin dayandırılması üçün mövcud olan əsaslar, o cümlədən, vətəndaşların vəfat etməsi, əmək pensiyası hüquqlarının olması və ya işləməsi vaxtında aşkar edilməyib, əmək pensiyası hüququ olan, eləcə də sosial müavinət almaq hüququ olmayan vətəndaşlara 96 sosial müavinət işi üzrə cəmi 96,9 min manat vəsait ödənilib, həmin vəsaitdən müxtəlif səbəblərdən 80 iş üzrə 84,1 min manat vəsait müvafiq bank hesablarında qalıb.

Auditlə əhatə olunan dövrdə düzgün olmayaraq ümumilikdə 246 pensiya işi üzrə 276,1 min manat məbləğində vəsaitin ödənilməsi həyata keçirilib, həmin vəsaitdən müxtəlif səbəblərdən pensiya hesablarında 137,5 min manat vəsait qalıb, habelə məcburi dövlət sosial sığorta haqları hesabına 3248,82 manat artıq müavinət ödənilib.

Auditin nəticələri üzrə aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsi tərəfindən əsassız və artıq ödəmələr üzrə 116,5 min manat vəsait dövlət büdcəsinə, 276,6 min manat vəsait isə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə olmaqla, ümumilikdə 393,1 min manat vəsait bərpa edilmiş və ünvanlı dövlət sosial yardımı təyinatından imtina üçün əsaslar aşkar edilib 286 iş üzrə ödəniş dayandırılıb, eyni zamanda Hesablama Palatasının müvafiq qərarı ilə Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsinə ünvanlı dövlət sosial yardımı təyinatından imtina üçün əsaslar aşkar edilib 259 sosial yardım işi üzrə ödənilib ümumilikdə 214,7 min manat, sosial müavinətlər üzrə artıq ödəmə məbləğindən qalan 5404,36 manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər üzrə artıq ödəmə məbləğindən qalan 2749,82 manat vəsaitin müvafiq büdcələrə bərpa olunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi tapşırılıb.

***Famil***

# Həftəsonu hava kəskin dəyişəcək

***Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı gözlənilir.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 21-24, gündüz 27-31, Bakıda gecə 21-23, gündüz 28-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək. Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu Sumqayıt,

Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 23-24, Türkan, Hövsan, Sahil, Şıxda isə 24-25 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi gözlənilir. Qərb küləyi ayrı ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-24, gündüz 28-33, dağlarda gecə 11-16, gündüz 19-24 dərəcə isti olacaq. Tibbimeteoroloji proqnoza əsasən, iyulun 11-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda havanın temperaturunun aşağı enməsi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Daha 93 müəssisədə qayda pozuntusu aşkarlandı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən 49 ictimai iaşə obyekti, 115 ərzaq satışı mağazası olmaqla ümumilikdə 164 müəssisədə reyd keçirib.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən obyektlərdən 93-də Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb. Sözügedən müəssisələr arasında daha çox uyğunsuzluqlar aşkar edilən ictimai iaşə və ərzaq mağazaları aşağıdakılardır.



**Bakı şəhəri üzrə:**

"Baku store", "Araz supermarket" (Qara Qarayev prospekti), "Cənub", "Real", "Yaxın", "Qardaşlar", "Xızı", "Araz supermarket" (Sabunçu rayonu) marketlər, Məhəmmədov Məhəmməd İbadət oğluna, Əhmədov Pərvin Rahib oğluna, Hüseynov Elmuraz Zahid oğluna, Məmmədov İlqar Nofəl oğluna məxsus ərzaq mağazaları və Əliyev Habil Fərhad oğluna məxsus şirniyyat mağazası

**Digər şəhər və rayonlar üzrə:**

Abşeron rayonu, Mehdiabad qəsəbəsində "Mikromart" market

Sumqayıt şəhərində "Nəriman" market, Əliyeva İradə Allahyar qızına və Umudova Mehriban Mustafa qızına məxsus ərzaq mağazaları

Quba rayonunda Almasov Müslüm Əmizadə oğluna məxsus market

Xaçmaz rayonunda Şərifov Kamal Mahmudağa oğluna, Əhmədov Murad Hakim oğluna, Kərimov Eyvaz Kərim oğluna, Ağayev Nizami Əmirağa oğluna, Nəsrullayev Baləhməd Hacıbəy oğluna məxsus ət satışı mağazaları

İsmayıllı rayonunda "Araz supermarket", "Dost" marketlər, Abdullayev Elsevər Antik oğluna, Hüseynov Elşən Eldar oğluna, Hüseynov Anar Mirzağa oğluna və Həmzəyev Tural Rais oğluna məxsus ət satışı mağazaları

Şamaxı rayonunda Salahov Radim Teymur oğluna məxsus ərzaq mağazası, "Zəm-zəm" restoranı, "Ata yurd" kafesi, "Şamo" bazarı

Şirvan şəhərində Tərlanov İsmayıl Xasay oğluna və Dadaşov Zülfiyyə Hümbət qızına məxsus ərzaq mağazaları

Sabirabad rayonunda Məsimli Allahverdi Məsim oğluna məxsus ərzaq mağazası

Lənkəran rayonu, Şürük kəndində "Favorit" market

Cəlilabad rayonunda Məmmədov Pərviz Abdulrahman oğluna məxsus market

Bərdə rayonunda Novruzov Vüqar Rafiq oğluna, Məmmədov Rafiz Saqif oğluna, Əzimov Samir Cahangir oğluna, Əliyev Akşin Abil oğluna, Salahov Niyaməddin Raqub oğluna, Rəhimov Süleyman Ələddin oğluna, Səlimov Xəyyam Arif oğluna, Quluzadə Cavid Ələkbər oğluna, Kamalov Rəşad Rizvan oğluna, Nərimanov Azad İsmayıl oğluna, Əliyev Ramil Əhliman oğluna və Əsədova Lalə Əmir oğluna məxsus ərzaq mağazaları

Tərtər rayonunda Zeynalov Hüseyn Pərviz oğluna, Şirinov Elvin Vaqif oğluna və Məmmədov Asəf İlyas oğluna məxsus ərzaq mağazaları

Balakən rayonunda Məmmədov Qəhrəman Camaldin oğluna məxsus kafe

Zaqatala rayonunda Ağayev Şəhriyar Şaban oğluna məxsus kafe, Bağmanov Mahir Məhəmməd oğluna məxsus ərzaq mağazası

Qax rayonunda Əliyeva Ruqiyə Hacıbala qızına məxsus kafe

Gəncə şəhərində "Elmir", "Mahir", "Sərfəli", "Ay-ulduz", "Nubar", "Aysberq" marketlər, Məmmədov Ramil İsgəndər oğluna, Binnətov Rafiq Şaməddin oğluna, Cabbarov Qəhrəman Mirəli oğluna məxsus ərzaq mağazaları

Ağstafa rayonunda Abutalıbov İlham Vidadi oğluna məxsus ət satışı mağazası, Dərvişov Qabil İmamqulu oğluna məxsus kafe və Əmirov Oktay Musa oğluna məxsus "Gülül" kafe

Qazax rayonunda "Xan sarayı" kafe

Tovuz rayonunda "Günel" market

Gədəbəy rayonunda "Kür" və "Təbriz" kafeləri

Şəmkir rayonunda "Uğur" kafe

Ucar rayonunda "Sərin", "Göbələk", "Nuş olsun", "Tonqal", "Qumlaq" və "City klub" kafelər, Şirinov Eldar Tapdıq oğluna, Məmmədov Mahir Məmmədəli oğluna, Musayev Mirbaba Mirismayıl oğluna, Cənnətov Akif Piralı oğluna məxsus kafelər, "Oba", "Eleqant", "24 saat", "Aran", "Real", "Soltan", "Elvin" və "Şirvan" marketlər

Qeyd edək ki, AQTA Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektləri və ərzaq mağazalarında yoxlama-nəzarət tədbirlərini bundan sonra da davam etdirəcək və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərə əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcək.

***Nigar Orucova***

# Hazırda Bakıdan bu ölkələrə uçmaq olar - Siyahı və qiymət

***Pandemiya səbəbindən yay aylarında sərhədlərin bağlanması bir çox insanın səfər, eləcə də istirahət planlarının ləğvinə gətirib çıxardı. Bəzi ölkələrarası sərhədlər açılsa da, Azərbaycan mövcud şəraitə görə sərhədlərini avqustun 1-nə qədər bağlı saxlayacaq. Sonradan beynəlxalq uçuşlarla bağlı hansı qərarın veriləcəyi isə ölkəmizdəki yoluxma sayının dinamikasından asılıdır.***

Buna baxmayaraq, Azərbaycan Hava Yolları (AZAL) vəziyyəti nəzərə alaraq və Nazirlər Kabinetinin qərarlarına uyğun olaraq təcili səfər etmək istəyən vətəndaşlar üçün xüsusi reyslər təklif edir.

Odur ki, "Qafqazinfo" pandemiya şəraitində ölkə xaricinə necə səfər edə biləcəyinizlə bağlı kiçik araşdırma hazırlayıb.

Belə ki, hazırda Azərbaycandan 4 ölkə paytaxtına həftədə 1 və 4 dəfə olmaq şərti ilə müəyyən reyslər nəzərdə tutulub. Bu şəhərlər İstanbul, London, Berlin və son olaraq da qarşılıqlı marketinq razılaşmasına əsasən Minskdir.

Bəs bu reyslərdən kimlər və necə yararlana bilər?

Bu yaxınlarda Xalq artisti Miri Yusifin İstanbul xüsusi reysindən istifadə edərək istirahətə getməsi müzakirələrə səbəb olmuşdu. Məlumdur ki, biletlər satışa çıxarıldıqdan qısa müddət sonra ekonom sinfə aid olanlar satılıb tükənir. Biletlərin belə sürətlə tükənməsinin bir səbəbi tələbatın yüksək olmağıdırsa, digər səbəbi analoji olaraq bu işlə məşğul olan tur şirkətlərinin cəld tərpənərək müəyyən sayda biletləri kütləvi əldə etməsidir. Elə Miri Yusif özü də turizm şirkətinin köməyindən faydalandığını açıqlamışdı.

Bildiyimiz kimi, pandemiya səbəbindən Azərbaycandan yerinə yetirilən reyslərin sərnişinlərindən TƏBİB tərəfindən akkreditasiya olunmuş laboratoriyalarda icbari qaydada testdən keçmək tələb olunur. Həmçinin digər ölkələrdən Azərbaycana uçuş zamanı koronavirus testinin mənfi nəticəsini təsdiq edən arayış təqdim etmək lazımdır. Əks təqdirdə sərnişinlər uçuşa buraxılmır. Koronavirus testinin keçirilməsini təsdiq edən arayış reysin uçuşundan ən gec 48 saat əvvəl alınmalıdır.

Azərbaycandan təşkil olunan uçuşlarda iştirak edəcək sərnişinlər üçün testlər aşağıdakı klinikalarda aparılır:

- Referans kliniki laboratoriya mərkəzi;
- Leyla klinikası;
- Memorial klinikası
- Bona Dea xəstəxanası;
- İnci laboratoriyası;
- Bakı Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi (XTİNM);
- Kaspian Hospital;
- UltraLab.

Bundan başqa, şirkət tələbələrə güzəştlərdən yararlanmaq şansı da təklif edir. Belə ki, İstanbul-Bakı, London-Bakı və yaxud Berlin-Bakı istiqamətində 30% güzəştdən istifadə etmək istəyən tələbələr aviabiletləri fərdi qaydada rəsmiləşdirməlidir.

Bakıdan nəzərdə tutulan uçuşlar üçün sərnişinlərə laborator testdən başqa xüsusi bir tələb qoyulmayıb.

İyul-avqust aylarında Azərbaycandan hansı ölkələrə və hansı qiymətlərlə uçmaq olar?

Yuxarıda qeyd etdiyimiz kimi, hazırda sadəcə 4 istiqamət (İstanbul, London, Berlin və Minsk) üçün xüsusi reyslər təklif olunur.

Bakı-İstanbul-Bakı marşrutu

Artıq bir müddətdir ki, bu marşrut üzrə reysləri həyata keçirən AZAL aviareyslərin tezliyini artıraraq həftədə iki reysdən dörd reysədək qaldırıb (çərşənbə axşamı, cümə axşamı, şənbə və bazar günləri).

Tariflər avqustun sonunadək yerinə yetirilməsi planlaşdırılan xüsusi reyslərin satışı üçün tətbiq edilən tariflərlə analojidir. Belə ki, Bakı-İstanbul reysi üçün iyul ayına təklif olunan səfərlərin qiyməti ekonom sinfi üçün 381 AZN, yüksək xidmət sinfi üçün isə 1191 AZN nəzərdə tutulub.

Türkiyə Hava Yolları vasitəsilə isə təklif olunan qiymətlər ekonom sinfi üçün 391 AZN, yüksək xidmət sinfi üçün isə 1928 AZN-dir.

İstanbul-Bakı reysinə Azərbaycan vətəndaşları ilə yanaşı aşağıdakı şəxslər buraxılır:?

- Azərbaycanda akkreditə olan xarici diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri, əməkdaşları və onların ailə üzvləri;
- Valideynlərdən biri, həyat yoldaşı və ya azyaşlı övladı Azərbaycan Respublikası vətəndaşı olan əcnəbilər;
- Azərbaycanda işləmək icazəsi olan əcnəbilər;

London-Bakı reysinə Azərbaycan vətəndaşları və ölkəmizdə daimi yaşayış üçün icazəsi olan digər dövlətlərin vətəndaşları buraxılacaq.

Hava yolları şirkətinin saytında iyul və avqust ayları üçün Bakı-London və ya London-Bakı səfərlərinin qiyməti ekonom sinfi üçün 770 AZN, yüksək xidmət sinfi üçün isə 1539 AZN nəzərdə tutulub.

Bakı-Berlin-Bakı marşrutu

İyulun 17-dən etibarən isə AZAL Bakı-Berlin-Bakı marşrutu üzrə xüsusi reyslər həyata keçirməyə başlayacaq. Uçuşlar avqustun 28-dək həftədə bir dəfə - cümə günləri həyata keçiriləcək. Həmin marşrut üzrə aviabilet satışı xüsusi şərtlərə riayət edilməklə reallaşacaq.

Bakı-Berlin reysi ilə Almaniyada daimi və ya müvəqqəti yaşamaq hüququ olan sərnişinlər (tələbələr daxil olmaqla), habelə Avropa İttifaqı ölkələrinin vətəndaşları daşınacaq.

Berlin-Bakı reysinə isə Azərbaycan vətəndaşları və Azərbaycanda daimi yaşayış üçün icazəsi olan digər dövlətlərin vətəndaşları buraxılacaq.

Hava yolları şirkətinin saytında iyul ayı üçün Bakı-Berlin və ya Berlin-Bakı səfərlərinin qiyməti ekonom sinfi üçün 603 AZN, yüksək xidmət sinfi üçün isə 1372 AZN nəzərdə tutulub.



- Azərbaycanda müvəqqəti və ya daimi yaşamaq icazəsi olan əcnəbilər;
- Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr.

Həmçinin, Bakı-İstanbul reysinə biletləri Azərbaycan, Türkiyə və digər dövlətlərin vətəndaşları olan, həmin ölkələrə daxil olmaq hüququna malik olan şəxslər əldə edə bilər.

Bakı-London-Bakı marşrutu

Azərbaycanın milli aviadaşıyıcısı iyulun 16-dan avqustun 27-dək həftədə bir dəfə (cümə axşamı) Bakı-London-Bakı marşrutu üzrə xüsusi reyslər yerinə yetirəcək.

Bu reys ilə Böyük Britaniyaya giriş hüququ olan sərnişinlər daşınacaq. Bundan əlavə, həmin ölkənin yeni qaydalarına əsasən uçuşdan 48 saat əvvəl https://www.gov.uk/provide-journey-contact-details-before-travel-uk saytında onlayn qaydada anket doldurulması tələb olunur. Qeyd edilən müddətdə anket doldurulmadığı halda Londonun "Hitrou" hava limanının miqrasiya orqanının əməkdaşları sərnişini 100 funt sterlinq məbləğində cərimə edə bilər.

Bakı-Minsk marşrutu

Son olaraq, AZAL-la marketinq tərəfdaşlığı əsasında iyul ayında "Belavia" aviaşirkəti Bakı-Minsk reyslərini həyata keçirəcək.

Belə ki, bu gündən etibarən uçuşların tezliyi həftədə iki dəfə - cümə və bazar günləri olmaqla ümumilikdə yeddi reys yerinə yetirilməsi planlaşdırılır.

Aviabiletləri həm www.azal.az saytında, həm də www.belavia.by saytından əldə etmək mümkündür.

Bakı-Minsk reysi ilə Belarusa giriş hüququ olan sərnişinlər daşınacaq. Minskdən transfer reysi ilə üçüncü ölkəyə gedən sərnişinlər təyinat ölkəsinin giriş qaydalarına əsasən reysə buraxılacaq.

Biletlərin qiymətlərinə gəldikdə isə yay aylarında Bakıdan təşkil olunan uçuşlar üzrə ən uyğun məbləğlər bu reyslər üçün təklif olunub. Belə ki, bilet qiymətləri iyul ayı üçün 680 manat nəzərdə tutulsa da, avqust ayında 296 manata ekonom sinfinə bilet tapmaq mümkündür.

*Günel Hacı*



# Türkiyəli gəncə Azərbaycan bayrağı hədiyyə edilib

***Dünya bayraqlarının kolleksiyasını toplayan 15 yaşlı Türkiyə vətəndaşı Ali Mert Tunçun Azərbaycana xüsusi sevgisi var. Bu marağa və bu sevgiyə görə o, Azərbaycan Müdafiə Nazirliyinə müraciət edərək Azərbaycan bayrağının ona hədiyyə edilməsini xahiş edib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, Müdafiə nazirinin tapşırığına əsasən Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı Hərbi attaşesi polkovnik Müşfiq Məmmədov ölkəmizin Ankara şəhərindəki səfirliyində Ali, onun kiçik bacısı Defne Zeren və uşaqların valideynləri - atası Tunç Ali Kemal və anası Tunç Kevser ilə görüşüb. Səmimi görüş qonaqlara xoş təsir bağışlayıb.

Görüşdə Azərbaycan və Türkiyə dövlətləri arasında münasibətlərin tarixindən, mədəniyyətindən, qarşılıqlı əlaqələrin inkişafından, ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi "Bir millət, iki dövlət" formatında əməkdaşlığımızdan bəhs edilib. Görüşün sonunda Aliyə Azərbaycan Respublikasının Dövlət Bayrağı, ailə üzvlərinin hər birinə isə ölkəmizə məxsus müxtəlif hədiyyələr təqdim olunub.

Qonaqlar müraciətə qısa zamanda baxıldığına, Azərbaycanın Ankaradakı səfirliyinə dəvət olunduqlarına və burada şahidi olduqları səmimiyyətə, mehribanlığa görə dərin təşəkkürlərini bildiriblər.

Ali Mert Tunç və ailə üzvləri COVİD-19 virusu bitdikdən sonra, Azərbaycana gəlmək arzusunda olduqlarını bildiriblər.

# Naxçıvanda hərbi təlimlər davam edir

***Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimləri davam edir.***

"Unikal" xəbər verir ki, taktiki təlimlərə motoatıcı və tank bölmələri ilə yanaşı hərtərəfli təminatın təşkili üzrə digər bölmələr də cəlb edilib. Təlimə cəlb edilmiş bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb. Tabor, divizion döyüş atışlı və atışsız təlimlərində əsas diqqət bölmələrin səhra vərdişlərinin yüksəldilməsinə, müasir ümumqoşun döyüşünün hazırlanıb aparılmasına və təlimdə iştirak edən digər qoşun növlərinin bölmələri ilə qarşılıqlı əlaqənin yaradılmasına yönəldilib.

Döyüş atışlı taktiki təlimlərdə bütün silah növlərinin, eləcə də tank və piyadanın döyüş maşınlarının atəşi ilə hədəflər məhv edilib.

Təlimlərdə döyüş şəraitinə maksimum yaxınlaşdırılmış vəziyyətdə bölmələrin döyüş uzlaşması aparılır.

Təlimə cəlb edilən şəxsi heyətin arxa təminatının təşkili məqsədi ilə tabor və divizionların maddi-texniki təminat məntəqələrinin vasitələrin çatdırılması təminedici birləşmə və hissələrin bölmələri tərəfindən icra edilib.

# Vəramin yetim qoyduğu, “cəllad”ın sevdiyi, güllələnib öldürülən xanım pianoçumuz – HƏYAT HEKAYƏTİ

***Dünyaya gələndə əzizlərin sevinir, əzizlənirsən, boyunu sevə-sevə böyüdürlər səni, amma heç kim bilmir ki, həyat sənin üçün hansı sürprizləri hazırlayıb. O da əzizlənib, naz-nemətlə böyüdülmüşdü, ailənin 6-cı övladı olsa da arzuolunan, sevilən idi.***

Azərbaycanın ilk qadın pianoçularındandır Lent.az -ın budəfəki qəhrəmanı - Xədicə Qayıbova.

1893-cü il mayın 24-də Tiflisdə məşhur ruhanilərdən Osman bəy Müftizadənin ailəsində dünyaya gəlib. Anası Züleyxa xanım XIX əsrdə Tiflisdə məskunlaşan tatar Terequlovlar ailəsindən idi. Hər ikisi ziyalı olan valideynləri qızın yaxşı təhsil almasını istəyirdilər. Odur ki, Xədicə ilk təhsilini Müqəddəs Nina Qızlar məktəbində alır. Həmin məktəbdə həm də fortepiano təhsili alırdı.

1911-ci ildə dərslərini və musiqini mükəmməl öyrənən Xədicə “Qızıl xaç nişanı” ilə orta təhsilini başa vurur. Professor N. Nikolayevin fortepiano sinfində isə xüsusi kursu qızılı haşiyəli diplomla bitirir.

Həmin il Tiflisdə vərəm xəstəliyi yayılmışdı. Xədicəgilin də ailəsinə vərəmli faciə gəlir. Qız gənc yaşında atasını, bacısını və qardaşını itirir. Bu səbəbdən həmin illər təhsilini davam etdirə bilmir.

Qafqaz müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin oğlu, mühəndis Nadir Qayıbovla ailə quran Xədicə bir müddət Tiflisdə Azərbaycan məktəbində dərs deyir.

1919-cu ildə Qayıbovlar Bakıya köçür. Bakıda Xədicə üçün münbit musiqi mühiti vardı. Xanım musiqiçiyə ehtiyac böyük idi. Mərkəzində Üzeyir bəy Hacıbəyovun dayandığı bu mühitdə qadın musiqiçilərin səhnəyə cəlb edilməsinə önəm verilirdi. Xədicə də dərhal səhnəyə yol tapdı, daha doğrusu, səhnə onun üçün açıldı. Fortepianoda xalq mahnıları və muğamlar əsasında improvizasiyalarla çıxış edir, konsertlər verir, tələbələr hazırlayırdı.

Cümhuriyyət dönəmində Bakının mədəni mühitində Xədicə Qayıbovanın adı öndə idi. Xüsusi görüşlərdə, musiqi gecələrində həm özü, həm də yetirmələri ilə çıxış edirdi. Onun evi də Bakının elitar təbəqəsinin görüş yeri sayılırdı. Musiqi, ədəbiyyat məclisləri səhərə qədər çəkərdi.

İctimai həyatda da fəal idi Xədicə xanım. Hacı Zeynalabdin Tağıyevin qadınlara təhsil verilməsi ilə bağlı keçirdiyi layihələrdə iştirak edir, qadınları təhsilə çağırırdı. 1927-ci ildə belə çıxışlarından birində deyir: ”Qadın istərsə, bacarar, nail olar. Tək gərək olan savad və maarif üçün çalışmaqdır. Mən vətənimin qızlarına sonsuz etimad edirəm.”

İsmailiyyə binasında bu yönümdə keçirilən konsertlərdə çıxış edən Xədicə xanıma Tağıyevin xüsusi hörməti varmış. Fəaliyyətinə görə ona üstündə öz şəkli olan servis və çox qiymətli brilyant qaşlı üzük də bağışlayıb.

Sovet işğalından sonra Xədicə Qayıbova musiqi və pedaqoji fəaliyyətindən qalmır. Yeni layihələrdə çalışırdı. Tezliklə Xədicə xanım Xalq Maarif Komissarlığında Şərq musiqi şöbəsinin müdiri təyin olunur. Onun təşəbbüsü ilə “Qısamüddətli Şərq musiqi kursları” təşkil edilir, uşaq xoru yaradılır.

Onun təşəbbüsü və birbaşa iştirakı ilə Azərbaycanlı qadınları üçün musiqi-dram studiyası yaradılır. Həm Şərq, həm də Avropa musiqisinin gözəl bilicisi kimi o, respublikanın mədəni həyatında fəal iştirak edirdi. Ü.Hacıbəyov, R.M.Qliyer, Bülbül, H. Sarabski, M.L.Presman, L.Rudolf, Q.Primov kimi sənətkarlarla çalışır, Azərbaycan musiqi folklorunun toplanmasında fəal iştirak edirdi.

Həm də özü təhsil alan Xədicə xanım 1927-1931-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində təhsil alıb.

Cümhuriyyətin süqutundan, sovet işğalından sonra Azərbaycanın müstəqilliyinə söz verilmişdi, ona görə də insanlar hər kəs öz sahəsində fəaliyyəti ilə məşğul idi. Elə ki aldandıqlarını, istismar olunduqlarını anladılar, etirazlar başladı. Bu və ya digər formada etirazlar isə kütləvi sürgünlər və qətllərlə qarşılanmağa başladı. Bu dalğanın içində Xədicə Qayıbova da vardı.



Həyat yoldaşı Nadir Qayıbov da repressiya qurbanı olub. Onun həbsi və ölümü haqqında məlumat yoxdur. Yalnız o məlumdur ki, Xədicə Qayıbova ikinci dəfə ailə qurur.

İkinci həyat yoldaşı Rəşad Qayıbov 1933-cü ildə həbs edilib. Təqsiri sübuta yetirilmədiyindən azad edilib. Eyni vaxtda 1933-cü ildə sovet hüquq-mühafizə orqanları şübhəli şəxs kimi Xədicə Qayıbovanı da 3 ay müddətinə həbs edirlər. O da həyat yoldaşı kimi casusluqda ittiham olunurdu. Onu əks-inqilabi fəaliyyətdə və türkçülük ideyalarının yayılmasında günahlandırsalar da, heç bir sübut, dəlil olmadığına görə həbsdən azad etməli oldular.

Azad olunduqdan sonra, 1934-cü ildən Xədicə xanım Dövlət Konservatoriyasında elmi fəaliyyətlə məşğul olmağa başlayır. Azərbaycan Dövlət Konservatoriyasının tədqiqat heyətində çalışırdı. Missiyası Azərbaycanın musiqi mirasının araşdırılması idi.

Repressiya illərindən söhbət düşəndə çoxları bunun da öz içimizdən olan düşmənlərin işi olduğunu deyir. Düzdür, öz içimizdə olan erməni düşmənlərin işi, həm elə uzaqgörən siyasətlə edirdilər ki, nəinki işin içində adları hallanmırdı, hətta bunu Azərbaycanlıların adı ilə bağlayıb “öz içimizdən olanlar” ifadəsini də dilimizə ötürürdülər.

Xədicə Qayıbovanın da faciəsinin altından onların əli görünür. 1937-ci ildə həyat yoldaşını yenidən həbs edirlər. Bu dəfə Rəşad Qayıbov geri qayıtmır. 1938-ci ilin iyununda qətlə yetirildiyi barədə sənəd var.

16 mart 1938 tarixində Azərbaycan Daxili İşlər Xalq Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsi birinci bölməsinin 3-cü şöbə rəisinin müavini leytenant Tevosyan belə bir sənəd tərtib edir:

”Türk və İngilis qərargahlarının Bakıda olduqları zaman Xədicə xanım Qayıbova onlarla yaxın əlaqədə olub. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Qayıbova öz evində Müsavat partiyasının başçılarından biri olan Mustafa Vəkilovu gizləmiş və onun qaçması üçün şərait yaratmışdır. M. Vəkilov xaricə qaçıb və hazırda Türkiyədədir. 1924-cü ildə Qayıbovanın evində türk ordusunun zabiti Sultan Hüseynzadə gizlənib. Sonra o, İrana qaçıb və orada alman və yapon kəşfiyyatlarına xidmət edir. Qayıbovanın həyat yoldaşı Rəşid Qayıbov XDİK tərəfindən əksinqilabi-millətçi təşkilatının üzvü kimi həbs edilmişdir. Göstərilənlərə əsasən Qayıbova həbs edilib, Azərbaycan SSR CM-nin 68 maddəsinə əsasən istintaqa cəlb edilməlidir”.

Sonralar onun barəsində araşdırmalar aparan professor Rəfael Hüseynov Xədicə xanımın həbsi ilə bağlı qızı Alanqunun xatirələrini verir: ”Gecə gəlmişdilər. Səs-küyə ayıldım. Anam həmin gəlişə nə qədər hazır olsa da, sarsılmışdı. Rəngi ağappaq idi. Bibim Nigarın əri general Şıxlinski qardaşım Əbdülkərimə gözəl bir şaşka bağışlamışdı. Əsl sənət əsəri idi. Divardan, xalçanın üstündən asılmışdı. Onu da götürdülər...”

Ziya Bünyadov “Qanlı illər” kitabında Xədicə Qayıbova haqqında məqalədə yazır:

“1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik idarəsinin 4390 nömrəli orderinə əsasən Qayıbova Xədicə xanım Şah döngəsi 16 nömrəli evdə həbsə alınmışdı (Qayıbovanın o vaxt 23 yaşlı Abdulkərim adlı oğlu və 12 yaşlı Alanqu adlı qızı var idi)”.

1938-ci il martın 20-də ilk dindirilmə keçirilir.

Müstəntiq Xədicə xanımı əks-inqilabi fəaliyyətlə məşğul olmaqda ittiham etsə də o, ittihamları qəti şəkildə rədd edir.

“ - Özünüzü müqəssir bilirsinizmi?

- Mən əks-inqilabi fəaliyyətlə məşğul olmamışam və bu barədə özümü müqəssir bilmirəm”.

1938-ci il martın 23-də ikinci dindirmədə:

“- Bakıda olan türk və ingilis qoşunlarının zabitlərindən kimi tanıyırdınız?

- Türk qoşunlarının rəhbərlərindən biri Xəlil paşa mənə tanış idi. Onun adyutantı Cavad bəyi və təyyarəçi zabit Əşrəf Timuçini də tanıyırdım. İngilislər arasında tanışlarım yox idi.

- Yuxarıda adlarını çəkdiyiniz türk zabitləri ilə tanışlığınız nə ilə ifadə olunurdu?

- Xəlil paşa tanış kimi dəfələrlə bizim evə gəlibdi. Məni onunla qardaşım Məmməd Müftizadə Tbilisidə tanış etmişdi. Cavad bəylə məni Xəlil paşa tanış etmişdi. Aramızda heç bir şey olmayıb. Təyyarəçi zabit Əşrəf Timuçinlə məni indi xalq düşməni kimi ifşa olunmuş Çingiz İldırım tanış etmişdi.

- Müsavat ordusunun zabitlərindən sizə kim tanış idi?

- General Əliağa Şıxlinski. Mənim keçmiş ərimin qohumudur. General Usubov İbrahim də ərimin qohumudur. Zabit Sultan Hüseynzadə bir zaman mənə bənd olmuşdu və hərdənbir məni teatra dəvət edirdi. Başqa tanış zabitlərim yox idi.

- Sovetləşmədən sonra sizin evinizdə sovet orqanlarından gizlənən olubmu?

- Sovetləşmədən sonra yaşadığım evdə 10-15 gün ərzində Müsavat firqəsinin və hökumətinin liderlərindən biri Mustafa Vəkilov gizlənirdi.

1938-ci il martın 25-də keçirilən üçüncü dindirmədən:

- Müsavat firqəsinin və parlamentinin keçmiş lideri olan Mustafa Vəkilovun gizlənməsi və qaçmasında özünüzü təqsirkar bilirsinizmi?

- Mustafa Vəkilovun qaçmağını bilərək heç kəsə xəbər verməməyimdə özümü təqsirkar bilirəm. Lakin bundan mənim heç bir məqsədim olmayıb və bir də bu haqda Azərbaycan inqilabi komitəsinin sədri Mirzə Davud Hüseynov da bilirdi...

- Siz doğru danışmırsınız. İstintaq müəyyən edib ki, Türkiyə kəşfiyyatının agentlərindən biri olan Dadaş Bünyadzadə casusluq məqsədi ilə sizə ayrı-ayrı tapşırıqlar verir və sizin şəxsən vasitəçiliyinizlə Türkiyə kəşfiyyatı ilə əlaqə saxlayırdı.

- Mən təsdiq edirəm ki, mənim vasitəçiliyimlə Dadaş Bünyadzadə Türkiyə kəşfiyyatı ilə heç bir əlaqə saxlamırdı və o, mənə heç bir tapşırıq vermirdi.

Xədicə xanım dindirmədə heç kimim əleyhinə ifadə verməyib. 9 dəfə dindirmənin heç birində güllələnməyə rəvac verən ifadəsi də yoxdur.

Mayın 8-də müstəntiq Tevosyan 23311 nömrəli istintaq işi üzrə ittihamnamə tərtib edir. Xədicə xanım Qayıbova Azərbaycan SSR CM-nin 68-ci maddəsi ilə müqəssir hesab edilir.

Altı aydan sonra belə qərar çıxarılır:

“Qayıbova Xədicə xanım Osman qızı - Türkiyə konsulxanası ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə güllələnsin, şəxsi əmlakı müsadirə edilsin!”

Onun dindirilmə prosesində o vaxt dövlətə rəhbərlik edən Mir Cəfər Bağırov da bəzən iştirak edirmiş. Bu barədə heç bir sənəddə və araşdırmalarda yoxdur. Dildən-dilə gəlib çatan məlumatlara görə Xədicə xanımı Mir Cəfər Bağırov sevib. Başına gələn bütün bəlaların səbəbi də onunla evlənməyə razılıq verməməsi olub.

Başqa bir iddiaya görə, həyat yoldaşlarının hər ikisi Bağırovun tapşırığı ilə qətlə yetirilib. Guya cəza kəsiləndən sonra Xədicə Qayıbovanın kamerasına gəlib, evlənməyə razılıq versə, azad olunacağını deyir. Xədicə Qayıbova razılıq vermir. Mir Cəfər Bağırov tapançasını çəkib onu vurur və sonra da meyitinin yanında çöküb, göz yaşı tökür.

...1953-cü ildə Mir Cəfər Bağırovun məhkəməsində Qəmər Əlizadə adlı bir qadın şahid ifadəsi verir.

Bu qadın evli ola-ola Mir Cəfər Bağırov ona sevgisini izhar edir, qarşılıq görməyəndə isə qadına əzab verir, təqib edirmiş. Bu qadın zahiri görkəmcə Xədicəyə bənzəyirmiş. Məhkəmənin hakimi Bağırovdan akademik Ələşrəf Əlizadənin həyat yoldaşı Qəmər xanıma niyə əziyyət verdiyini soruşanda Bağırov - Mən onu sevirdim - deyə cavab verib. Qəmər Əlizadənin Xədicə Qayıbovaya çox bənzədiyi deyilir.

Rəsmi sənədlərə görə, X.Qayıbovaya verilmiş cəza 1 həftə sonra Bakıda icra olunur.

1954-cü ildə Xədicə xanımın qızı Alanqu Sultanova Azərbaycan Daxili İşlər Nazirliyinə müraciət edərək, anası haqqında məlumat istəyib. 1955-ci ildə ona verilən məlumatda deyilir:

”Qayıbova Xədicə xanım yoxlanmamış və səthi ifadələrlə ifşa olunub. İstintaq Qayıbovanın casusluğunu təsdiq edən heç bir material əldə etməmişdir. Buna görə də Azərbaycan XDİK-in Xüsusi Üçlüyünün 1938-ci il oktyabrın 19-da Qayıbova Xədicə xanım Osman qızının güllələnməsi haqda qərarı əsassız hesab edilib, ləğv olunmalı və işdə cinayət tərkibi olmadığı üçün iş xətm olunmalıdır.”

Xədicə xanım ona qarşı sürülən bütün bu qondarma ittihamlara görə cəzalandırılacağını bilirdi. Amma heç ağlına da gəlməzdi ki, onu güllələyəcəklər. Sonradan bu barədə ”Xalq düşməni”nin arvadı kimi tutulmuş Sultan Məcid Əfəndiyevin həyat yoldaşı Zivər xanım Əfəndiyeva belə yazacaqdı: ”Dustaqxana qadınlarla dolmuşdu. Onlar ərlərinə görə tutulmuş vəzifəli şəxslərin, hərbçilərin arvadları idilər. Mənim olduğum kamerada gözəl musiqiçi Xədicə xanım Qayıbova və 30 nəfərdən çox başqa qadınlar da vardı. Xədicə xanım çox iradəli, şux qadın idi. Özünü şux aparır, hərdən mahnı zümzümə edir, rəqs edirdi. Bir dəfə belə dedi: ”Mən incəsənət adamıyam. Mənim musiqi dünyam yasa batıb. Gərək özümü qoruyam, sarsılmayam. Eybi yoxdur, lap sürgünə də göndərsələr, məhv olan deyiləm. Orda da musiqi klubu düzəldib rəqs edəcəyəm, oxuyacağam, çalacağam. Qoy onlar sevinməsinlər...”

***Ramilə Qurbanlı***

# “Vətənimizə virtual səyahət” layihəsi çərçivəsində Şabrana virtual tur təşkil edilib

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası karantin rejimi dövründə “Evdə qal və sağlam ol” çağırışını dəstəkləyir. Bir sıra layihələr həyata keçirən kitabxana “Vətənimizə virtual səyahət” layihəsini təşkil etməklə bu çətin dövrdə insanlara dəstək olur və Azərbaycanın şəhər və rayonlarını tanıtmağa çalışır.***

Kitabxanadan bildirilib ki, layihə əsasında növbəti virtual səyahət Şabran rayonuna həsr edilib. Videoçarxın ilk dəqiqələrindən bir şəhər, bir qaçqın qəsəbəsi, altmış kəndin yerləşdiyi rayon ərazisi barədə geniş məlumat verilir.

Təbiətinin göz oxşayan Zağlı və Zeyvə meşələri, Kiçik Qafqaz sıra dağları, Gilgil, Dəvəçi və Şabran çayları, Səmədbulaq, Zeyvə şəlalələri, Ənbil gölü, palçıq vulkanı, həmçinin burada yerləşən




Taxtakörpü su anbarı, Şabran Limanı videoçarxda fotoları ilə birlikdə yer alır.

Şabran rayonunun flora və faunası iqliminə görə fərqlidir. Videoçarxda zoğal, sumaq, zirinc, itburnu, cırhacı alması, Abasbəyi armudu, qoz, badam, quzuqarnı göbələyi kimi bitkilərin fotoları nümayiş edilir.

Videoçarxda Şabran rayonunun tarixi abidələri də verilir. Tarixi abidələr sırasında Çıraq qala, Alban kilsəsi, Çaqqallıtəpə abidəsi, Dağbilici kəndində qədim qəbiristanlıq abidəsi göstərilir.

Videoçarxda, həmçinin muzeylərin siyahısı verilir, Xızırzində Baba, Xaltan İstisu və Pirəkəkül Baba ziyarətgahlarının fotoları sistemli şəkildə əks olunur. Şabranın şöhrət qazanmış görkəmli şəxsiyyətlərinin siyahısı videoçarxda təqdim olunur. Şabranda tarixən inkişaf etmiş sənətkarlıq sahələrindən biri olan xalçaçılıq və müxtəlif növ xalçaların fotoları verilir. Şabran mətbəxinin dadlı təamları videoçarxda yer alır. Rayonda arıçılığın məşhur olduğu da görünür. Videoçarx Şabranın müasir binaları, istirahət mərkəzləri və parklarının fotoları ilə yekunlaşır. Videoçarx Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədovanın “Şabran” mahnısı ilə müşayiət olunur.

Videoçarxları “Kitabsevər uşaqlar” “Facebook” səhifəsində və eyniadlı “YouTube” kanalında da izləmək mümkündür.

# Azərbaycanda “Pandemiya” filmi çəkilib

***Pandemiya təbii fəlakət olmaqla yanaşı insan həyatının bütün sahələrini bürüyən kəskin böhranı ortaya çıxartdı. Bu baxımdan onun fəlsəfi, düşündürücü əhəmiyyəti böyükdür. Lent.az -ın məlumatına görə “Pandemiya” filmi bu fəlsəfə üzərində qurulub.***

Rejissor Rza Rzayevin çəkdiyi ”Pandemiya” adlı film göstərir ki, əsas ölüm təhlükəsi pandemiyanın özündə deyil, cəmiyyət sağlam ümmumineti ilə hər hansı virusun xaricdən gətirdiyi ölüm təhlükəsinin qarşısını ala bilər: “ Ölüm pandemiyaya qədərki cəmiyyətdə, onun ictimai münasibətlərində, fərdlərinin mənəviyyatında naqislik və eybəcərliklərin yetişməsindədir. Cəmiyyət orqanizmi daxildə öz ölümcül xəstəliklərini daşıyır. Pandemiya kəskin bir xarici amil olaraq sadəcə daxildə yetişən bu ölümü üzə çıxarır”.

Filmin ssenari müəllifi və quruluşçu rejissor Rza Rzayev, quruluşçu operator Raid Abbasov, mətn Arzu Əsəd, bəstəkar Firudin Allahverdidir. Baş prodüsser Rövşən Tağıyev və Rza Rzayev, layihə



rəhbəri Rüstəm Əliyev, ikinci rejissor Bəhruz Vaqifoğlu, redaktoru Günay Ardadır.

Filmin nümayişi pandeniyadan sonradır.

# "Çölçü" filminin yeni uğurları

***Rejissor Şamil Əliyevin “Çölçü” filmi Avstraliya, Nepal və Hindistanda keçirilən onlayn müsabiqələrdə ümumilikdə doqquz mükafata layiq görülüb.***

“Unikal” xəbər verir ki, “Çölçü” filmi “Old Monk İnternational Film Festival”da (fevral-may 2020, Nepal-Katmandu) 3 kateqoriya üzrə (ən yaxşı bədii film, rejissor işi və ssenari), “Sand Dance İnternational Film Festival”da (yanvar-may 2020, Hindistan-Racastan) 4 dörd kateqoriya üzrə (ən yaxşı bədii film, rejissor işi, operator və musiqi) mükafat qazanıb.

Həmçinin “Wonderland In-



ternational Film Festival” (yanvar-iyun 2020, Avstraliya-Sidney) və “Monthly Online International Film Festival” (iyun 2020, Hindistan) “Çölçü”nü ən yaxşı bədii film kimi mükafatlandırıb.

“Çölçü” 2012-ci ildə “Azərbaycanfilm” kinostudiyasında istehsal olunub. Filmin ssenari müəllifi Vidadi Həsənov, operatoru Rafiq Quliyevdir. Film indiyədək 50-dən artıq müxtəlif mükafata layiq görülüb.

Rejissor Şamil Əliyevin “Çölçü” filmi Avstraliya, Nepal və Hindistanda keçirilən onlayn müsabiqələrdə ümumilikdə doqquz mükafata layiq görülüb.

# “İçərişəhər-Bakının incisi” inşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



***Azərbaycan Prezidenti İlham Əliyevin 27 fevral 2020-ci il tarixli Sərəncamına əsasən İçərişəhərin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması çərçivəsində Azərbaycanın İndoneziyadakı səfirliyinin elan etdiyi “İçərişəhər - Bakının incisi” inşa müsabiqəsinin qaliblərinə mükafatların təqdim olunması mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, iyulun 9-da keçirilən tədbirdə qalibləri salamlayan səfir Cəlal Mirzəyev cari ildə İçərişəhərin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 ilinin tamam olması ilə əlaqədar dövlətimizin başçısının Sərəncamına uyğun olaraq, səfirlik tərəfindən inşa yazı müsabiqəsinin elan edildiyini bildirib. Səfir İçərişəhərin Azərbaycanın zəngin tarixinin və mədəniyyətinin yaşandığı məkan olduğunu, əcnəbi turistlərin də buranı sevərək ziyarət etdiyini vurğulayıb. Səfir indoneziyalı gənclərin müsabiqədə iştirakının sevindirici hal olduğunu, müsabiqəyə qatılmaqla onların Azərbaycanı yenidən və daha dərindən öyrəndiklərinə əminliyini ifadə edib.

İndoneziyanın müxtəlif ali məktəblərindən 20-dən çox gəncin iştirak etdiyi müsabiqədə birinci yeri Padjajaran Universitetinin tələbəsi Alvis Rahman Bhasuki, ikinci yeri ASEAN Gənclər Təşkilatının üzvü Aulia Asri və üçüncü yeri İndra İravan tutub. Qaliblər müsabiqədə iştiraklarının Azərbaycanı daha yaxından tanımaq üçün gözəl bir fürsət olduğunu qeyd edərək, minnətdarlıqlarını bildiriblər və müsabiqənin qalibləri olduqları üçün özlərini xoşbəxt hiss etdiklərini söyləyiblər. Daha sonra qaliblərə səfirliyin xüsusi sertifikatları və pul mükafatları təqdim edilib.

Qeyd edək ki, İçərişəhərin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması çərçivəsində Azərbaycan səfirliyi tərəfindən İndoneziyada İçərişəhərin təsviri olan poçt markası buraxılıb. Azərbaycan Turizm Bürosu ilə birgə İndoneziya turizm şirkətlərinin iştirakı ilə “Azərbaycan: Bir daha bax və Bakının UNESCO siyahısına daxil edilmiş İçərişəhəri” adlı vebinar keçirilib və İndoneziya mətbuatında “UNESCO-nun irsi - İçərişəhər - Bakının incisi” məqaləsi yayımlanıb.

# Turizm Təlim və Sertifikasiya Mərkəzi yaradılıb

***Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşəbbüsü və təşkilatçılığı ilə turizm sahəsində çalışan mütəxəssislərin peşəkarlığını və əmək bazarında rəqabətqabiliyyətliliyini artırmaq üçün Turizm Təlim və Sertifikasiya Mərkəzi yaradılıb.***

TURİZM TƏLİM VƏ SERTİFİKASİYA MƏRKƏZİ

Dövlət Turizm Agentliyindən bildirilib ki, Azərbaycan Turizm Bürosunun nəzdində fəaliyyət göstərəcək mərkəz turizm sahəsində xidmət keyfiyyətinin yüksəldilməsinə və ixtisaslaşmış peşəkarların hazırlanmasına nail olmaqla turizmin uzunmüddətli inkişafına töhfə vermək məqsədini daşıyır.

Turizm Təlim və Sertifikasiya Mərkəzinin proqramına ilkin olaraq Qonaq qarşılama, Qida və içki, Təmizlik və Aşpazlıq daxil olmaqla 4 modul üzrə kurslar daxil edilib. Modullar 6 əsas turizm regionunda turizm sənayesinin təmsilçiləri arasında ötən ilin avqust-oktyabr ayları ərzində aparılan sorğuya əsasən müəyyənləşdirilib.

Təlimlər məhz hazırda turizm sektorunda müvafiq sahə üzrə çalışan və həmin sahə üzrə ən az 6 ay iş təcrübəsinə malik olan mütəxəssislərin iştirakı üçün nəzərdə tutulur.

Turizm sahəsində geniş təcrübəyə malik olan peşəkarlar tərəfindən keçiriləcək kurslar iştirakçıların təcrübəsi və peşəkarlıq dərəcəsi nəzərə alınaraq Qonaq qarşılama, Qida və içki, eləcə də Təmizlik modulları üzrə başlanğıc, orta və ixtisaslaşmış olmaqla 3 səviyyədə, Aşpazlıq modulu üzrə isə yalnız ixtisaslaşmış səviyyədə keçiriləcəkdir.

Kurslar cari vəziyyət nəzərə alınaraq başlanğıc olaraq onlayn formatda həftədə 2 dəfə təşkil olunacaqdır.

Təlimdə iştirak edən mütəxəssislər sonda sertifikatla təmin ediləcəkdir.

Layihənin həyata keçirilməsində əsas tərəfdaşlar kimi Peşə Təhsili üzrə Dövlət Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), “JW Marriot Absheron” və “Abşeron Hotellər Qrupu” çıxış edir.



# İsti havalarda kondinsionersiz sərinləməyin 7 yolu

***Bir çoxları yayın qızmar günlərində dənizə üz tutur, yaxud bölgələrdə istirahət edir. Əlacı olmayanlar isə təsəllini kondisionerin verdiyi soyuq havada tapır. Nəzərə alsaq ki, hazırda sərt karantin rejiminə əməl edərək evimizdən çıxa bilmirik, o zaman evdə sərinləməyin qaydalarını bilməliyik. Həkimlər deyir ki, kondisioner işləyən otaqda uzun müddət qalmaq orqanizmdə fəsadlara yol açır. Amma çoxu kondinsineri cıxış yolu kimi görür. Beləliklə, sizə isti havalarda sərinləməyin 7 yolunu açıqlayırıq:***

### Evi qaranlıq saxlayın

Pərdələri, jalüzləri gecədən endirin. Evə düşən gün işığı içəridə "parnik effekti" yaradır. Əgər bunun qarşısını alsaz, ev istidən yanmaz, kifayət qədər normal temperatur olar.

### Evi gecədən soyudun

Bütün gecə boyu pəncərələri açıq qoyun, qapıları torlu qapı ilə əvəz edin. Sərin gecə havası evi soyudur və bu temperatur gündüz də normada qalır. Xüsusən yelçəkənli evlərdə bu əla effekt verir. Bina evində yaşayanlar dəhlizə, bloka açılan qapını da axşam 1-2 saatlıq aralı qoysa, ev kifayət qədər nəfəs alacaq.

### Gen, boş, açıq rəngli geyimlər seçin

İsti yay günləri cins, qara şalvar, dar geyimlər, tünd rənglər sizi çox tərlədəcək. Sintetikanı unudun. Təbii pambıq, kətan, krujeva, ipək material seçin. Çalışın üzərinizdə geyim minimum olsun.

### Hindular və ərəblər kimi edin

Onların bir tryükü işə yarayır. Nazik dəsmal, yaylıq və ya pambıq parçanı suda isladın, yaxşıca sıxın və türban, çalma kimi başınıza sarıyıb, boynunuzda bağlayın. Dərhal necə sərinlədiyinizi görəcəksiz.

### Fironların sirri

Bilirsizmi, isti, bürkülü Misir gecələrində kondinsioneri olmayan fironlar və saray əhli necə yatırdı? Mələfəni soyuq suda isladıb, bərk sıxıb, ona bürünüb yatardılar. Mələfə sulu yox, nəm olmalıdır. Bu üsul rahat yuxuya getməyə kömək edirdi. Əgər yaş mələfə istəmirsizsə, onda islaq corablar geyinin.

### İşıqları, texnikanı söndürün

Yayda axşamlar az lampa yandırın, bütün texnikanı elektrikdən ayırın. Bunlar istilik verir. Küncdə zərif bra işığı yetərlidir. Hətta şam belə, lampa kimi istilik vermir.

### İsti şorba, çay və qəhvə olmaz

Qaynar günlərdə qəhvə, şirin su, çay, isti yeməklərdən uzaq durun. Bədəni daxildən isitməyin sizə faydası olmayacaq.

Soyuducuda buz ehtiyatınız olsun. İçəcəyiniz suya buz atın. Hətta buz dolu qabı avtomobilə qoysaz, yolboyu maşın sərin olacaq.

# Qarın, qol və ya beldə piylənmə... – Onlardan necə azad olaq?

***Artıq çəki və piylənmə dövrümüzdə bir çox insanı narahat edən ortaq problemlərdən biridir. Bəziləri isə hər hansı bir nahiyədə (qarın, bel, qollar və s.) yığılan piylərdən şikayətlənir. Ümumilikdə, artıq çəkili deyilsinizsə və sadəcə xüsusi nahiyələrdəki yağlar sizi narahat edirsə bu yazımızı diqqətli oxuyun.***



"Unikal" gencaile.az-a istinadən bildirir ki, həkim diyetoloq Tutu Zeynalova söyləyir ki, belə problemlər karantin dönəmində daha da artdı. Hər gün "qarın nahiyəmdə piylənmə var" şikayəti ilə müraciət edənlərin də sayı olduqca çoxdur. Bu problemlərə daha çox ofis işlərində çalışan insanlarda rast gəlinir:

"Qeyd etmək istəyirəm ki, elə bir möcüzəvi qida yoxdur ki, siz onu yeyəcəksiz və qarnınızdakı piylər əriyəcək. Biz qidalara göstəriş verə bilmirik ki, xiyar yesəm qollarım, qatıq yesəm ayaqlarımdakı piylər əriməlidir, belə bir şey yoxdur. Gedən yağlar orqanizmin ümumi yağ depolarından və hansı nahiyədə yağlanma çoxdursa oradan gedəcək.

Mən bir mütəxəssis kimi, hansı nahiyədə piylənmə çoxdursa, onun səbəbini araşdırmağı tövsiyə edirəm. Bilmək lazımdır piylənmə nə ilə bağlıdır? Burada insulin müqaviməti, D vitamini əskikliyi, tiroid hormonlarının normal çalışmaması və digər başqa səbəblər ola bilər".

Həkim həyat tərzi dəyişikliyi olaraq onu tövsiyə edir ki, bol-bol maye qəbul edilsin:

"Hər gün minimum çəkimizin 3% mislində su içilməlidir. Burda söhbət saf sudan gedir, çay və qəhvədən deyil. Bundan başqa çalışmalıyıq ki, bol tərəvəzli qidalanaq və hazır məhsullardan, şəkərdən uzaq duraq. Bəzən biz meyvənin faydalı olduğunu düşünüb onu da normadan artıq qəbul edirik. Burda meyvə paylarına diqqət etmək lazımdır. Çünki meyvə şəkəri də şəkərdir və normadan artıq yeyilərsə bel nahiyəsində piylənməyə səbəb olur. Gündəlik meyvə norması 3 payın üstünə çıxmamalıdır. Protein ağırlıqlı, az karbohidratlı və faydalı yağlarla zəngin bir rasionun olması məqsədə uyğundur. Çalışmaq lazımdır ki, evdə işlədilən yağı zeytun yağı ilə dəyişib, rəngli tərəvəzlərdən istifadə edilsin".

Tutu xanım onu da qeyd edir ki, son illərdə qarın nahiyəsində piylərin artmasının ən əsas səbəblərindən biri, yanlış qidalanma ilə yanaşı yuxu rejiminin pozulmasıdır. Onun sözlərinə görə yuxusuzluq nəticəsində həmin şəxslər çəki almağa daha çox meyilli olurlar.

Diyetoloq sonda insanlara bol su içməyi, yaxşı yuxu yatmağı və həftədə minimum 150 dəqiqə fiziki aktivliyi tövsiyə etdi: "Fiziki aktivlik dedikdə məşq etmək nəzərdə tutulur. İdman zallarının bağlı olmasını bəhanə etmək olmaz. İstək olduqdan sonra evdə rəqs və yaxud da parkda gəzinti istənilən nəticəni almağa yardımçı olacaq".

Bir digər müsahibimiz isə fitness məşqçi Muxtar Qasımlı oldu.

M.Qasımlının fikrincə burada hər hansısa bir nahiyənin vurğulanması yanlış düşüncədir:

"Qarın və bel hissəsi yağ topladığından bu nahiyələr daha çox nəzərə çarpır. Bütün bunları qaydasına salmaq üçün isə həm xanımlar həm də bəylər, rejimli və aktiv həyat tərzi keçirməlidir. Qidalarda bitki tərkibli və doymuş yağlardan istifadə etmək, zülal dəyərini qaldırıb, karbohidrat dəyərini aşağı salmaq tövsiyə olunur".

Məşqçi onu da söylədi ki, səhərlər ac qarına edilən gəzinti həm sağlamlıq həm də görünüş üçün çox vacibdir. Bundan əlavə bitki çaylarından istifadə etmək, kofedən mümkün qədər uzaq durmaq lazımdır. Su isə ən sevimli içki olmalıdır.

Muxtar Qasımlı ev şəraitində edilə biləcək bir neçə sadə idman hərəkətlərini də oxuculara məsləhət gördü:

"Məşqi əyləncəli və şən hala gətirmək üçün, "Jumping jack", "ski jumping", "open jump", "mountain climber", "side lunge", "knee boxing", "bench lunge" kimi faydalı hərəkətləri ev şəraitində aktiv şəkildə edə bilərsiniz".

# Karantində evdə işləyənlər: BUNLARA DİQQƏT EDİN

***Karantin rejiminə görə bəziləri işi ofisə getmədən, evdən icra edir. Evdə işləmək isə gündəlik işə gedərkən qurulan rejimi bir qədər pozur. Yuxudan durma və yemək yemək saatlarında dəyişikliklər olur. Evdən işləməyinizə baxmayaraq həm mənəvi , həm də fiziki sağlamlığınızın qeydinə qalmağa diqqət yetirin.***

"Unikal" gencaile.az-a istinadən evdə işləyənlərin bilməsi lazım olan vacib qaydaları təqdim edir:

Rejiminizi pozmamağa çalışsanız, həm bu müddətdə sağlam qalar, həm də vəziyyət düzələndə yenidən rahat adaptasiya ola bilərsiniz. Məsələn, hər gün 9-da işdə olmaq üçün 7-də yuxudan oyanırdınızsa, indi də 7, ya da 7:30-da durmağa çalışın. Bu zaman siz səhər yeməyinizi vaxtında yeyib, saat 9-da iş başında ola biləcəksiniz.

İş və ev saatlarını ayırın. Mənəvi olaraq işə başlamaq və işdən uzaqlaşmaq üçün geyiminizi dəyişin. İşə başlamazdan öncə nisbətən işə uyğun geyinib, iş saatı bitəndə də ev geyiminə keçib dincəlin.

İşiniz kompüter arxasındadırsa, deməli, saatlarla oturmağa məcbursunuz. Hər saat başı 10-15 dəqiqə eyvana çıxıb hava almağa, yoqa etməyə, ya da divanda uzanıb bədəninizin dincəlməsinə şərait yaradın. Uzun müddət oturaq vəziyyətdə iş görmək olmaz.

İşinizi stol arxasında görün, divanda, yataqda uzanaraq və ya yarımçıq oturaraq kompüterdə iş görmək sizə daha çox narahatlıq və problem yaradacaq.

Kompüteri bağlayıb televiziya qarşısına keçmək düzgün deyil. Ona görə də iş bitdikdən sonra yemək bişirmək, yaxud ev işlərini görmək daha məsləhətlidir. Mütləq kitab oxumağa və idman etməyə vaxt ayırın. Saatlarla ekran qarşısında olmaq gözlərimiz, zehnimiz



üçün heç də yaxşı deyil.

Artıq iş üçün ofisə gedərkən yolda itirəcəyiniz vaxtı evdə dəyərləndirmək kimi bir şansınız var. Bu şansı yaxşı dəyərləndirmək lazımdır. Yeni araşdırmalar edib, maraq dünyanızı inkişaf etdirə bilərsiniz. Dil öyrənmək, izləməzdiyiniz filmləri izləyib, hazırlamaq istədiyiniz yeməkləri bişirmək üçün əla vaxtdır.

# Çempionlar Liqasında bu mövsümün son püşkü

***Çempionlar Liqasının 2019/20 mövsümünün son püşkatma mərasimi keçirilib.***

"Unikal" qəzeti xəbər verir ki, İsveçrənin Nyon şəhərindəki tədbir üç hissədən ibarət olub.

Öncə 1/4 finalın püşkü atılıb. Burada 4 klub və cavab oyunları hələ keçirilməyən 1/8 finalın 4 cütünün rəqibləri bəlli olub. Portuqaliyanın paytaxtı Lissabonda keçiriləcək və bir qarşılaşmadan ibarət 1/4 görüşləri avqustun 12-15-də oynanılacaq.

Ardınca yarımfinal mərhələsinin püşkü atılıb. Həmçinin final matçının nominal meydan sahibi bəlli olub. Lissabondakı 1/2 final görüşləri avqustun 18-19-da, final 23-də baş tutacaq.




Çempionlar Liqası

1/4 final

1. "Real" (İspaniya) - "Mançester Siti" (İngiltərə) cütünün qalibi - "Lion" (Fransa) - "Yuventus" (İtaliya) cütünün qalibi

2. "Leypsiq" (Almaniya) - "Atletiko" (İspaniya)

3. "Napoli" (İtaliya) - "Barselona" (İspaniya) cütünün qalibi - "Çelsi" (İngiltərə) - "Bavariya"(Almaniya) cütünün qalibi

4. "Atalanta" (İtaliya) - PSJ (Fransa)

Yarımfinal

5. 1-ci cütün qalibi - 3-cü cütün qalibi

6. 2-ci cütün qalibi - 4-cü cütün qalibi

Final

6-cı cütün qalibi - 5-ci cütün qalibi

Qeyd edək ki, 1/8 final cütlərində cavab matçları avqustun 7-8-də keçiriləcək.

# Son püşkün nəticələri bəlli oldu - Avropa Liqasında




***UEFA Avropa Liqasında 1/4 final və yarımfinal mərhələlərinin püşkü atılıb.***

"Unikal" qəzetinin məlumatına görə, mərasimdə final oyununun nominal meydan sahibləri də müəyyənləşib.

1/4 final

1. "Volfsburq" (Almaniya) / "Şaxtyor" (Ukrayna) cütünün qalibi - "Ayntraxt" (Almaniya) - "Bazel" (İsveçrə) cütünün qalibi

2. LASK (Avstriya) - "Mançester Yunayted" (İngiltərə) cütünün qalibi - "Başakşəhər" (Türkiyə) / "Kopenhagen" (Danimarka) cütünün qalibi

3. "İnter" (İtaliya) / "Xetafe" (İspaniya) cütünün qalibi - "Reyncers" (Şotlandiya) / "Bayer" (Almaniya) cütünün qalibi

4. "Olimpiakos" (Yunanıstan) / "Vulverhempton" (İngiltərə) cütünün qalibi - "Sevilya" (İspaniya) - "Roma" (İtaliya) cütünün qalibi

Yarımfinal

4 cütünün qalibi - 2 cütünün qalibi

3 cütünün qalibi - 1 cütünün qalibi

Qarşılaşmalar Almaniyanın Köln, Düsseldorf, Duysburq və Gelzenkirxen şəhərlərində olacaq.

1/8 finalın oyunları 5-6 avqustda, 1/4 finalın görüşləri isə 10-11 avqustda keçiriləcək. Yarımfinal qarşılaşmaları 16-17 avqustda, final isə 21 avqustda Kölndə baş tutacaq. Həlledici matçda "Olimpiakos" (Yunanıstan) / "Vulverhempton" (İngiltərə) cütünün qalibi - "Sevilya" (İspaniya) - "Roma" (İtaliya) cütünün qalibi ilə LASK (Avstriya) - "Mançester Yunayted" (İngiltərə) cütünün qalibi - "Başakşəhər" (Türkiyə) / "Kopenhagen" (Danimarka) cütünün qalibi arasındakı görüşdən üstün ayrılan tərəf nominal ev sahibi olacaq.

Qalib hər mərhələdə 1 oyunla müəyyənləşəcək, matçlar Bakı vaxtı ilə saat 20:55 və 23:00-da başlayacaq.

Qeyd edək ki, Avropa Liqasında 1/8 final mərhələsinin baş tutmayan "Xetafe" (İspaniya) - "İnter" (İtaliya) və "Roma" (İtaliya) - "Sevilya" (İspaniya) qarşılaşmaları da 1 oyundan ibarət olacaq.

# "Qarabağ" millimizin oyunçusunu transfer etdi

***"Qarabağ" Azərbaycan millisinin qapıçısı Emil Balayevi transfer edib.***

"Unikal" qəzeti klubun rəsmi saytına istinadən xəbər verir ki, Ağdam klubu "Zirə"dən ayrılan qapıçı ilə müqavilə imzalayıb. Qeyd edək ki, Emil



Balayev indiyədək "Neftçi", "Sumqayıt", "Araz Naxçıvan", "Qarabağ", "Səbail", "Ayntraxt" (Frankfurt, Almaniya) və "Tobol" (Qazaxıstan) klublarında çıxış edib. 26 yaşlı qolkiper milli komandada 5 oyun keçirib.

# Basketbolçu qadına klub prezidentindən əxlaqsız təklif

***Serbiyalı qadın basketbolçu Militsa Daboviç açıqlaması ilə hər kəsi şoka salıb.***

"Unikal" qəzeti xəbər verir ki, idmançı 2009-cu ildə "Beşiktaş"dan "Palero"ya keçidi barədə danışarkən Yunanıstan klubunun prezidentinin onunla yatmaq istədiyini deyib.

38 yaşlı basketbolçunun sözlərinə görə, onun transfer edilməsinin də səbəbi məhz bu olub

Militsa Daboviç hıtta klub prezidentinin ona 1 gecəlik münasibət təklif etdiyini deyib:

"2009-cu ildə "Beşiktaş"dan Yunanıstan klubuna getdim. Mənə aylıq 20 min avro maaş ödəyirdilər və bu, böyük rəqəm idi.

Klub prezidenti mənə bir gecəlik münasibət təklif etdi. Onun bu istəyini qəbul etmədim. Buna görə 3 ay maaşımı vermədilər və sonra da müqaviləmi pozdular. Buna görə qürurlu insanam. Vicdanım sakitdir və gecələr rahat yatıram".

Xatırladaq ki, Daboviç 2016-cı ildə Serbiya yığması ilə Rio olimpiadasında bürünc medal qazanıb və həmin il karyerasını bitirib.

# Pandemiya dövründə Cüdo Federasiyasında SON DURUM

***Xəbər verdiyimiz kimi, ölkədə koronavirus pandemiyası ilə əlaqədar karantin rejimi elan olunub. Təbii ki, koronavrus bütün sahələrə olduğu kimi idmana da təsirsiz ötüşməyib.***




"Unikal" qəzeti xəbər verir ki, idmançıların son durumu ilə bağlı Azərbaycan Cüdo Federasiyası məlumat verib:

"Azərbaycan Cüdo Federasiyası mütəmadi olaraq milli komandamızın üzvləri ilə əlaqə saxlayır, onların vəziyyəti ilə maraqlanır. Həm böyüklər, həm gənclər, həm yeniyetmələr, həm də qadınlardan ibarət seçmə komandaların məşqçi heyəti ilə əlaqə saxlayır, fikir mübadiləsi aparırıq.

Bildiyiniz kimi, hazırda heç bir cüdo yarışı keçirilmir. Beynəlxalq Cüdo Federasiyasının verəcəyi qərarlara əsasən milli komandalarımızın da gələcək təqvim planları müəyyənləşəcək.

Ümid edirik ki, tezliklə bütün dünya COVİD-19 bəlasından qurtulacaq və cüdoçularımız yenidən beynəlxalq yarışlarda qazandıqları qələbələrlə xalqımızı sevindirəcək".

# "Lokomotiv"in daha 4 futbolçusu koronavirusa yoluxdu



***Bolqarıstanın "Lokomotiv" (Plovdiv) klubunda koronavirusa yoluxmuş futbolçuların sayı artmaqda davam edir.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, bu gün daha 4 oyunçunun test nəticəsi müsbət olub.

Komandada ümumilikdə 9 futbolçu və klubun daha 3 əməkdaşında virus aşkarlanıb.

Mütəxəssislərin fikrincə, Sofiya və Plovdivdə koronavirusa yoluxan insanların sayının artması "Lokomotiv"in MOİK-i penaltilər seriyasında məğlub etdiyi Bolqarıstan Kubokunun final matçı ilə birbaşa əlaqəlidir. Matça sosial məsafəni saxlamayan və qoruyucu maska taxmayan 12 min azarkeş qatılıb.

Koronavirus hallarının artması səbəbindən iyulun 10-dan etibarən ölkədə bütün idman tədbirlərinin, o cümlədən futbol matçlarının tamaşaçısız keçirilməsinə qərar verilib və digər məhdudiyyətlər tətbiq olunub.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# "İki ilin maaşını indi yavaş-yavaş xərcləyirəm" - Brilliant Dadaşova

***"Ağlımıza gəlməyən hadisələr başımıza gəldi". Bu sözləri Unikal.org-a açıqlamasında xalq artisti Brilliant Dadaşova deyib. Müğənni bildirib ki, karantin döneminin yaratdığı maddi çətinlik ondan da yan keçməyib:***



"Çalışırıq çətin də olsa, qaydalara riayət edək. Çünki koronavirus pandemiyası bütün dünyada yaşanır. Arada karantin şərtlərinə uyğun olaraq, sms icazəsi alıb işlərimlə bağlı studiyaya gedirəm. Əlbəttə ki, karantin dönəmi maddi çətinlik yaratdı. Sənət sərmayə tələb edir, pul verib, mahnı alırıq, oranjiman da, studiya da pulludur və öz hesabımızadır. Mənim tək gəlir mənbəyim toylar olub. Toydan olan gəliri həm geyim, makiyaj kimi bir çox sosial tələbatlarıma, həm də musiqilərin üzərinə sərmayə kimi yatırmışam. Hər yeni musiqi də daimi yeni sərmayə tələb edir. İndi çətinliyin olması normaldır. Xalq artisti adına görə mən ayda 150 manat maaş alıram. Bir maraqlı məqamı deyim son iki ildən çoxdur ki, mən maaşıma toxunmurdum, toydan qazandıqlarıma görə o maaş balansımda toplanırdı. Baxın, həmin pul belə bir dönəmdə köməyimə çatdı. O iki ilin maaşını indi yavaş-yavaş xərcləyirəm. Çox vaxt barəmizdə yalan, cəfəngiyyatlar danışırlar. Amma bizim ailədə kimsənin özəl biznesi yoxdur, heç vaxt da olmayıb. Bir tək özəl biznesimiz olub, o da səsim. Düzdür ailədə 3 nəfərik, oğlum da yoldaşım da maaş alır. Şikayət etməyi sevmirəm müəyyən çətinliklər var, amma xeyirlisiylə hər şey düzələcək".

***Dürrə Həsənova***

# Pərvindən sərt sözlər: "Səviyyəcə aşağı insanla mənə xəyanət etdi..."



***Məşhur aktrisa Pərvin Abıyeva İnstaqramda canlı yayım açıb.***

"Unikal" teleqraf.com-a istinadən xəbər verir ki, şəxsi həyatından danışan aktrisa sosial şəbəkə istifadəçilərinin "Sevgiliniz varmı?" sualını "Bəli, sevgilim var" deyə cavablandırıb.

Aktrisa keçmiş sevgilisindən xəyanətə görə ayrıldığını ilk dəfə etiraf edib: "İnsan bir-iki dəfə xəyanəti bağışlaya bilər. Amma davam edəndə bağışlaya bilmirsən. Həm də elə bir insanla sənə xəyanət edir ki, bağışlaya bilmirsən, səviyyəcə çox aşağı. Elə insanı mütləq unutmaq lazımdır. Ailəm, uşağım olsaydı bəlkə də xəyanəti bağışlayardım. İnsanın istəmədən başına hər hadisə gələ bilər. O səni ya xoşbəxt, ya da bədbəxt edər".

Pərvin Abıyeva "Kişilərə nifrət eydiyinizi deyirsiniz. Bəs, niyə sevgiliniz vardı" sualına isə "O sevgili kimi deyildi" - cavabını verib.

Aktrisa xanımların xəyanət etməsinə də münasibət bildirib: "Qəlbində düzgün olan və xarakterli xanımlar xəyanət etmirlər".

"Niyə gözləriniz qəmlidir?" sualına isə o, belə cavab verib: "Çünki yaşadığım acı, qəm-kədər mənimlədir. Normaldır...".

Qeyd edək ki, Pərvin Abıyeva keçmiş polis Murad Abdullayev ilə sevgili olub.

# "Əsəblərim keyiyib, hirslənmirəm" - Nüşabədən tənqidlərə cavab

***Əməkdar artist Nüşabə Ələsgərli sosial şəbəkədə ünvanına yazılan tənqidlərə münasibət bildirib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, müğənni bir vaxtlar mənfi rəylərə görə əsəbiləşdiyini etiraf edib:

"Sonra o qədər yazdılar ki, əsəbim "mazol" oldu. Əsəblərim keyləşib. Tənqidləri oxuyuram və normal qəbul edirəm. Yəqin karantinə görədir. Yəni dünya nə haydadır, siz nə hayda".



# "Artıq toylar başladı" - Rəqsanə

***Bir neçə ildir Rusiyada yaşayan müğənni Rəqsanə İsmayılova üç aydan sonra toy məclisində iştirak edib.***

Sənətçi Moskvada karantin rejiminin yumşaldılmasından sonra məclis idarə edib. O, ilk olaraq azərbaycanlı müğənni Fəqan Səfərovun toy mərasiminə qatılıb.

Müğənni daha sonra instaqramda videolar paylaşaraq "Üç ay əvvəl çox ağır bir dönəmi geridə qoyduq. Xəstəlik oldu, hər yer bağlandı və insanlar çətin anlar yaşadı. İndi biz normal həyata qayıtdıq. Həyatımız olsa da, yaşamağımız çətinləşmişdi. Üç ay geridə qaldı, artıq toylar başladı",- deyə bildirib.

# Karantin qaydalarını pozan müğənni polis bölməsinə aparıldı

***Binəqədi rayonu, Abay Kunanbayev küçəsi, "Bolluq" bazarının yanında qanunsuz olaraq müştərilərə yerində xidmət göstərən paltar mağazası aşkar edilib.***

Bu haqda Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Əlahiddə Çevik Polis Alayının keçirdiyi əməliyyat zamanı mağaza sahibi, orada olan satıcılar və müştərilər inzibati qaydada məsuliyyətə cəlb olunublar və ərazi üzrə Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinə aparılıblar.

Obyektdə karantin qaydalarını pozaraq qapalı məkanda olan şəxslərdən biri də Nəfəs adlı müğənnidir.

# Azərbaycanlı müğənni koronavirusdan sağaldı

***Rusiyada məşhurlaşan azərbaycanlı müğənni Bahh Tee (Bəxtiyar Əliyev) bir müddət əvvəl koronavirusa yoluxduğunu açıqlamışdı.***

"Unikal" xəbər verir ki, sənətçi sağaldığını deyib. O, 10 gündən çox COVID-19-dan müalicə olunduğunu söyləyib.

Ötən gün ifaçı sosial şəbəkədə müalicələrini etdiyini və həkimin ona tam sağaldığını dediyini bildirib. Bahh vurğulayıb ki, yenidən test verib və orqanizmində heç bir virus aşkarlanmayıb.

Qeyd edək ki, Bahh Tee iyunun 30-da İnstaqram səhifəsində koronavirus infeksiyasına yoluxduğunu deyərək, onunla görüşən hər kəsə xəbər vermişdi.